Dr. Ruslan Atakişiyev
Sevinc Məmmədova
Radil Fətullayev

# Bələdiyyələrdə subvensiya layihələrinin hazırlanması üzrə bələdçi

(Praktik nümunələr əsasında)

BAKI - 2015

**Müəlliflər:**

**Dr. Ruslan Atakişiyev –** iqtisad üzrə fəlsəfə doktoru,
**Sevinc Məmmədova** – ACCA üzrə beynəlxalq sertifikatlı ekspert
**Radil Fətullayev** – mühasibatlıq üzrə dissertant, İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin vitse-prezidenti

***Baş redaktor:***

**Mehdi Səlimzadə**
Ədliyyə Nazirliyi, Bələdiyyələrlə iş mərkəzinin rəisi

***Elmi redaktor:***

**Ruslan Atakişiyev**
iqtisad üzrə fəlsəfə doktoru, İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri

***Məsləhətçi qrup:***

**İbad İbadov, Ziya Məmmədov** –İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin ekspertləri

Kitabda bələdiyyə büdcəsinin formalaşması mənbələri, dövlət və yerli büdcələrin qarşılıqlı münasibətləri, o cümlədən subvensiya maliyyələşməsinin yerli özünüidarə orqanlarının inkişafında rolu kimi məsələlər öz əksini tapmışdır. Həmçinin, nəşrdə 3 praktiki subvensiya layihəsi oxucuların diqqətinə təqdim olunmuşdur. Bununla yanaşı subvensiya layihəsinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdimi və bununla bağlı lazım olan sənədlər haqqında məlumat da öz əksini tapmışdır.

Bu kitab bələdiyyə sektorunda çalışan ekspertlər, mütəxəssislər, mühasiblər üçün nəzərdə tutulmuşdur. Bununla yanaşı bələdiyyələrin subvensiya layihələrinin qəbulu və qiymətləndirilməsi sahəsində çalışan icra orqanlarının əməkdaşları da istifadə edə bilərlər. Kitab, içərisində daşıdığı məlumatın əhəmiyyəti baxımından bələdiyyə idarəçiliyi üzrə təhsil alan tələbələr, magistrlər və doktorantlar üçün də dəyərli bir vəsaitdir.

ISBN: 978–9952–460–13–1
Bakı, «Meqaprint» Mətbəəsi, 2015. – 155 səh.

© «GİZ», 2015

Bu vəsait GİZ-in “Cənubi Qafqazda Yerli Özünüidarəetmə” proqramı çərçivəsində hazırlanmışdır. Kitabın məzmunu müəlliflərə aiddir və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və Almaniya hökumətinin mövqeyini əks etdirmir.

**QEYD:** *Kitaba Azərbaycan Respublikası Maliyyə Nazirliyində baxılmış və onun mətninin təkmilləşdirilməsi ilə bağlı 02/06-129-4460 saylı, 21 iyul 2015-ci il tarixli məktub əsasında təkliflər verilmişdir.*

# M Ü N D Ə R İ C A T

Ön Söz........................................................................................ 4
Kitabdan istifadə qaydaları .......................................................................5-8

1. Bələdiyyə büdcəsinin formalaşması mənbələri ...................................9-16
2.Subvensiya maliyyələşməsinin əsasları ..............................................17-21
3. Bələdiyyə büdcəsinin formalaşmasında subvensiyanın rolu və yeri ..22-27
4. Subvensiya layihələrinin hazırlanması metodu .................................28-45
5. Subvensiya layihələrinin iqtisadi-maliyyə əsaslandırılmasının metodoloji əsasları......................................................................................46-65
6. Nümunəvi subvensiya layihələrinin iqtisadi – maliyyə əsaslandırılması üzrə praktiki misallar ..........................................................................66-76
7. Bələdiyyələrdə cari ilin gözlənilən və ötən ilin büdcəsinin faktiki nəticələri barədə arayışın hazırlanması..................................................77-86
8. Növbəti büdcə ili üzrə yerli büdcələrin nəzərdə tutulan gəlirləri və xərcləri haqqında hesabatların hazırlanması üzrə praktiki təlimatlar ..............87-101
9. Ötən ildə yerli büdcənin icra vəziyyəti barədə auditor rəyinin alınması qaydaları.........................................................................................102-104
10. Subvensiya layihələrinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdimatı qaydaları.........................................................................105-107
11. Subvensiya layihəsinin idarə olunması (project managament).....108-127
İzahlı lüğət ......................................................................................128-139
ƏLAVƏLƏR 1: Bələdiyyələrin maliyyələşməsi ilə bağlı Qanunvericilikdən çıxarışlar.......................................................................................140-151

İstifadə olunmuş ədəbiyyat siyahısı ..................................................152-154

# ÖN SÖZ

Azərbaycan respublikası müstəqillik qazandıqdan sonra idarəetmə sahəsində həyata keçirilən uğurlu siyasətdən biri də yerli özünüidarə orqanlarının formalaşdırılmasıdır. Müasir dövrdə ölkəmizdə bələdiyyələrin inkişafı, onların fəaliyyətinin beynəlxalq təcrübə əsasında formalaşdırılması, maliyyə-iqtisadi müstəqilliklərinin təmin olunması o cümlədən bu idfarəetmə formasının yerlərdə nüfuzunun və təsirinin artırılması istiqamətində silsilə işlər həyata keçirilir.

Belə ki, bələdiyyələrin qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", Azərbaycan Respublikasının Qanunları qəbul olunmuşdur.

Qeyd edək ki, respublikamızda bələdiyyələrin tərəqqisi istiqamətində aparılan başlıca işlərdən biri də bu orqanların normal fəaliyyətinin təmini üçün onların maliyyə-iqtisadi təsərrüfat sistemlərinin formalaşdırılmasıdır. Hal-hazırda ölkədə mövcud olan yerli özünüidarə orqanlarının əsas maliyyə mənbəyi yerli vergi və ödənişlər, mülkiyyətin və əmlakın satılmasından qazanılan gəlirlər, eyni zamanda dövlət büdcəsindən ayrılan dotasiyalardır. Bunlarla yanaşı bələdiyyəyə digər daxilolmalar onların iqtisadi təminatının formalaşdırlmasında mühüm rol oynayır.

Bələdiyyə büdcəsinin formalaşdırılması, onun mərkəzi büdcədən asılılığının azaldılması Azərbaycan hökuməti üçün hələ də prioritet daşımaqdadır. Bələdiyyələrin maliyyələşməsi istiqamətində yeni üsullar araşdırılır və daha optimal vasitələr üzə çıxarılaraq onların tətbiqi genişləndirilir. Son dövrlər dövlət büdcəsindən bələdiyyələrə subvensiya vəsaitinin verilməsi məsələsi daha çox diqqət mərkəzindədir. Bu qəbildən Azərbaycan Respublikasının Prezidenti tərəfindən 20 iyun 2014-cü il tarixində imzalanmış "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununu Bələdiyyələrdə subvensiya maliyyələşməsi üçün yeni mərhələ açmışdır.

Subvensiya maliyyələşməsi, bələdiyyə idarəçiliyində proqramlı yanaşma, dövlət büdcəsindən ayrılan vəsaitin qənaətlə istifadə olunması, səmərəli sahələrin üzə çıxarılması, əlavə maliyyələşmə imkanlarının formalaşması baxımından böyük əhəmiyyət kəsb edir.

Bu baxımdan "Bələdiyyələrdə subvensiya layihələrinin hazırlanması üzrə" kitabın hazırlanması mövzu baxımından Azərbaycvanda bələdiyyələrin büdcədən maliyyələşməsi istiqamətində aparılan islahatlara uyğun olaraq aktuallıq kəsb edir.

Kitabda subvensiya maliyyələşməsinin cəlb olunması istiqamətində bələdiyyələrdə layihələrin hazırlanması ilə bağlı praktiki biliklərin verilməsi dövlət büdcəsindən vəsaitlərin əldə olunması məqsədilə yerli özünüidarə orqanlarının müraciətlərinin daha keyfiyyətli hazırlanması baxımından da əhəmiyyət daşıyır.

Bununla yanaşı kitabda təqdim olunan nümunəvi layihələr bələdiyyələrdə proqramların hazırlanmasında yaradlıcılıq bacarıqlarının formalaşması, dövlət proqramlarının yerlərdə tətbiqinə köməkliyin götərilməsi, yeni iş yerlərinin açılması idayalarının inkişafı baxımından da maraqlıdır.

Hesab edirəm ki, bələdiyyələr özlərinə maliyyə vəsaitlərinin cəlbində bu kitabda təqdim olunan tövsiyələri istifadə etməklə uğurlu fəaliyyət üçün yeni imkanlar qazana bilərlər.

**Mehdi Səlimzadə**
*Ədliyyə Nazirliyi, Bələdiyyələrlə iş mərkəzinin rəisi*

# KİTABDAN İSTİFADƏ QAYDALARI

**Əziz oxucu!**

Bu kitab bələdiyyələrin maliyyələşməsində yeni bir alət olan subvensiya haqqında ətraflı məlumat almaq baxımından çox əhəmiyyətlidir. Bildiyimiz kimi Azərbaycanda bələdiyyə institutunun formalaşması müasir tariximizin mütərəqqi dəyişiklikləri kimi yadda qalmaqdadır. Bu gün bələdiyyələrin inkişaf olunması istiqamətində Azərbaycan hökuməti, ölkə ictimaiyyəti və beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində xeyli tədbirlər həyata keçirilir. Lakin buna baxmayaraq, yerli özünüidarə orqanlarının müasir tələblərə cavab verəcək şəkildə tərəqqisinin qarşısında hələ də bir sıra görülməli işlər dayanmaqdadır. Əfsuslar olsun ki, bələdiyyələr hələ də maliyyə cəhətdən özlərinin tam müstəqilliklərini formalaşdıra bilməmişlər. Hələ də əksər bələdiyyələrdə Dövlət büdcəsindən ayrılan dotasiyalar onların gəlirlərinin və yerli büdcələrinin formalaşmasının əsasını təşkil edir.

Dövlət vəsaitinin effektiv idarə olunması, səmərəli istifadə edilməsi, ayrılmış maliyyənin bələdiyyənin dayanıqlı inkişafına təminat verməsi kimi məsələlər günümüzün aktual probleminə çevrilmişdir. Bu baxımdan bələdiyyə büdcəsinin formalaşmasında, yerli layihələrə alternativ maliyyə resurslarının cəlb edilməsində subvensiya maliyyələşməsinin rolu çox böyükdür.

Bu baxımdan kitabda həm bələdiyyələrin maliyyə mənbələrinə, həm də ayrıca subvensiya maliyyələşməsinə yer ayrılması həmin vəsaitlərdən yerli özünüidarə orqanlarının yararlanması, bölgələrdə sosial-iqtisadi inkişafa, ekoloji tarazlığa nail olunması baxımından əhəmiyyət kəsb edir.

Nəzərinizə çatdırmaq istərdik ki, kitab özündə nəzəriyyə və praktikanın qarşılıqlı əlaqəsini birləşdirir. Bu baxımdan kitabdan düzgün istifadə etdiyiniz təqdirdə sizdə müstəqil şəkildə subvensiya layihələrini hazırlamaq bacarığı formalaşacaqdır. ***Ona görə də nəşrdən səmərəli bir şəkildə yararlanmaq üçün növbəti hissəni "kitabın strukturu və istifadə təlimatı"nı diqqətlə oxumağınızı tövsiyə edirik.***

**Kitabın strukturu və istifadə təlimatı:**

Qeyd edək ki, kitab subvensiya maliyyələşməsi sahəsində bələdiyyə əməkdaşlarının bilik və bacarıqlarının artırılmasına yönəldilmişdir. Kitabın **"Bələdiyyə büdcəsinin formalaşması mənbələri"** fəsli yerli özünüidarəorqanlarının büdcələrinin formalaşması mənbələri, o cümlədən maliyyələşmə yolları Azərbaycan Respublikasının mövcud Qanunvericilik bazasına istinad olunaraq aşılanmış, beynəlxalq təcrübədən istifadə olunmuşdur. Həmçinin yerli vergilər, onların dərəcələri və istiqamətləri haqqında geniş məlumat verilmişdir.

**"Subvensiya maliyyələşməsinin əsasları"**fəslində isə dövlət büdcəsi ilə yerli büdcənin qarşılıqlı əlaqəsi göstərilmişdir. Burada dövlət büdcəsi hesabına yerli büdcəyə təqdim olunan maliyyə alətləri haqqında məlumat verilmişdir. Sonda subvensiya maliyyələşməsi üzərində daha çox dayanılaraq onun mahiyyəti açıqlanmışdır.

**"Bələdiyyə büdcəsinin formalaşmasında subvensiyanın rolu və yeri"** fəslində isə bələdiyyələrin subvensiya maliyyələşməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2014-cü il tarixli "Büdcə sistemi haqqında" Qanununa edilmiş müvafiq düzəlişin şərhi, bələdiyyələrdə subvensiya vəsaitlərinin istifadə imkanları və istiqamətləri, dövlət büdcəsindən maliyyənin əldə olunması ilə bağlı büdcə prosesi haqqında məlumat öz əksini tapmışdır.

Qeyd edək ki, kitabın "**Subvensiya layihələrinin hazırlanması metodu"** fəsli daha çox diqqət yetirilməli və öyrənilməli bölmələrdən biridir. Beləki, burada bələdiyyələr tərəfindən subvensiya vəsaitlərinin əldə olunması ilə bağlı praktiki məlumatlar yer almaqdadır. Bu fəsildə ilkin olaraq subvensiya layihələrini hazırlamağa başlayarkən nəyə daha çox diqqət yetirməli olduğunuz haqqında geniş məlumatlar öz əksini tapmışdır. Layihə öncəsi müzakirələr, məsləhətləşmələr, görüşlər, sənədlərin və statistik məlumatların toplanması qaydaları göstərilmişdir. Həmçinin bu fəsildə subvensiya layihəsinin işlənməsi ilə bağlı ümumi layihə forması qeyd olunmuşdur.

Sonra bu bölmədə sosial-iqtisadi və ekoloji məsələlər olmaqla 3 nümunəvi subvensiya layihəsi verilmişdir. Qeyd edək ki, bu layihələrin hər birini oxuduqdan sonra müvafiq olaraq onların ikinci hissəsini "**Nümunəvi subvensiya layihələrinin iqtisadi – maliyyə əsaslandırılması üzrə**

**praktiki misallar"** fəslindən, layihələrin idarəolunması ilə bağlı hər 3 proyektin üçüncü hissəsini isə əlaqəli olaraq**"Subvensiya layihəsinin idarə olunması (project managament)"** fəslindən oxumaq lazımdır.

Bir layihənin 3 hissəsini müxtəlif fəsillərdən oxumaqla sonda siz bir proyekt haqqında müfəssəl məlumat əldə edirsiniz.

**"Subvensiya layihələrinin iqtisadi-maliyyə əsaslandırmasının metodoloji əsasları"**fəslində subvensiya layihələri hazırlanan zaman onun özünüdoğrultma səviyyəsinin ölçülməsi, ölkə ÜDM-nə təsiri, səmərəliliyi kimi məsələlərin əsaslandırılmasının metodları verilmişdir.

**Qeyd:** Bu fəsil ümumi yanaşmanı xarakterizə etməklə subvensiya layihələrinin həm kiçik məbləğ, həm də böyük məbləğlər üzrə əsaslandırmasını ehtiva edir. Bu fəsildə göstərilən nümunələr gələcəkdə subvensiya layihələri hazırlanan zaman onların iqtisadi-maliyyə əsaslandırması şərt kimi qəbul oluna bilməz. Ona görə bu hissəni məlumat üçün oxuyub layihələrinizdə praktiki əhəmiyyət daşıyacaq növbəti fəslə keçməyiniz məsləhətdir.

**"Nümunəvi subvensiya layihələrinin iqtisadi – maliyyə əsaslandırılması üzrə praktiki misallar"** bölməsini dərindən oxumaq tövsiyə olunur. Çünki burada **"Subvensiya layihələrinin hazırlanması metodu"** fəslində 3 proyektin ayrı-ayrılıqda iqtisadi-maliyyə əsaslandırılması öz əksini tapmışdır. Burada qeyd olunan metodlar gələcəkdə subvensiya layihələrinin hazırlanmasında sizin üçün lazımlı ola bilər.Ona görə də bu bölməni oxuyan zaman onunla əlaqəli fəsli də nəzərdən keçirməklazımdır. Belə olduğu halda məntiqi ardıcıllığı öyrənə bilərsiniz.

**"Bələdiyyələrdə cari ilin gözlənilən və ötən ilin büdcəsinin faktiki nəticələri barədə arayışın hazırlanması"**fəslindəmüvafiq icraedici qurumlara dövlət büdcəsindən maliyyələşmə üçün subvensiya layihələrini təqdim edən zaman əlavəsənədlər haqqında arayışın hazırlanması formaları, qaydaları göstərilmişdir.

**"Növbəti büdcə ili üzrə yerli büdcələrin nəzərdə tutulan gəlirləri və xərcləri haqqında hesabatların hazırlanması üzrə praktiki təlimatlar"** fəslindəmüvafiq icraedici qurumlaradövlət büdcəsindən maliyyələşmə üçün subvensiya layihələrini təqdim edən zaman əlavə olunacaq hesabatların hazırlanması şəkli, qaydaları, o cümlədən nümunələri öz əksini tapmışdır.

**“Ötən ildə yerli büdcənin icra vəziyyəti barədə auditor rəyinin alınması qaydaları”** fəslindəmüvafiq icraedici qurumlaradövlət büdcəsindən maliyyələşməsi üçün subvensiya layihələrini təqdim edən zaman əlavə ediləcək auditor rəyinin forması və onun hazırlanma qaydası göstərilmişdir.

**“Subvensiya layihələrinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdimatı qaydaları”** fəslində isə bələdiyyələrə Nazirliyə subvensiya layihələrini təqdim edən zaman tələb olunan sənədlər haqqında müfəssəl məlumat verilmişdir.

“**Subvensiyalayihəsinin idarəolunması(project managament)”** fəsli kitabda yazılmış 3 nümunəvi subvensiya layihəsinin idarəolunması ilə bağlı praktiki təlimatları özündə əks etdirir. Bu fəsil iki hissədən ibarətdir. Birinci hissədə beynəlxalq təcrübədə layihələrin idarəolunması praktikasından çıxış edilərək Azərbaycanda bələdiyyələr tərəfindən tətbiqi mümkün olan təlmatlar öz əksini tapmışdır. Fəslin ikinci hissəsində isə artıq kitabda yer alan 3 layihənin hər biri üzrə praktiki misallar öz əksini tapmışdır.

Bu fəsli oxuyan zaman da layihələrin birinci və ikinci hissələrinin yazıldığı **“Subvensiya layihələrinin hazırlanması metodu”** və **“Nümunəvi subvensiya layihələrinin iqtisadi – maliyyə əsaslandırılması üzrə praktiki misallar”** bölmələrini də nəzərdən keçirmək tövsiyə olunur.

Sonda kitabın bütün müəllifləri adından sizə uğurlar arzulayaraq nəşrimizi diqqətinizə çatdırırıq.

MÜƏLLİFLƏRDƏN

.

# 1 BƏLƏDİYYƏ BÜDCƏSİNİN FORMALAŞ MASI MƏNBƏLƏRİ



Kitabın əsas mövzusu olan Subvensiyaya keçməzdən qabaq müasir dövrdə Bələdiyyə (yerli) büdcələrinin formalaşmasına qısaca nəzər salaq. Beynəlxalq aləmdə olduğu kimi Azərbaycan Respublikasında da bələdiyyələr onlara Qanunvericlik çərçivəsində verilmiş imkanlar hesabına öz büdcələrini formalaşdıra bilərlər.

Qeyd edək ki, Bələdiyyə maliyyəsi dedikdə, yerli əhəmiyyətli məsələlərin həlli üçün maliyyə resurslarının formalaşması, bölgüsü və istifadəsi ilə əlaqədar yaranan sosial- iqtisadi münasibətlərin məcmusu başa düşülür.Bu münasibətlər yerli özünüidarə(bələdiyyə) orqanları ilə həmin bələdiyyə qurumunun ərazisində yaşayan əhali, habelə orada fəaliyyət göstərən təsərrüfatçılıq subyektləri arasında meydana çıxır.

“Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununa (7 dekabr 1999–cu il,№ 772-İQ) əsasən bələdiyyənin maliyyə vəsaitinin formalaşması və istifadəsi özünüidarə, müstəqillik, aşkarlıq və milli mənafenin respublika mənafeyi ilə əlaqələndirilməsi prinsipinə əsaslanır.

Bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi ilə əlaqədar yaranan münasibətlər Azərbaycan Respublikasının Konstitusiyası ilə, “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, “Bələdiyyərin statusu haqqında”, “Büdcə sistemi haqqında”,“Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında”Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə tənzimlənir.

Bələdiyyə maliyyəsinə aşağıdakılar daxildir:

- Yerli büdcə vəsaitləri;

- Bələdiyyənin büdcədənkənar fondları;
- Yerli özünüidarə orqanlarına mənsub olan dövlət və bələdiyyə qiymətli kağızları;
- Bələdiyyə mülkiyyətində olan sair pul vəsaitləri.( Bax qrafik 1.);

Qrafik 1

**Bələdiyyə maliyyəsinin tərkib hissələri**




***Mənbə:*** Qrafik müəlliflər tərəfindən tərtib edilmişdir.

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil edir.Bələdiyyələrin mülkiyyətində onun torpaqları xüsusi yer tutur.

Bələdiyyələrin maliyyəsinin təşkilində bələdiyyə mülkiyyəti mühüm rol oynayır. "Bələdiyyələrin statusu haqqında"Azərbaycan Respublikasının Qanununun 33-cü maddəsində yazılmış hissəyə əsasən bələdiyyə mülkiyyətinin tərkibinə aşağıdakılar daxildir:

- yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti;
- Bələdiyyələrin büdcədənkənar fondları;
- Bələdiyyə əmlakı, habelə bələdiyyə torpaqları;
- Bələdiyyə müəssisə və təşkilatları;
- Bələdiyyə mənzil fondları və qeyri - yaşayış binaları;
- Dövlət və xüsusi mülkiyyətdə olmayan yollar;
- Bələdiyyə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri;

Digər daşınar və daşınmaz əmlak.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa (2 iyul 2002-ci il) əsasən yerli büdcə bələdiyyə statusuna uyğunolaraq özünüidarəprinsiplərini reallaşdırmaq, bələdiyyələrin Azərbaycan

Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir.Başqa sözlə, bələdiyyə büdcəsi ayrıca bələdiyyə qurumunun mərkəzləşdirilmiş maliyyə resursları fondudur. Həmin vəsaitlə bələdiyyələr yerli özünüidarənin təmin edilməsilə əlaqədar olan vəzifə və funksiyaları həyata keçirir.



Ümumiyyətlə, yerli büdcələrin formalaşmasını, təsdiqini və istifadə olunmasını, yerli büdcələrin icrasına nəzarəti bələdiyyələr müstəqil şəkildə həyata keçirir.

Qeyd edək ki, bələdiyyələrin (yerli) büdcəsinin formalaşması mənbələri və bununla bağlı məsələlər “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır.

Belə ki, Qanunun 7-ci maddəsində göstərildiyi kimi,Yerli (bələdiyyə)büdcələri aşağıdakı gəlir mənbələri hesabına formalaşır:

1. fiziki şəxslərdən torpaq vergisi
2. fiziki şəxslərdən əmlak vergisi
3. yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
4. bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi;
5. küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödəniş;
6. kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum və qanunla müəyyən edilən digər yerli vergi və ödənişlər;
7. Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya, subvensiyalar və ssudalar;
8. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər, lotereyalardan daxil olan vəsait, habelə bələdiyyələrin fəaliyyətindən əldə edilən digər gəlirlər;
9. fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları;
10. dövlət əhəmiyyətli tədbirlərin və dövlət orqanlarının qərarları nəticəsində yaranan xərclərin ödənilməsi üçün maliyyə vəsaiti;
11. Yerli (bələdiyyə) vergilər və ödənişlərə görə qanunvericiliklə müəyyən edlmiş qaydada hesablanmış faiz və sanksiyalar.

Qeyd edək ki, növbəti fəsildə Dövlət büdcəsindən verilən dotasiya, subvensiya, transfer ödənişləri, habelə dövlət əhəmiyyətli tədbirlərin və dövlət orqanlarının qərarları nəticəsində yaranan xərclərin ödənilməsi üçün maliyyə vəsaitlərinin ayrılması məsələlərinə geniş yer ayrıldığından bu hissədə sözügedən maliyyə mənbələrinin şərhinə geniş yer ayrılmamışdır.

Ümumi şəkildə yerli büdcələrin bütün növ gəlirlərini aşağıdakı kimi qruplaşdırmaq olar: (Bax qrafik 2)

Qrafik 2




***Mənbə:***Qrafik müəlliflər tərəfindən tərtib edilmişdir.

**Yerli vergilər (bələdiyyə vergiləri)** – vergi məcəlləsi və müvafiq qanunla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq olunan və bələdiyyələrin ərazilərində ödənilən vergilərdir. Bələdiyyələr tərəfindən tətbiq edilən digər məcburi ödənişlər müvafiq qanunla müəyyən edilir.

Yerli vergi və ödənişlər, habelə qeyri- vergi tədiyyələri yerli büdcələrin xüsusi gəlirlərini təşkil edir. Başqa sözlə yerli büdcələrin xüsusi gəlirləri – ölkə qanunları ilə daimi əsaslarla onlara tam və ya qismən təhkim edilmiş vergi və qeyri- vergi ödənişləridir.

Yerli büdcələrin gəlirlərinin əsas hissəsi yerli vergilər hesabına formalaşır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və digər qanunlarına uyğun olaraq yerli vergilərə aşağıdakılar aiddir: (Bax qrafik 3)

Qrafik 3

- fiziki şəxslərdən torpaq vergisi
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi
- fizki şəxslərdən əmlak vergisi
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi

***Mənbə:***Qrafik müəlliflər tərəfindən tərtib edilmişdir.

Bələdiyyə büdcəsinin əsas gəlir mənbələri "Yerli vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Bu qanunda Azərbaycan Respublikasının yerli(bələdiyyə) vergiləri və ödənişləri ilə tənzimlənən münasibətlər, qanunvericilik məsələləri, yerli (bələdiyyə) vergi və ödənişlərin tərkibi, vergi-tutma obyekti və vergi ödəyiciləri, vergi dərəcələri və vergi güzəştləri öz əksini tapmışdır. Qanunda həmçinin yerli vergi və ödənişlərin hesablanma qaydası, vergilərin müəyyən edilməsi və ləğvi qaydaları, yerli (bələdiyyə) vergi və ödənişlərə dair qanunvericiliyin pozulmasına görə məsuliyyət məsələləri şərh olunur.

Bələdiyyə vergilərinin tutulması və büdcəyə köçürülməsini bələdiyyə orqanları həyata keçirirlər. Onların bir hissəsinin izahını aşağıdakı şəkildə vermək olar:

***Fiziki şəxslərdən torpaq vergisi:*** Azərbaycan Respublikası ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər torpaq vergisinin ödəyiciləridir. Rezident və qeyri-rezident fiziki şəxslər torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədlər aldıqdan sonra bir ay ərzində ərazi üzrə müvafiq bələdiyyərdə uçota dayanmalıdırlar.

Bələdiyyələr öz ərazilərində Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən hədlərdə torpaq vergisinin dərəcələrini və vergi güzəştlərini müəyyən edirlər.

***Fiziki şəxslərdən əmlak vergisi:*** Rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililərin və ya onların hissələrinin, həmçinin yerindən

və istifadə edilib- edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələri vergitutma obyekti sayılır.

***Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi:*** Belə tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

***Bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi:*** Qanunvericiliyə əsasən bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə ödəyirlər (qalan bütün hüquqi şəxslər mənfəət vergisini dövlət büdcəsinə ödəyirlər).

Bələdiyyə büdcəsinin vergi olmayan gəlirlərinə isə əsasən yerli ödənişlər aiddir. Bunlar aşağıdakılardır:

1. Mülkiyyət və sahibkarlıq fəaliyyətindən gəlirlər. O cümlədən:
   - Bələdiyyə binalarının icarəyə verilməsindən haqq;
   - Bələdiyyə torpaqlarının icarəyə verilməsindən haqq;
   - Bələdiyyə əmlakından istifadəyə görə daxilolmalar (o cümlədən: bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödəniş; bələdiyyə tərəfindən xüsusi ayrılmış torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödəniş);
   - Bələdiyyə təşkilatlarının xüsusi vəsaitlərinin daxilolması;
   - Lotareyalardan daxil olan vəsait;
   - Bələdiyyənin verdiyi kreditlər üzrə faizlərin ödənilməsindən daxilolmalar;
   - Kreditlərin alınması;
   - Fiziki və hüquqi şəxslərin maliyyə yardımı və ianələr;
   - Beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları;
2. İnzibati tədiyyələr və rüsumları: ( bələdiyyə ərazisində mehmanxana, sanatoriya- kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödəniş; bələdiyyə ərazilərində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqları və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqları üçün ödəniş və.s)
3. Cərimə və sanksiyalar üzrə daxilolmalar;

4. Vergi olmayan sair daxilolmalar:

Bələdiyyələrin büdcəsinin əsaslı gəlirləri aşağıdakı mənbələrdən daxilolmalar hesabına formalaşır:

a) Bələdiyyələrin əsas vəsaitlərinin (binalar, avtomobil və başqa texnika) özəlləşdirilməsindən daxil olan vəsait;

b) Bələdiyyələrin maddi ehtiyatlarının satışından daxilolmalar;

c) Bələdiyyə torpaqlarının və qeyri- maddi aktivlərin satışından daxilolmalar;

d) Qeyri-rəsmi mənbələrdən əsaslı ödənişlər (transferlər). Məsələn, qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli proqramların maliyyələşdirilməsi üçün yerli rəy sorğusunun nəticəsinə əsasən hüquqi və fiziki şəxslərin sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilən könüllü birdəfəlik ödənişlər tətbiq edə bilər.

Bələdiyyə büdcəsinin formalaşmasında digər bir başlıca maliyyə mənbələrindən biri də büdcədənkənar fondlardır. Beynəlxalq təcrübədə olduğu kimi Azərbaycan Respublikası Qanunvericiliyində də bu məsələyə yer ayrılmışdır.

Bələdiyyə büdcədənkənar fondları: maliyyə təsnifatı, resursları və xərcləri "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 45-ci maddəsinə müvafiq olaraq bələdiyyələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və şərtlərlə məqsədli büdcədənkənar fondlar yarada bilərlər".

Ümumiyyətlə, bələdiyyə büdcədənkənar fondları yerli əhəmiyyətli ictimai tələbatları daha dolğun təmin etmək üçün yaradılan və istifadə edilən pul fondudur.

Bu izahdan aydındır ki, bələdiyyə büdcədənkənar fondları mahiyyətcə dövlət büdcədənkənar fondlarından fərqlənmir. Məsələn, Dövlət Sosial Müdafiə Fondu bütövlükdə ölkə əhalisinin zəruri sosial müdafiəsini təmin edir, bələdiyyə Sosial Müdafiə Fondu isə bələdiyyə ərazisindəki əhalinin sosial müdafiəsini təmin etmək üçün yaradılır.

Bələdiyyə büdcədənkənar fondlarının vəsaitləri də məhdud və dəqiq müəyyənləşmiş məqsədlər üçün istifadə edilir. Məsələn, hər hansı bələdiyyə Ekoloji Fond yaradarsa, vəsaitlər yalnız bələdiyyə ərazisindəki ekoloji problemləri həll etmək üçün sərf olunacaq.

Məqsədinə görə, bələdiyyə büdcədənkənar fondları müxtəlif amillər nəticəsində çoxnövlü ola bilər :

- Şəhərin sanitar-epidemioloji vəziyyətinin yaxşılaşdırılması fondu;
- Şəhərin büdcədənkənar fondu;
- Şəhərin enerji təchizatı fondu;
- Şəhər məhkəmə orqanlarının müdafiəsi fondu;
- Şəhər əhalisinin sosial müdafiəsi fondu.

Bələdiyyə büdcədənkənar fondları həm də bələdiyyələrin qanunvericilik üzrə müəyyənləşmiş səlahiyyətləri çərçivəsində yaradıla bilər və bu baxımdan Azərbaycanda bələdiyyə büdcədənkənar fondları məqsədinə görə üç qrupa – iqtisadi inkişaf, sosial müdafiə və ekoloji fondlara bölünə bilər.Çünki ölkə qanunvericiliyinə görə, bələdiyyələr yerli sosial müdafiə və sosial inkişaf proqramlarını, yerli iqtisadi inkişafproqramlarını yerli fondların maliyyəsi hesabına həyata keçirə bilərlər.

Bu üçistiqamət daxilində ən müxtəlif bələdiyyə büdcədənkənar fondlarının – məsələn,Təhsilə Yardım Fondu, Sosial Yardım Fondu,Kiçik Sahibkarlığın İnkişafı Fondu,Mənzil Tikintisinə Yardim Fondu və s.yaradılması mümkündür.

# 2 SUBVENSIYA MALIYYƏLƏŞMƏSININ ƏSASLARI




Bələdiyyə (yerli) büdcələrinin maliyyələşmə mənbələri içərisində Dövlət büdcəsiözünəməxsus yer tutur. Yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcələrin vəsaiti hesabına maliyyələşdirmək mümkün olmadıqda, dövlət büdcəsindən dotasiya və subvensiya ayrılır. Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər verdikdə, onlar bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin olunur. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərin artması baş verdikdə, uyğun azalma və artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur.



“Büdcə sistemi haqqında ”Azərbaycan Respublikasının Qanununun 32-ci maddəsinə əsasən dövlətin yerli büdcələrə maliyyə köməyi aşağıdakı yollarla həyata keçirilir:

-investisiya mühitini yaxşılaşdırmaq və səmərəli iqtisadi siyasət həyata keçirməklə istehsal və xidmət sahələrinin inkişafına şərait yaratmaq;

- yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcələrin vəsaiti hesabına maliyyələşdirmək mümkün olmadıqda, dövlət büdcəsindən dotasiya və subvensiya ayırmaq;

- Bələdiyyələrə əlavə səlahiyyətlər verildikdə, onların bu səlahiyyətləri həyata keçirməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin etmək;

- Yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərin artması baş verdikdə, uyğun azalma və yaartma məbləğləri qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur.

Mövcud qanunvericiliyə əsasən, dövlət büdcəsindən maliyyə yardımları almaq istəyən bələdiyyələr cari ilin may ayının 1-dək zəruri sənədləri və məlumatları Maliyyə Nazirliyinə təqdim etməlidir.

Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla dövlət bələdiyyələrin xərc öhdəliyinə məsuliyyət daşımır.

Dövlət büdcəsindən bələdiyyələrə verilən maliyə yardımları- dotasiya, subvensiya, əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün verilən zəruri maliyyə vəsaiti, kompensasiya məqsədi üçün verilən vəsait formasında həyata keşirilir.

“Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli Qanununda nəzərdə tutulduğu kimi, yerli sosial- iqtisadi inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrinin müəyyən edilməsi və ya dövlət büdcəsindən dotasiya və subvensiya ayrılması mümkündür.

Hər bir büdcənin təmin olunması üçün müvafiq gəlirləri olmalıdır. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən büdcələrin gəlir hissəsi xüsusi və tənzimləyici vergi gəlirlərindən, dotasiya və subvensiyadan, kredit resurslarından ibarətdir.

Aşağı büdcələrin tarazlaşdırılması üçün dotasiya və subvensiyalardangeniş istifadə edilir.(Bax qrafik 4)

Qrafik 4




***Mənbə:***Qrafik müəlliflər tərəfindən tərtib edilmişdir.

Bələdiyyələr hər il dövlət büdcəsindən dotasiya ala bilər. **Dotasiya** – dövlət büdcəsindən bələdiyyələrə büdcə tənzimlənməsi qaydasında əvəzsiz verilən vəsaitdir. Dotasiya, məqsədli təyinata malik olmayıb bələdiyyənin öz mülahizəsi əsasında istifadə olunur. Bu vəsaitlər xüsusi və tənzimləyici gəlirlər çatışmadıqda yerli büdcəni tarazlaşdırmaq məqsədi daşıyır. Dövlət büdcəsindən bələdiyyələrə ayrılan dotasiyanınhəcmi müəyyən edilərkən bələdiyyə ərazisində yaşayan əhalinin sayı, bələdiyyənin maliyyə potensialı və başqa amillər nəzərə alınır.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 20 iyun 2014-cü il tarixində imzalanmış "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununa əsasən 34.4-cü maddəyə aşağıdakı redaksiya verilmişdir:

"34.4. Dotasiyanın həddinin hesablanmasında bələdiyyənin ərazisində yaşayan əhalinin sayı, ölkənin maliyyə ehtiyatlarının formalaşmasında onların xüsusi çəkisi, bələdiyyənin gəlir və xərcləri, bələdiyyəyə daxil olan yaşayış məntəqələrinin cəbhə xəttində, sərhəd zonasında, yüksək dağlıq ərazidə yerləşməsi, yerli əhalinin yaşayış səviyyəsi, nəzərdə tutulan sosial-iqtisadi layihələr nəzərə alınmalıdır." Bu düzəliş sayəsində Bələdiyyələrin

paralel inkişafına, yerli özünüidarə orqanlarının əhaliyə təqdim etdiyi xidmətlərin keyfiyyətininartmasına şərait yaranacaqdır.

**Subvensiya**- məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaitidir.

Subvensiyalar- konkret məqsədlər və müvafiq bələdiyyə ərazisində sosial-iqtisadi inkişafı tarazlaşdırmaq üçün proqramların həyata keçirilməsi məqsədilə dövlət büdcəsindən ayrılan pul vəsaitləridir. Subvensiyalardan məqsədli təyinatına görə istifadə olunmadıqda həmin vəsaitlər müvafiq dövlət orqanlarına qaytarılır. Dövlət orqanları bələdiyyələrin həmin vəsaiti düzgün xərclənməsinə nəzarət edir. Subvensiyaların icra müddəti başa çatdıqdan sonra bələdiyyələr subvensiya ayıran dövlət orqanlarına vəsaitin xərclənməsi və görülən işlər barədə hesabat verirlər.

Subvensiya iki növdə ola bilər: cari və məqsədli investisiyalaşdırma. Cari subvensiyalara cari xərclərin maliyyələşdirilməsinə yönəldilən subvensiyalar, məqsədli investisiya subvensiyasına isə investisiya və investisiya fəaliyyətinin maliyyələşdirilməsinə yönəldilən subvensiya aiddir. (Bax qrafik 5)

Qrafik 5




***Mənbə:***Qrafik müəlliflər tərəfindən tərtib edilmişdir.

İnvestisiya məqsədli subvensiya dövlət büdcəsi vəsaiti hesabına sosial infrastrukturun inkişafına, ətraf mühitin mühafizəsinə, regionların kompleks inkişafına əsaslı vəsait qoyuluşunun maliyyələşdirilməsi üçün müəyyən edilmişdir.

İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nərticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə, uyğun azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur. Kompensasiya müvafiq qərarların qəbul edilməsi ilə eyni vaxtda müəyyənləşdirilir. Yerli özünüidarə qurumları bu qərarları onlara kompensasiya kimi verilmiş vəsait həddində həyata keçirirlər.

# 3 BƏLƏDİYYƏ BÜDCƏSİNİN



# FORMALAŞMASINDA SUBVENSİYANIN ROLU VƏ YERİ

Bələdiyyə büdcəsinin formalaşmasında, o cümlədən dövlət büdcəsindən əlavə maliyyə dəstəyinin alınmasında subvensiyaların rolu əhəmiyyətlidir. Bələdiyyələrin dövlət büdcəsindən subvensiya alması məsələsi Azərbaycan Qanunvericiliyində təsbit olunmuş və biz bunu əvvəlki fəsildə də gördük.

Lakin Azərbaycan Respublikasının Prezidenti tərəfindən 20 iyun 2014-cü il tarixində imzalanmış "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununu bələdiyyələrdə subvensiya maliyyələşməsi üçün yeni mərhələ açmışdır.

Belə ki, Qanunda göstərildiyi kimi, 32.2.2-ci maddəyə aşağıdakı məzmunda hissə əlavə edilmişdir:

"Yerli sosial müdafiə, ekoloji, həmçinin iqtisadi və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi ilə bağlı layihələrin həyata keçirilməsi, həmçinin qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrə həvalə edilən əlavə səlahiyyətlərin maliyyələşdirilməsi məqsədi ilə dövlət büdcəsindən yerli büdcələrə subvensiya ayrılması üçün müvafiq bələdiyyələrin və onların təmsil olunduqları milli assosiasiyaların cari il martın 15-dək verilən təklifləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən 30 gün müddətində öyrənilir, onların qəbul edilib-edilməməsi barədə aidiyyəti bələdiyyələrə məlumat verilir. İcrası üçün vəsait ayrılmasına razılıq verilmiş layihələrlə bağlı müvafiq maliyyə-iqtisadi

əsaslandırmalarla birlikdə "Büdcə sistemi haqqında" Qanunun 11.14-cü maddəsi ilə müəyyən edilən sənədlər və məlumatlar mayın 1-dək bələdiyyələr tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur.

Dövlət büdcəsindən ayrılmış subvensiyalar bələdiyyələr tərəfindən təqdim edilmiş layihələrə uyğun olaraq, hər il fevralın 15-dək müvafiq icra hakimiyyəti orqanı tərəfindən bölünür.Dövlət büdcəsində bələdiyyələrə subvensiyanın ayrılması ayrıca sətirlə müəyyən edilir."

Sənədə əsasən Bələdiyyələr yerli sosial müdafiə, ekoloji, həmçinin iqtisadi və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi ilə bağlı layihələrin həyata keçirilməsi məqsədilə subvensiya maliyyələşməsi üçün Maliyyə Nazirliyinə müraciət edə bilərlər.

Qeyd edək ki, Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanununun aşağıdakı 4, 5, və 6-cı maddələrində sosial müdafiə, ekoloji, iqtisadi və sosial inkişaf layihələrinin istiqamətləri geniş şəkildə təsbit olunmuşdur:

***Maddə 4. Yerli sosial müdafiə və sosial inkişaf proqramları***

1. Yerli sosial müdafiə proqramları bələdiyyə tərəfindən müəyyən edilən vətəndaşlar kateqoriyasına dövlət sosial təminatından əlavə sosial təminatlar müəyyən edir. Həmin təminatlar mütəmadi və birdəfəlik ola bilər.

2. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında məqsəd dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi, sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı, mənzil tikintisi, yerli əhəmiyyətli su mənbələrindən istifadə, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı, yanacaq təchizinin və satışının təşkili, yerli əhəmiyyətli yolların tikilməsi və saxlanılması, yerli nəqliyyat və rabitə xidmətinin təşkili, ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması, mədəniyyət müəssisələrinin inkişafına yardım göstərilməsi, tarix və mədəniyyət abidələrinin saxlanılması, informasiya xidmətinin təşkili, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şərait yaradılması, kimsəsizlərə, xəstələrə, qocalara, maddi imkansızlara, valideyn himayəsindən məhrum olmuş, həmçinin istedadlı uşaqlara əlavə yardım, fiziki tərbiyə və idmanın inkişafına yardım göstərilməsi, əhalinin

məşğulluğuna, adamların peşələri üzrə işlə təmin olunmasına,gənclərin sosial hüquqi müdafiəsinə, ailə kəndli təsərrüfatının inkişafına kömək göstərilməsi və yerli infrastrukturun digər sahələrini əhatə edə bilər.

*Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında mütəmadi olaraq mövcud qəbristanlıqların qorunması, abadlaşdırılması, yeni qəbristanlıq sahələrinin ayrılması, yas mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulmuş tikililərin təmiri və yenilərinin inşası, mərasim xidmətlərinin, o cümlədən bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım göstərilməsi nəzərdə tutulmalıdır.*



*Bədən tərbiyəsi və idman sahəsində bələdiyyələrin səlahiyyətləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.*

3. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr bu maddənin 2-ci bəndində göstərilən məsələlər üzrə dövlət orqanlarının müvafiq proqramlarının həyata keçirilməsinə müdaxilə edə bilməzlər.

***Maddə 5. Yerli iqtisadi inkişaf proqramları***

1. Yerli iqtisadi inkişaf proqramlarından məqsəd dövlətin həyata keçirdiyi iqtisadi inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli iqtisadi inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar aqrar, sənaye, rabitə, nəqliyyat və digər sahələri əhatə edə bilər.



Yerli iqtisadi inkişaf proqramlarında bələdiyyə torpaqlarından və dövlətin bələdiyyələrə verdiyi əmlakdan səmərəli istifadə yolları göstərilir.

2. Yerli iqtisadi inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr dövlət orqanlarının səlahiyyətlərinin həyata keçirilməsinə müdaxilə edə bilməzlər.

***Maddə 6. Yerli ekoloji proqramlar***

1. Yerli ekoloji proqramlardan məqsəd dövlətin həyata keçirdiyi ekoloji proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə yerli əhalinin hamılıqla cəlb edilməsidir. Həmin proqramlara yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin yaşıllaşdırılması və abadlaşdırılması, məişət tullantılarının yığılması, nəql edilməsi, zərərsizləşdirilməsi, emalı və bu sahədə başqa məsələlərin həlli üçün tədbirlər görülməsi, suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması, qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi və yerli əhəmiyyətli digər tədbirlər daxil edilə bilər.



2. Bələdiyyələr dövlətin ekoloji proqramları ilə yerli ekoloji proqramların əlaqələndirilməsinə, müəyyən hallarda birgə tədbirlərin həyata keçirilməsinə yardım göstərirlər.

Bununla yanaşı bu Qanunun 42-ci maddəsində göstərilən Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər bəndinə əsasən də Bələdiyyələr subvensiya maliyyələşməsindən istifadə edə bilərlər.

Bələdiyyələr subvensiya layihələrini hazırlayan zaman Qanunda göstərilən istiqamətləri nəzərə almalı və yerli şəraitə uzlaşan istiqamətlər üzrə subvensiya təklifləri verməlidirlər. Onu da qeyd edək ki, Qanuna əsasən Bələdiyyələr subvensiya maliyyələşməsi üzrə təkliflər verən zaman "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən 11–ci maddənin 14-cü bəndinə uyğun olan sənədləri də əlavə etməlidirlər. Bura aşağıdakılaraiddir:

**Maddə 11. Dövlət büdcəsi layihəsinin tərtibi prosesi və büdcə təqvimi**

11.14. Dövlət büdcəsindən maliyyə yardımları almaq istəyən bələdiyyələr cari ilin may ayının 1-dək aşağıdakı sənədləri və məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər:

11.14.1. cari ilin gözlənilən və ötən ilin büdcəsinin faktiki nəticələri barədə arayış;

11.14.2. növbəti büdcə ili üzrə yerli büdcələrin nəzərdə tutulan gəlirləri və xərcləri, dövlət büdcəsindən ayrılacaq dotasiyanın və digər maliyyə yardımlarının həcminin əsaslandırılması;

11.14.3. ötən ildə yerli büdcənin icra vəziyyəti barədə auditor rəyi;

11.14.4. müvafiq icra hakimiyyəti orqanının sorğusuna görə digər materiallar.

Bununla yanaşı Bələdiyyələr subvensiya layihələrini hazırlayan zaman Dövlət büdcəsinin prosesi haqqında da biliklərə malik olmalıdırlar. Burada ən azından maliyələşmə mexanizmini özündə əks etdirən büdcə təqvimi ilə yaxından tanış olmaq lazımdır. (Bax: Qrafik 6)

Qrafik 6

**BÜDCƏNİN TƏRTİBİ PROSESİNİN TƏQVİMİ**

| № | Tədbirlərin adı | İcra orqanı | İcra müddəti |
|---|---|---|---|
| 1 | Növbəti ilin büdcəsinin tərtibi prosesinə Nazirlər Kabinetinin müvafiq Sərəncamı ilə başlanılır | Nazirlər Kabineti | Yanvar ayının üçüncü on günlüyündə |
| 2 | Dəqiqləşdirilmiş ortamüddətli iqtisadi və sosial inkişaf proqramına müvafiq olaraq növbəti il üçün ilkin ortamüddətli büdcə proqnozunu (gəlirlər, xərclər, kəsir və kəsirin maliyyələşdirmə mənbələri) tərtib edilməlidir | İqtisadiyyat və Sənaye Nazirliyi | Mart ayının 15-dək |
| 3 | Növbəti il dövlət və icmal büdcələrin ilkin layihələrini və sonrakı üç il üçün icmal büdcə proqnozuhazırlanıb Nazirlər Kabinetinə təqdim edilir ("Vahid büdcə təsnifatı"nın büdcə gəlirlərinin, büdcə xərclərinin funksional və inzibati təsnifatın bölmələri səviyyəsində) | Maliyyə Nazirliyi | Aprel ayının 15-dək |

| | | | |
|---|---|---|---|
| 4 | Növbəti il dövlət büdcəsinin layihəsi və sonrakı üç il üçün icmal büdcə göstəricilərinin tərtibinə dair təlimat məktubun müvafiq əlavələri ilə birlikdə dövlət büdcəsindən maliyyələşən təşkilatlara, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə və rayon (şəhər) üzrə maliyyə orqanlarına göndərilməsi | Maliyyə Nazirliyi | May ayının 1-dək |
| 5 | Təlimat məktubuna əsasən dövlət büdcəsindən maliyyələşən təşkilatlar, rayon (şəhər) üzrə maliyyə orqanları büdcə layihələrinin Maliyyə Nazirliyinə təqdim olunması | Büdcə təşkilatları | İyul ayının 1-dək |
| 6 | Növbəti il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsi və sonrakı üç il üçün icmal büdcənin göstəricilərinin Nazirlər Kabinetinə təqdim edilməsi | Maliyyə Nazirliyi | Sentyabr ayının 15-dək |
| 7 | Növbəti il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsi və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Nazirlər Kabineti | Sentyabr ayının 25-dək |
| 8 | Dövlət büdcəsinin layihəsinin Milli Məclisə təqdim edilməsi | Prezident Aparatı | Oktyabr ayının 15-dək |
| 9 | Dövlət büdcəsi layihəsinin Milli Məclisdə təsdiqi | | Dekabr ayının 20-dən gec olmayaraq |

***Mənbə:***http://maliyye.gov.az/node/962

Bu hissədəki biliklər bizə növbəti fəsillərdə subvensiya layihələrinin hazırlanması qaydalarının tərtibi və öyrənilməsi üçün əsas hüquqi çərçivə və istiqamətverici rol oynayacaqdır.

# 4 SUBVENSİYA LAYİHƏLƏRİNİN



# HAZIRLANMASI METODU

Bələdiyyələrdə subvensiya layihələri hazırlanan zaman ilk öncə təklifin ideyasını formalaşdırmaq məqsədəuyğundur. Yaxşı əsaslandırılmış təklif dövlət büdcəsindən subvensiya maliyyəsinin əldə olunması baxımından daha rəqabətqabiliyyətlidir.

Qeyd edək ki, subvensiya layihəsinin təklifi ilk öncə ideyadan meydana çıxır. Bu səbəbdən bələdiyyə tərəfindən veriləcək təklifin formalaşması 3 mərhələyə əsasən aparılmalıdır. Bu mərhələləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Dövlət və bölgə səviyyəsində qəbul edilmiş proqramların araşdırılması;

2. Rayon (şəhər) icra strukturları ilə məsləhətləşmələr və təkliflə bağlı mövcud sənədlərin təhlili;

3. Bələdiyyə sakinləri ilə məsləhətləşmələrin aparılması və onlarınrəylərinin öyrənilməsi; (Bax qrafik 7)

Qrafik 7




***Mənbə:***Qrafik müəlliflər tərəfindən tərtib edilmişdir.

I mərhələdə Azərbaycan Respublikası hökuməti tərəfindən qəbul olunmuş Dövlət Proqramları və onların rayon (şəhər) üzrə ayrılıqda təsbit olunmuş hissələri dərindən öyrənilməlidir. Belə ki, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bələdiyyələr dövlət tərəfindən nəzərdə tutulmayan hissələrdə yerli sosial, iqtisadi və ekoloji layihələr hazırlayıb icra edə bilərlər. Bu, həmçinin subvensiya layihəsi ilə büdcədən maliyyələşməyə müraciət edən zaman təkrar xərclərin də aradan qaldırılmasına köməklik göstərir.

Qeyd edək ki, subvensiya layihəsinin təklifi işlənən zaman əlavə ştatların açılmasını, uzunmüddətli dövlət büdcəsindən xərclərin tələb olunmasını, həmçinin büdcə vəsaitinin israfçılıqla xərclənməsini özündə əks etdirən ideyalardan imtina olunmalıdır.

Daha çox dövlət büdcəsindən ayrılacaq subvensiya vəsaitinin hesabına problemi birdəfəlik və uzunmüddətlidövr üçün həll edən, bələdiyyənin daxili hesabına gələcəkdə davam etdirilə bilən, əlavə olaraq yerli əhalinin vəsaitini özünə cəlb edən, qənaətli, səmərəli təklfilərə üstünlük verilməlidir.

II mərhələdə yerli icra hakimiyyəti orqanları ilə görüş keçirərək sizin təklif etdiyiniz layihə ilə bağlı onların fikirlərini öyrənmək lazımdır. Ola bilər ki, sizin təklif etdiyiniz layihəyə oxşar təklif maliyələşmə üçün yerli icra qurumu tərəfindən artıq hökumətə təqdim olunmuşdur. Həmçinin oxşar

təklif növbəti illərdə maliyyələşmə məqsədilə rayonun (şəhərin) gələcək dövr üzrə proqnoz büdcəsinə də salına bilər. Bu baxımdan layihənin spesifikliyindən (sosial, iqtisadi, ekoloji) asılı olaraq rayon (şəhər) təhsil, səhiyyə və s. şöbələri ilə də məsləhətləşmələr aparılmalıdır.

Burada təqdim etdiyiniz təkliflə bağlı maraqlara toxunan bütün rayon (şəhər) təşkilatları ilə danışıqlar aparmaq lazımdır. Bu layihənizin gələcəkdə uğurla icra olunması baxımından da əhəmiyyətlidir.

Bütün bunlarla yanaşı təklif etdiyiniz layihə ilə bağlı statistik rəqəmlərə, mövcud arxiv sənədlərinə, hüquqi aktlara da baxmaq lazımdır. Bu da təklifinizlə bağlı yaranabiləcək risklərin aradan qaldırılması və qabaqlayıcı tədbirlərin görülməsi baxımından da mühümdür.

III mərhələ: Qeyd edək ki,zərurət yarandığı halda bu mərhələni sonuncu yerdə yox, elə işin başlanğıcında da həyata keçirmək olar. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunun 26-cı və 28-ci maddələrində göstərildiyi kimi Bələdiyyələr tərəfindən



1. Yerli əhəmiyyətli məsələlərə dair yerli rəy sorğusu təyin edilə bilər;

2. Yerli rəy sorğusunun keçirilməsi haqqında qərarı bələdiyyə nizamnaməsinə uyğun olaraq öz təşəbbüsü ilə və ya əhalinin tələbi əsasında qəbul edilə bilər;

3. Bələdiyyə ərazisində yaşayan və seçki hüququ olan bütün vətəndaşların yerli rəy sorğusunda iştirak etmək hüququ vardır. Yerli rəy sorğusunda vətəndaşlar bilavasitə və könüllülük əsasında iştirak edirlər;

4. Yerli rəy sorğusunda səsvermə gizli keçirilir, vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir;

5. Yerli rəy sorğusunun təyin edilməsi və keçirilməsi qaydası Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənir.

***Maddə 28. Vətəndaşların yığıncaqları***

1. Əhalisi 500 nəfərdən az olan bələdiyyələrdə yerli əhəmiyyətli məsələlərə münasibət bildirmək, təkliflər irəli sürmək, kollektiv rəy

söyləmək, qərarlar qəbul etmək məqsədi ilə həmin bələdiyyə ərazilərində vətəndaşlar öz yığıncaqlarını keçirə bilərlər;

2. Vətəndaşların yığıncaqlarında həmin bələdiyyə ərazisində yaşayan 18 yaşı tamam olmuş vətəndaşların iştirak etmək hüququ vardır;

3. Vətəndaşların yığıncaqlarında bələdiyyənin nizamnaməsi və başqa qərarlar qəbul edilir, dəyişdirilir və ləğv olunur;

4. Vətəndaşların yığıncaqları bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 25 faizi iştirak etdikdə səlahiyyətlidir.

Bələdiyyələr yerli əhali arasında müzakirələr, yığıncaqlar, rəy sorğuları keçirməklə onları maraqlandıran sosial, iqtisadi və ekoloji layihələrlə bağlı fikirlərini öyrənə bilərlər. Bu bələdiyyələrə daha spesifik təklfilərin toplanmasında, yerli əhali üçün vacib olan problemin üzə çıxmasında, təklifin daha da əsaslandırılmasında köməklik göstərəcəkdir.

3 mərhələdən əldə olunan təkliflər bir daha Bələdiyyə mütəxəssisləri tərəfindən təhlil olunur. Qeyd edək ki, bələdiyyələr layihə təkliflərinin hazırlanması və işlənməsi üçün ayrıca işçi qrupu da formalaşdıra bilərlər. İşçi qrupun ekspertizası zamanı bir neçə təklif bütün mərhələlərdən əldə olunan məlumatlar əsasında yoxlanılır. Sonda bələdiyyə üçün vacib olan təkliflər seçilərək üzvlər tərəfindən təsdiq olunur.

Növbəti addım kimi irəli sürülmüş təkliflərin layihə şəklində işlənməsi və maliyyə-iqtisadi əsaslandırılması həyata keçirilir.

**Subvensiya layihəsinin işlənməsi**

Bələdiyyələr üçün subvensiya layihəsi hazırlanan zaman konkret formalar tələb olunmasa da layihələrin daha effektiv ölçülməsi üçün hər hansı bir formanı götürüb ardıcıl şəkildə onu yazmaq lazımdır.

| | |
|---|---|
| 1. Layihənin ərazisi: | Bu hissədə Bələdiyyənizin layihəsinin icra olunacağı bölgənin ünvanını yazmaq lazımdır. |
| 2. Layihə icrası-nın ünvanı: | Burada hansı rayonun (şəhərin) ərazisində bələdiyyənin yerləşdiyini qeyd etmək lazımdır. |
| 3. Benefisiar təşkilat | |
| Təşkilatın adı: | Bu hissədə layihənin əsas alıcısı haqqında məlumat vermək lazımdır. Məsələn, layihə məktəb binası ilə bağlıdırsa burada həmin məktəbin nömrəsini, kimin adına olmasını, rayon, kənd nəzdində olduğunu göstərmək lazımdır. |

| | |
|---|---|
| Yaranma vaxtı: | Bu hissədə təmirlə bağlı layihədirsə, mövcud binanın tikilməsi tarixini yazmaq lazımdır. |
| Tələb olunan məbləğ: | Bu hissədə dövlət büdcəsindən istənilən subvensiya vəsaitinin məbləğini rəqəm və yazı ilə qeyd etmək lazımdır. |
| Əlavə vəsait: | Əgər bələdiyyənizin təklif etdiyi bu layihəyə ərazidə yaşayan (kəndin, şəhərin, rayonun) sakinləri tərəfindən maddi və ya qeyri-maddi qoyuluşlar edilirsə, onları da bazar dəyəri əsasında hesablayıb öz vəsaitiniz kimi qeyd edə bilərsiniz. Bu vəsait layihənin icrası üçün tələb edilən maliyyənin bir hissəsi ola bilər. Təqdim etdiyiniz subvensiya layihəsi ilə bağlı olmayan maliyyə vəsaitlərini burada qeyd etmək olmaz. |
| Əlavə məlumat (əgər varsa): | Bu hissədə vacib olduğunu düşünüb özünüzün əlavə etmək istədyiniz məlumatı daxil edə bilərsiniz. Əgər yoxdursa, boş buraxılmalıdır. |
| 4. Subvensiya layihəsinin məqsədi və vəzifəsi: | Layihənin məqsədi konkret və açıq şəkildə yazılmalıdır. Təklifin məqsədi həll etmək istədiyiniz problemin aradan qaldırılması ilə nəyə nail olacağınızı göstərməkdir. Bələdiyyə ərazisinə aid olmayan, iri maştablı, çətin əldə olunan məqsədləri qarşıya qoymaq lazım deyil.<br>Bununla yanaşı layihənin vəzifələrinidə qeyd etmək lazımdır. Vəzifə məqsədə çatmaq üçün necə hərəkət edəcəyinizi xarakterizə etməlidir. Məqsədə çatmaq üçün bir neçə vəzifə yaza bilərsiniz. Burada görüləcək işləri sıralamaq uyğun gəlməz. |
| 5. Layihənin təsviri: | Bu hissədə təklifiniz barəsində, onun icra olunacağı ərazi haqqında ətraflı məlumat vermək lazımdır. Bununla yanaşı layihəniz barəsində statistik məlumatları, mövcud vəziyyəti yazmalısınız. Təklifinizin ideyasının yaranması səbəbləri açıqlanmalı, nə üçün məhz bu problem bələdiyyə ərazisi üçün daha aktualdır? kimi suallara cavab tapılmalıdır. Burada layihələrin hazırlanması prosesində həyata keçirdiyiniz görüşlər, əhalinin təklifləri və rəyləri haqqında da məlumat yazmaq daha uyğun olar.<br>Təklif etdiyiniz layihədə həll etmək istədiyiniz problemin yaranma səbəblərini də açıqlamaq lazımdır. Burada konkret məlumatlara, dəqiq rəqəmlərə, tarixlərə əsaslanmalısınız. |
| 6. Layihə üzrə fəaliyyət | Bu hissədə təklif etdiyiniz layihə çərçivəsində görəcəyiniz işləri ardıcıl şəkildə yazmaq lazımdır. Həmçinin görəcəyimiz işləri məntiqi ardıcıllıqla və əsaslandırılmış şəkildə qeyd etməliyik ki, onu oxuyan şəxsdə layihəniz barəsində müfəssəl fikir formalaşsın. |

| | |
|---|---|
| | İşlər məntiqi ardıcıllıqla yazılmalı və burada işin peşəkarlar tərəfindən görüləcəyi aydın şəkildə nəzərə çarpmalıdır. Bununla yanaşı, işlər həm vaxta, həm də maliyyə vəsaitinə qənaətliliyi özündə əks etdirməlidir. Yaxşı olar ki, işləri ardıcıllıqla nömrələməlisiniz. |
| 7. Layihənin təsir dairəsi | Bu hissədə təklif etdiyiniz layihənin icrasından sonra ondan faydalanacaq yerli əhali qrupu haqqında məlumat vermək lazımdır. Onların yaş qrupları, sayı, qadın, kişi və ya uşaq olması barəsində məlumatları yazmaq lazımdır. Bununla yanaşı layihənin icrası nəticəsində birbaşa və dolayı olaraq bəhrələnən əhali qrupunu ayırmaq daha yaxşı olar. Layihədən bərhələnəcək yerli əhali qrupunun əldə edəcəkləri faydaları konkret olaraq göstərmək daha məqsədəuyğundur. |
| Layihənin benefisiarları | |
| 8. Layihənin davamlılığı | Bu hissədə layihə çərçivəsində gördüyünüz işlər həmçinin dövlət büdcəsindən ayrılan subvensiya vəsaiti bitdikdən sonra bu istiqamətdə fəaliyyəti necə davam etdirəcəyiniz barəsində məlumat yazmalısınız. Məsələn, tibb məntəqəsi tikmisinizsə, layihə bitdikdən sonra onun gələcək fəaliyyətini Bələdiyyənin müəyyənləşdirdiyi aşağı qiymətlərlə formalaşan büdcə hesabına davam etdirə bilərsiniz.<br>Davamlılıq dövlət büdcəsinin vəsaitini səmərəli istifadəsini, maliyyə bitdikdən sonra da işin davam edəcəyini özündə ehtiva etməlidir. |
| 9. Layihə ilə bağlı müvafiq icra strukturlarının və maraqları toxunan qurumların icazələri və rəyləri barəsində qeydlər. | Qeyd edək ki, layihələrin formasından, təyinatından, yerindən, icrasından, quruluşundan asılı olaraq müvafiq icra strukturlarından icazənin alınması lazımdır. Bu haqda detallı məlumat konret nümunəvi layihələrin izahı zamanı veriləcəkdir. Layihə təklifi zamanı sadəcə olaraq layihənizin spesifikasına uyğun gələn icazələr və rəylər barəsində siyahı yazıb öz qeydlərinizi apara bilərsiniz. Maraqları toxunan qurumlardan icazələrin, rəylərin olması dövlət büdcəsindən subvensiya maliyyəsinin ayrılması üçün müvafiq icra hakimiyyəti orqanında əminlik formalaşdırır. Həmçinin icazələrin və rəylərin əvvəlcədən alınması layihənin icrası zamanı yarana biləcək konfliktlərin, risklərin qarşısının alınması və qabaqlayıcı tədbirlərin görülməsi baxımından mühümdür. Qeyd edək ki, hər bir bələdiyyə təqdim etdiyi layihəyə uyğun olaraq (su konalizasiya sisteminin bərpası, binanın təmiri, tikintisi, sökülməsi, parkın salınması və s.) |

| | |
|---|---|
| | icazə və rəy alınması zəruri olan bütün qurumların siyahısını əvvəlcədən tutmalı, onlarla danışıqlar aparmalı və onların etirazlarının olmamaları ilə bağlı rəylərini almalıdır. Aşağıda icazə və rəylər üçün ümumiləşdirilmiş siyahı göstərilmişdir. Onu da qeyd edək ki, aşağıdakı pəncərələrdə yalnız sənədlərin adları (əmr, sərəncam, qərar, protokol, çıxarış və s.) qeyd olunur. Sənədlərin surətləri və ya əsilləri isə layihə təlklifinə əlavə olunur. |
| İcra strukturları | Burada rayon (şəhər) icra hakimiyyətinin müvafiq icazəsini və ya rəyini qeyd etmək lazımdır. |
| Bələdiyyə | Burada bələdiyyə üzvlərinin yığıncağının qərarı, çıxarışlar, o cümlədən rəy sorğularının protokolları, yerli əhali ilə keçirilmiş iclasların sənədləri göstərilə bilər. |
| Rayon (şəhər) təşkilatları | Burada layihəyə uyğun olaraq müvafiq nazirlik və baş idarələrin rayon (şəhər) şöbələrinin rəyləri haqqında məlumat yazılır. |
| Digər | Layihə ilə bağlı icazə və rəyi alınmalı digər bütün qurumlar ardıcıl şəkildə göstərilir |
| 10. Subvensiya layihəsinin icra müddəti | Burada layihənin icra müddətini ay, gün, il olaraq göstərmək olar. |

***Mənbə:***Yaponiyanın Azərbaycandakı səfirliyinin "Ot kökləri" kiçik qrant proqrmının resursları

**Nümunəvi Subvensiya layihələri**

Burada biz Subvensiya layihələrinin hazırlanması formasına əsaslanaraq bələdiyyələr üçün 3 nümunəvi layihə təqdim edirik. Qeyd edək ki, layihələr abstrak təxəyyülün məhsulu olsa da, forma və məzmun etibarı ilə real həyatda tətbiq olunabilər.

Yuxarıda göstərdiyimiz Subvensiya layihələrinin hazırlanmasındakı üç seçim mərhələsini tətbiq etməklə sonda bir neçə təklif içərisindən bölgəniz üçün daha səmərəli və aktual olan bir ideyanı seçirsiniz. Fərz edək ki, uzun müzakirələrdən sonra bələdiyyəniz tərəfindən subvensiya maliyyələşməsi üçün **"Kənd təsərrüfatı məhsullarının tədarükü üzrə vasitəçilik xidməti"** adında layihənin təqdim olunması qərarına gəlmisiniz.

Layihə ideyasından çıxış edərək aşağıdakı formaya uyğun layihə tərtib edirik.

**1.Layihənin ərazisi:** Layihə A rayonun B bələdiyyəsi ərazisində icra olunacaq

**2. Layihə icrasının ünvanı:** Layihə B bələdiyyəsinin ərazisində yerləşən U və T kəndlərində həyata keçiriləcəkdir

**3. Benefisiar təşkilat:**

*3.1. Təşkilatın adı:* B bələdiyyəsinin kənd təsərrüfatı məhsulları üçün tədarük mərkəzi

*3.2. Yaranma vaxtı:* Tədarük mərkəzi 2015-ci ildə yaranır.

*3.3. Tələb olunan məbləğ:* Layihə üçün dövlət büdcəsindən 35 000 manat subvensiya maliyyələşməsi tələb olunur.

*3.4. Əlavə vəsait:* Bələdiyyənin daxili hesabına layihəyə 500 manat vəsait yönəldiləcəkdir.

*3.5. Əlavə məlumat (əgər varsa):* yoxdur

**4. Subvensiya layihəsinin məqsədi və vəzifəsi:**Layihənin məqsədlərini aşağıdakı kimi sıralamaq olar:

Bələdiyyə ərazisində istehsal olunan nar məhsullarının saxlanılması, məhsul itkisinin qarşısının alınması və əhalinin fasiləsiz olaraq keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təminatına şəraitin yaradılması;

Kəndlilərdən toplanılan narın bu mərkəz vasitəsilə həm daxili tələbatın keyfiyyətli məhsullarla ödənilməsinə, həm də ölkənin ixrac potensialının artmasına yardım edilməsi;

Bələdiyyə ərazisində yerli əhali üçün əlavə iş yerlərinin açılmasına nail olmaq.

Layihənin uğurlu nəticələr əldə etməsi üçün proyekt çərçivəsində beynəlxalq standartlara cavab verəcək şəkildə narın toplanması, qablaşdırılması, yüklənməsi, maşınlara yığılması, iri tədarük mərkəzlərinə, o cümlədən birbaşa satış obyektlərinə çatdırılması başlıca vəzifə hesab olunur.

**5. Layihənin təsviri:**A bələdiyyəsi ərazisində yerləşən U və T kəndlərində narçılıq üzrə 80-ə yaxın kəndli fermer və ev təsərrüfatı subyektləri fəaliyyət göstərir. Uzun illərdir ki, bölgə kənd təssüfatının narçılıq sahəsi üzrə məhsulların yetişdirilməsində və bazarların təmin olunmasında respublikamızda tanınır. Rayonda istehsal olunan nar məhsullarının əksər hissəsi ölkəmizin iri şəhərlərinə, bir hissəsi isə qonşu Rusiya bazarlarına yönəldilir.

Rayon ərazisindəki iri kəndli fermer təsərrüfatları ilə yanaşı əhali öz həyətyanı sahələrində və pay torpaqlarında da narın becərilməsi ilə məşğul

olur. Ev təsərrüfatlarında istehsal olunan məhsullar da vasitəçilərə satılaraq onların köməyi ilə daxili və xarici bazarlara çıxarılır.

Qeyd edək ki, hər il məhsul yığımı dövründə rayonda bir çox təsərrüfatların istehsal etdiyi nar vaxtında bazarlara çıxarılmadığından kəndlilər xeyli itkilərə məruz qalırlar. Keçən il bu səbəbdən bələdiyyə ərazisində ümumilikdə 40 ton məhsul itkisi baş vermişdir. Beləki, çox vaxt məhsulun düzgün yığılmaması, onun standartlara cavab verəcək şəkildə qablaşdırılmaması, taraların keyfiyyətsizliyi, yüklənmə və daşınmalarda texniki qaydalara riayət olunmaması sonda məhsulun bazara öz keyfiyyətini və əmtəə görünüşünü itirmiş vəziyyətdə çatmasına gətirib çıxarır. Bunun da nəticəsində alıcılar fürsətdən istifadə edərək məhsulu çox aşağı qiymətə alırlar. Başqa çarəsi qalmayan kəndli isə vəziyyətin diktəsi altında müştəri ilə razılaşaraq narı dəyər-dəyməzinə satır.

Bununla yanaşı mövsümdə məhsulların bolluğu səbəbi ilə onların qiyməti xeyli dərəcədə aşağı düşür ki, çox vaxt bu kəndlinin onun becərməsinə sərf etdiyi vəsaitdən və itirdiyi vaxtdan da çox olur. Nəticədə kəndli növbəti ildə narın becərilməsi ilə məşğul olmaqda maraqlı olmur.

Bunu nəzərə alaraq məhsul yığımı dövründə məhsulların dəyər-dəyməzinə satılmasının qarşısını almaq, narın son alıcıya keyfiyyətli şəkildə çatdırılmasını təmin etmək, yığımdan sonrakı bütün mərhələlərdə aqrotexniki qaydalara əməl olunmasınanail olmaq məqsədi ilə bələdiyyənin nəzdində nar məhsulları üçün tədarük və satış üzrə vasitəçilik xidməti layihəsini təklif edirik.

**6. Layihə üzrə fəaliyyət:**

a. **Layihənin işçi qrupunun təyini və təlimatlandırılması:** Layihə boyu işlərin idarəolunması üzrə işçi heyəti layihəyə cəlb olunacaqdır. Onlar görüləcək işlərlə bağlı təlimatlandırılacaqlar;

b. **Toplanma və logistika işlərinin təşkili:** Bu mərhələdə nar bağlarının mülkiyyətçiləri ilə məhsulun alınması və yığılması üzrə müqavilələr bağlanacaq. Məhsulun toplanması vaxtı müəyyənləşdiriləcəkdir. Bununla yanaşı bələdiyyə tərəfindən məhsulun daşınması işlərinin təşkili ilə bağlı olaraq yük maşınları lizinqə və ya icarəyə götürülərək müqavilələr bağlanacaqdır. Həmçinin məhsulun tədarükçüləri, bazar vasitəçiləri və son alıcılar ilə narın alqı-satqısı üzrə sazişlər bağlanaraq əlaqəli razılaşmalar həyata keçiriləcəkdir;

c. **Avadanlıqla təchizat:** bələdiyyə tərəfindən narın yığılması, qablaşdırılması, daşınması zamanı qorunması üçün xüsusi alətlər, taralar, örtük vasitələri və s. ləvazimatlar alınacaqdır;

d. **Fermerlərin və kəndlilərin məntəqə barəsində məlumatlandırılmaq:** Bələdiyyə ərazisində yerləşən kəndli fermer təsərrüfatları və yerli əhali məntəqə barəsində məlumatlandıralacaq və obyektin imkanları, bura məhsulların təhvili və s. barəsində izahatlar veriləcəkdir.

**e.** **Məntəqənin işə salınması:** Bələdiyyənin nəzdində yaradılan məntəqə işə başlayacaq. Dövlət büdcəsi hesabına cəlb olunmuş subvensiya maliyyəsi əsasında ilkin olaraq kəndli təsərrüfatlarından nar toplanılaraq müvafiq qaydada alıcılara və tədarük məntəqələrinə təhvil veriləcək və müəyyən gəlir əldə olunacaqdır. Növbəti dövrdə isə iş davamlı olaraq aparılacaqdır.

**7. Layihənin təsir dairəsi:**

*7.1. Layihənin benefisiarları:* Layihənin icrası zamanı ilk olaraq B bələdiyyəsi ərazisində fəaliyyət göstərən U və T kəndlərinin 80-ə yaxın narçılıq üzrə kəndli fermerləri və ev təsərrüfatları bəhrələnəcəkdir. Bununla yanaşı B bələdiyyəsinə qonşu olan digər kəndlərin də 200-ə yaxın ev təsərrüfatları da öz həyətyanı ərazilərində və pay torpaqlarında becərdikləri narı məntəqəyə təqdim etmək imkanı əldə edəcəklər. Qeyd edək ki, ümumilikdə yaxın 3 kəndlərin də təsərrüfatları layihənin təsir dairəsinə düşəcəkdir. Həmçinin layihənin reallaşması nəticəsində 30 yeni iş yeri açılacaqdır ki, bu da B bələdiyyəsinin U və T kəndlərinin əhalisi üçün əlavə iş imkanı deməkdir.

**8.Layihənin davamlılığı:**Layihə başa çatdıqdan sonra məntəqə MMC formasında Bələdiyyənin balansında fəaliyyətini davam etdirəcəkdir. Bələdiyyənin qərarı ilə məntəqənin xidmətlərindən istifadəyə görə kiçik ödənişlər də müəyyənləşdiriləcəkdir. Bu da məntəqənin öz təsərrüfat hesabına işləməsi üçün zəmin formalaşdıracaqdır. Gələcəkdə məntəqənin xidmətindən istifadə edəcək yerli əhalidən toplanılan ödəmələr hesabına məntəqənin stabil fəaliyyəti davam etdirilərək işçilərə əməkhaqqı veriləcək və avadanlıqlar mütəmadi olaraq yenisi ilə əvəzlənəcəkdir.

Bununla yanaşı Bələdiyyədə həyata keçiriləcək bu layihə hesabına əldə olunan təcrübələr digər rayon və kənd bələdiyyələri arasında da yayılacaqdır.

**<u>9. Layihə ilə bağlı müvafiq icra strukturlarının və maraqları toxunan qurumların icazələri və rəyləri barəsində qeydlər:</u>**Layihə ilə əlaqədar qurum və təşkilatların müvafiq sənədləri də əlavə olunmuşdur.

*9.1. İcra strukturları:* A rayon (şəhər) icra hakimiyyətinin müsbət rəyi

*9.2. Bələdiyyə:* Bələdiyyənin qərarı

*9.3. Rayon (şəhər) təşkilatları:* Rayon iqtisadiyyat şöbəsinin müsbət rəyi

*9.4. Digər:* yoxdur

**<u>10. Subvensiya layihəsinin icra müddəti:</u>**01 mart 2015-ci tarixindən 30 noyabr 2015-ci il tarixlərindəki dövrü əhatə edir.

**Nümunəvi II Subvensiya layihəsi**

Qeyd edək ki, kitabın yazılışı əsnasında bələdiyyələrə sosial, iqtisadi və ekoloji olaraq üç istiqamət üzrə nümunəvi layihələrin hazırlanması üzərində fikrimizi cəmləşdirdik. Bu baxımdan ikinci layihənin mövzusunu ekoloji istiqamət üzrə təyin etdik.

Ekoloji layihə də əvvəlki layihənin misalında olduğu kimi bələdiyyənin çoxsaylı ətraf mühit üzrə ideyalarından seçilərək müəyyən edilir. Yenə də sonda seçdiyimiz uğurlu ideya üzərində öz layihəmizi işləməyə başlayırıq.

Növbəti layihəmiz çay kənarının məişət tullantılarından təmizlənməsi və həmin ərazidə yaşıllığın salınması üzrə olmaqla **"Ətraf mühiti qoruyaq"** adlandırılacaq.

Layihə ideyasından çıxış edərək aşağıdakı formaya uyğun proyekti tərtib edək.

**<u>1.Layihənin ərazisi:</u>** C rayonu

**<u>2. Layihə icrasının ünvanı:</u>** Layihə C rayonu ərazisində yerləşən Z kənd bələdiyyəsi ərazisindən keçən Girdiman çayının kənarında icra olunacaq

**<u>3. Benefisiar təşkilat:</u>**

*3.1. Təşkilatın adı:* Z kənd bələdiyyəsi

*3.2. Yaranma vaxtı:* Bələdiyyə 2001-ci ildə yaranmışdır

*3.3. Tələb olunan məbləğ:* Layihə üçün dövlət büdcəsindən 50 000 manat subvensiya maliyyələşməsi tələb olunur.

*3.4. Əlavə vəsait:*Bələdiyyənin daxili hesabına layihəyə 1000 manat vəsait yönəldiləcəkdir

*3.5. Əlavə məlumat (əgər varsa):* yoxdur

**4. Subvensiya layihəsinin məqsədi və vəzifəsi:**Layihənin məqsədlərini aşağıdakı kimi sıralamaq olar:

Məqsəd: Girdiman çayının bələdiyyənin yerləşdiyi bölgədən keçən hissəsində ekoloji təmiz mühitin formalaşdırılmasına nail olmaq.

Vəzifə: - Bələdiyyə ərazisindən keçən Girdiman çayının kənarlarının məişət tullantılarından təmizlənməsi;

- Çay kənarında yaşıllığın salınması.

**5. Layihənin təsviri:**Girdiman çayınınZbələdiyyəsi ərazisindənkeçənhissəsində ikikəndyerləşir. Bununlayanaşı Crayonu ərazisində Girdiman çayınınsahilində Bvə Dbələdiyyəlàridə mövcuddur.

Uzunillərdirki, Girdiman çayınınCrayon ərazisindənkeçənhissəsiyaxınrayonların əhalisi üçünistirahətzonası kimi çoxcəzbedicidir. Busəbəbdəndə çaykənarında 8-ə yaxınkafevə restoranlarfəaliyyətgöstərir. Həmçinin sözügedənrestoranların 3-də turistlərinyaşamaları üçün 20-yə yaxınkiçikkotejlərdə fəaliyyətgöstərir. Qeydedəkki, buictimai-iaşə obyektlərininfəaliyyətinəticəsində çayavə onunkənarınaxeylimiqdardazibiltullanılır.

Bununlayanaşı bələdiyyəninyerli əhalisidə özməişəttullantılarını və çirkabsularını həmin çayaaxıdaraqonudahada çirkləndirir.

Nəticədə çayınsuyuvə onun ətrafı üfunətə qərqolur. Onunfaunavə florasınaxeylidərəcədə zərərdəyir. Çayqırağı yaşıllıqlarquruyur, sudayaşayanbalıqlarvə digərcanlılarməhvolur. Bununlayanaşı suvarmavə içməkməqsədi ilə çaydanistifadə edənaşağı kəndlərin əhalisi üçünböyüktəhlükə yaranır. Həmçinin istiyayaylarındabələdiyyəninyerlisakinləri üçünepidemiyalarındayayılması təhlükəsiyaranır.

Busəbəbdənbələdiyyəmiztərəfindənqonşuikibələdiyyənində iştirakı ilə Girdiman çayınınbölgədənkeçənhissəsində təmizlikişlərininaparılaraqyaşıllıqlarınsalınması yoluilə ətraf mühitinqorunması üzrə subvensiyalayihəsinitəklifedirik.

**6. Layihə üzrə fəaliyyət:**

a. **Bələdiyyələr arasında iş bölgülərinin təsdiqi:** Qeyd edək ki, layihə 3 bələdiyyənin birgə layihəsi olduğu üçün B və D bələdiyyələri ilə

işin icrası ilə bağlı bölgü aparaılaraq əməkdaşlıq memorandumları və müqavilələri bağlanılacaqdır.

b. **Layihənin işçi qrupunun təyini və təlimatlandırılması:** layihə boyu işlərin idarəolunması üzrə işçi heyəti layihəyə cəlb olunacaqdır. Onlar görüləcək işlərlə bağlı təlimatlandırılacaqdır.

c. **Könüllülərin cəlbi:** çayqırağı ərazilərin təmizlənməsi ilə bağlı yerli əhali arasından könüllülər toplanılacaqdır. Onlar görüləcək işlərlə bağlı məlumatlandırılacaqdır.

ç.**Ərazinin tullantılardan təmizlənməsi:** Tullantıların yığılması və daşınması üçün traktor, yük maşınları, əmək alətləri, xüsusi geyimlər təşkil olunacaq. Bununla yanaşı təmizlik işlərindən sonra ərazidə yerləşdiriləcək xüsusi məlumatlandırma, xəbərdarlıq lövhələri hazırlanacaq. Üç bələdiyyənin işçi qrupu birlikdə ərazidəki zibilləri toplayacaq və maşınlar vasitəsilə ləğvetmə yerinə aparacaqlar. Bununla yanaşı çirkab sularının axıdılması məqsədilə çaya çəkilmiş kanallar, arxlar bağlanacaqdır.

d. **Bələdiyyə haqlarının müəyyənləşdirilməsi:** Çayqırağı ərazilərin davamlı şəkildə təmiz saxlanılması və ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Qanunvericiliyinə uyğun olaraq Bələdiyyə tərəfindən həmin zonanın çirkləndirilməsinə görə cərimələr müəyyənləşdiriləcək, o cümlədən çaydan istifadəyə görəyerli əhaliyə kiçik ödəmələr təyin olunacaqdır.

e. **Çayqırağı ərazilərdə yaşıllığın salınması:** Bunun üçün ağaclar alınacaq. Texnikanın cəlbi ilə ərazidə yerin bellənməsi həyata keçiriləcək və işçilər tərəfindən ağaclar əkiləcəkdir. Həmçinin yaşıllığın inkişafı üçün suvarma sistemləri quraşdırılacaqdır.

ə. **Bələdiyyə ərazisində maarifləndirmə işlərinin görülməsi:** Bələdiyyələr tərəfindən yerli əhalinin çayqırağında aparılan işlər, qoyulmuş qaydalar və ödəmələr haqqında maarifləndirilməsi məqsədilə layihə çərçivəsində bukletlər çap olunaraq paylanacaqdır.

**7. Layihənin təsir dairəsi:**

*7.1. Layihənin benefisiarları:* Layihə Z, B və D bələdiyyələrinin ərazilərində yaşayan 5300 nəfər əhalini əhatə edəcəkdir. Həmçinin 8-ə yaxın kafe və restoranlar da layihənin müsbət təsirindən bəhrələnəcəkdir.

Bununla yanaşı çayın aşağı hissəsində yerləşən digər kəndlərin sakinləri də təmizlik işləri səbəbilə layihənin təsir dairəsinə düşəcəklər.

**8.Layihənin davamlılığı:**Dövlət tərəfindən subvensiya maliyyələşməsi bitdikdən sonra layihənin davamlılığını təmin etmək məqsədilə aşağıdakı işlərin görülməsi nəzərdə tutulur:

1. Bələdiyyələr tərəfindən ərazinin mühafizəsi üçün üç nəfər işçi ayrılacaq. Həmin işçilərə bələdiyyə tərəfindən əməkhaqqı da veriləcəkdir. Qeyd edək ki, ərazinin qorunması üzrə xərclərin maliyyələşdirilməsi və dövlət büdcəsindən asılılığı azaltmaq üçün Bələdiyyə tərəfindən müəyyənləşdirilən cərimə və ödəmələrin toplanması həyata keçiriləcəkdir.

2. Bununla yanaşı bələdiyyələrin təşkilatçılığı ilə ərazidə yerləşən təhsil ocaqlarından və digər qurumlardan, o cümlədən yerli əhalidən ibarətkönüllülər qrupu yaradılacaqdır. Həmin könüllülərin dəstəyi ilə ildə bir neçə dəfə cari təmizləmə işləri həyata keçiriləcəkdir.

3. Çayqırağı zonada işləyən 8-ə yaxın kafe və restoranlarla bələdiyyə arasında əməkdaşlıq qurularaq onların dəstəyi ilə həmin obyektlərin ətrafı üzrə dövri olaraq təmizlik işləri aparılacaqdır.

**9. Layihə ilə bağlı müvafiq icra strukturlarının və maraqları toxunan qurumların icazələri və rəyləri barədə qeydlər:**Layihə ilə əlaqədar qurum və təşkilatların müvafiq sənədləri də əlavə olunmuşdur.

*9.1. İcra strukturları:*A rayon (şəhər) icra hakimiyyətinin müsbət rəyi

*9.2. Bələdiyyə:* Bələdiyyənin qərarı

*9.3. Rayon (şəhər) təşkilatları:* Rayon ekologiya və təbii sərvətlər şöbəsinin dəstək məktubu

*9.4. Digər:* Layihə çərçivəsində əməkdaşlıq edən üç bələdiyyə arasında bağlanmış müqavilə

**10. Subvensiya layihəsinin icra müddəti:**01 fevral 2015-ci tarixindən 30 noyabr 2015-ci il tarixədək dövrü əhatə edir.

**Nümunəvi III Subvensiya layihəsi**

Əvvəlki iki layihə kənd təsərrüfatına və ekoloji sahəyənümunə olmaqla yanaşı həmin istiqamətli istənilən bir layihənin seçilməsi üçün də başlanğıc rolunu oynayır.

Dövlət büdcəsinin maliyyələşdirməsi çərçivəsində növbəti subvensiya layihəsini yerli əhali üçün əhəmiyyətli olabiləcək ictimai iaşə və xidmət obyektinin təşkili üzrə yazırıq.

Burada da yenə subvensiya maliyyələşməsinin məhdudluğu və kiçik məbləğ olmasını nəzərə alaraq layihəmizi ona uyğun formalaşdıracağıq.

Layihə bələdiyyə ərazisindən keçən baş yol kənarında "**Avtoservis məntəqəsi**"nin qurulması ilə bağlı olacaqdır.

Layihə ideyasından çıxış edərək aşağıdakı formaya uyğun proyekti tərtib edək:

**1.Layihənin ərazisi:** G rayonu

**2. Layihə icrasının ünvanı:** Layihə G rayonu ərazisində yerləşən Y kənd bələdiyyəsi ərazisindən keçən baş yolun 210-cu km-də icra olunacaq.

**3. Benefisiar təşkilat:**

*3.1. Təşkilatın adı:* Y kənd bələdiyyəsi

*3.2. Yaranma vaxtı:* Bələdiyyə ərazisindən keçən baş yolun hissəsi 1938-ci ildən salınmışdır.

*3.3. Tələb olunan məbləğ:* Layihə üçün dövlət büdcəsindən 35 000 manat subvensiya maliyyələşməsi tələb olunur.

*3.4. Əlavə vəsait:* Bələdiyyənin daxili imkanları hesabına layihəyə 1000 manat vəsait qoyulacaqdır.

*3.5. Əlavə məlumat (əgər varsa):* Bununla yanaşı tikiləcək Avtoservisin ustaları tərəfindən borc olaraq da ümumilikdə 5 000 manat vəsait cəlb edilmişdir.

**4. Subvensiya layihəsinin məqsədi və vəzifəsi:**Layihənin məqsədlərini aşağıdakı kimi sıralamaq olar:

Məqsəd: Baş yolun Y bələdiyyəsi ərazisindən keçən hissəsində yerli əhaliyə və digər maşın sahiblərinə yüksək avtoservis xidmətini təşkil etməklə ərazidə gediş-gəlişin stabilliyinə nail olmaq.

Vəzifə: - Bələdiyyə ərazisindən keçən baş yolun 210-cu km-də zəruri avtoservis sexlərinin tikilməsi;

- Sexlərin peşəkar mütəxəssislərlə təmin olunması;

- Sexlərin davamlı fəaliyyətinin təşkili və bələdiyyə daxilolmalarının formalaşdırılması.

**5. Layihənin təsviri:**G rayonu ərazisindən magistral yolun 205-220-ci km-lik hissəsi keçir. Y bələdiyyəsi də məhz bu sahəni əhatə edir. Bələdiyyənin ərazisində üç yaşayış məntəqəsi yerləşir ki, burada da ümumilikdə 4800 nəfər əhali yaşayır. Ərazidən keçən magistral yol ilə 24

saat ərzində həm ölkədaxili, həm də beynəlxalq səviyyədə nəqliyyat vasitələrinin hərəkəti davam edir.

G rayon mərkəzi bu kəndlərdən 30 km aralıda yerləşdiyi üçün sözügedən bələdiyyə ərazisi rayon üçün ucqar kəndlər sayılır. Bu səbəbdən də magistral yolun kənarında ictimai-iaşə infrastrukturlarının qurulmasına uzun illər diqqət yetirilməmişdir. Bölgədə olan əhali isə həmişə yol üzərində olan digər rayonlardakı xidmət obyektlərində işləməyə məcbur olurlar.

Qeyd edək ki, magistral yolun Bələdiyyənin ərazisinə düşən hissəsində vaxtaşırı olaraq qəza hadisəsi, maşınların nasazlığı baş verir ki, nəticədə bu problemi həll etmək üçün digər rayonlara müraciət edilməli olur. Əraziyəən yaxın digər rayonda yerləşən avtoservis məntəqəsi 20 km aralıqda fəaliyyət göstərir. Bu da yolda tıxacın yaranmasına, yerli əhalinin dincliyinin pozulmasına və s. problemlərin formalaşmasına gətirib çıxarır.

Bəzi hallarda ərazidə baş verən qəzalar səbəbilə avtomobillərə baxmaq üçün başqa avtoservis mərkəzlərindən gələn ustalar yerli kənd əhalisindən onların həyətlərində maşınların təmiri üçün icazə vermələrini xahiş edirlər. Belə hallar isə mütəmadi olduğu üçün yerli sakinlər bələdiyyəyə öz narazılıqlarını bildirirlər.

Bütün yuxarıda göstərilənlərə əsaslanaraq qeyd edə bilərik ki, bələdiyyə ərazisində kiçik sexlərdən ibarət "Avtoservis məntəqəsinin" qurulması vacib məsələ kimi ortaya çıxmışdır.

Bələdiyyə tərəfindən magistral yolun 210-cu km-də kənarda avtoservis xidmət məntəqəsinin qurulması layihəsi həm yoldan istifadə edən yerli əhali və ölkə vətəndaşlarının nəqliyyat vasitələrinə əlçatan qulluğun göstərilməsi, həm də ərazidə yaşayan sakinlərdən bir qrupunun daimi işlə təmin olunması baxımından məqsədəuyğun hesab edilmişdir.

**6. Layihə üzrə fəaliyyət:**

a. **Layihənin işçi qrupunun təyini və təlimatlandırılması:** Layihə boyu işlərin idarəolunması üzrə işçi heyəti layihəyə cəlb olunacaqdır. Onlar görüləcək işlərlə bağlı təlimatlandırılacaqdır.

b. **Ərazinin tikinti üçün hazır vəziyyətə gətirilməsi:**Texnikadan istifadə olunmaqla ərazi təmizlənəcək, bünövrə işləri görüləcək;

c. **Avtoservisin ayrı-ayrı sexlərinin tikilməsi:** Qeyd edək ki, layihə çərçivəsində tikintisi nəzərdə tutulan "Avtoservis məntəqəsi"-nə motorist, təkər, elektrik və akkumulyator sexləri daxil olacaqdır. Bu

səbəbdən də obyektlərin tikintisi sexlərin fəaliyyət strukturuna müvafiq aparılacaqdır. Qanunvericiliyə uyğun olaraq da tikinti işləri ilə bağlı tender elan olunacaq və qalib şirkət ilə müqavilə bağlanılaraq işlər görüləcəkdir.

ç. **Avtoservisin zəruri avadanlıqla təmin olunması:** Bu mərhələdə avtoservisin tərkibinə daxil olan sexlərin fəaliyyətinə uyğun olaraq müvafiq avadanlıqlar alınaraq quraşdırılacaqdır.

d. **Ustaların peşəkarlığının artırılması:** Layihə çərçivəsində cəlb olunmuş ustalar öz sahələri üzrə yeni avadanlıqlardan istifadə üzrə əlavə təlimlərə cəlb olunacaqlar. Ustaların peşəkarlıq səviyyəsi bir daha yoxlanılacaqdır. Qeyd edək ki, layihənin hazırlanması prosesində onlarla sexlər üzrə xidməti müqavilə bağlanacaqdır.

e. **Bələdiyyə daxilolmalarının təsbit olunması:** Qeyd edək ki, avtoservis üzrə işlərin təşkili ilə bağlı bələdiyyənin nəzdində məhdud məsuliyyətli cəmiyyət (MMC) yaradılmışdır. Bu cəmiyyətin gəlirləri müvafiq vergi, əməkhaqqı, iş və xidmətlərə görə ödəmələr ödənildikdən sonra qalan vəsait bələdiyyənin cari məqsədlərinin maliyyələşməsinə yönəldiləcəkdir. Bu vəsait hesabına gələcəkdə digər layihələrin maliyyələşməsi, dövlət büdcəsindən asılılığın minimuma endirilməsi istiqamətində də istifadə olunacaqdır.

Bələdiyyənin qərarı ilə ərazidə yaşayan əhaliyə və magistral yolun 210-cu km-dən keçən nəqliyyat vasitələrinin sürücülərinə əlçatan xidməti təşkil etmək üçün qiymətlər müəyyənləşdiriləcəkdir.

**7.Layihənin təsir dairəsi:**

*7.1. Layihənin benefisiarları:* Layihədən birbaşa Y bələdiyyəsi ərazisində yerləşən 3 kənddə mövcud olan avtomobil sahibləri, o cümlədən magistral yolun 210-cu km-dən keçən və zəruri avtobaxışa ehtiyac duyan nəqliyyat vasitələrinin sürücüləri faydalanacaqdır.

Dolayı yolla isə bələdiyyə ərazisinə yaxın digər rayonların kəndlərinin sürücüləri üçün də əhəmiyyətli olacaqdır. Bununla yanaşı layihədən Avtoservisdə işləyəcək ustalar, şagirdlər və digər xidməti əməkdaşlar yararlanacaqdır. Bələdiyyənin bu fəaliyyətdən əldə etdiyi gəlirlər hesabına ərazidə həyata keçiriləcək digər layihələr hesabına bütün bələdiyyə sahibləri bu subvensiya layihəsinin təsirini hiss edəcəkdir.

**8.Layihənin davamlılığı:**Dövlət tərəfindən subvensiya maliyyələşməsi bitdikdən sonra layihənin davamlılığını təmin etmək məqsədilə aşağıdakı işlərin görülməsi nəzərdə tutulur:

1. Layihə çərçivəsində qurulmuş Avtoservisin fəaliyyəti nəticəsində əldə olunacaq gəlirlər hesabına burada çalışan işçi heyətinin əməkhaqları və xidməti ödənişləri veriləcəkdir. Bu həmçinin subvensiya layihəsi üzrə dövlət maliyyələşməsi bitdikdən sonra gələcəkdə işçilərin saxlanması üçün yenidən dövlətə müraciət etməyə ehtiyacı aradan qaldıracaqdır;

2. Avtoservisdən əldə olunan gəlirlər hesabına gələcəkdə kiçik ictimai iaşə mərkəzləri yaradılacaqdır. İlkin olaraq kiçik çay evinin qurulması da nəzərdə tutulur;

3. Qeyd edək ki, bu layihənin uğurlu nəticələri və əldə olunan təcrübə qonşu bələdiyyə nümayəndələrinə təqdim olunacaq. Onlarda da bu tip layihələrin həyata keçirilməsi üçün birgə iş aparılacaqdır.

**9. Layihə ilə bağlı müvafiq icra strukturlarının və maraqları toxunan qurumların icazələri və rəyləri barəsində qeydlər:** Qeyd edək ki, layihənin həyata keçirilməsi ilə bağlı ərazinin bələdiyyəyə ayrılması, tikintinin çertyojunun çəkilməsi, o cümlədən müvafiq tikinti sənədlərinin hazırlanması və aidiyyatı təşkilatlar tərəfindən təsdiqi subvensiya layihəsinin hazırlanması mərhələsində həyata keçirilmişdir.

*9.1. İcra strukturları:*Avtoservisin MMC kimi Vergilər Nazirliyindən qeydiyyat sənədləri

*9.2. Bələdiyyə:*Bələdiyyənin qərarı

*9.3. Rayon (şəhər) təşkilatları:* G rayon (şəhər) icra hakimiyyətinin müsbət rəyi

*9.4. Digər:* Müvafiq nazirlik və baş idarələrin rayon şöbələrinin ərazidə tikintinin aparılması ilə bağlı sənədlərdə təsdiqləyici möhür və imzaları

**10. Subvensiya layihəsinin icra müddəti:**01 fevral 2015-ci tarixindən 30 dekabr 2015-ci il tarixinədək dövrü əhatə edir.

# 5 SUBVENSİYA LAYİHƏLƏRİNİN İQTİSADİ-MALİYYƏ



# ƏSASLANDIRILMASININ METODOLOJİ ƏSASLARI

Layihədə nəzərdə tutulan tədbirlərin səmərəliliyinin əsaslandırılması layihənin həyata keçirilməsi nəticəsindəiki növ səmərənin əldə edilməsini nəzərdə tutur: **sosial və iqtisadi.**

**Sosial səmərəlilik** insanların həyat tərzinə,onların əmək kollektivində və ya cəmiyyətdə münasibətlərinə təsiri ilə müəyyən edilir. Bu, insan faktoru ilə özünü biruzə verir. Sosial və iqtisadi effektivliyi bir-birindən tam ayırmaq metodoloji səhv olardı, çünki onlar bir-birinə üzvi olaraq təsir edirlər. Lakin bəzi hallarda, hətta iqtisadi baxımdan sərfəli olmayan layihələrdə sosial səmərəliliyə şərtsiz prioritet verilə bilər. Məsələn, işçilərin əmək təhlükəsizliyi kimi layihələrdə sosial məsələ iqtisadi istiqamətdən önə keçərək prioritetləşir.

**İqtisadi səmərəlilik** planlaşdırılan tədbirlərin reallaşdırılması zamanı çəkilən ümumi məsrəflərin (tədqiqat dövrünün məsrəfləri daxil olmaqla)əldə olunan nəticə ilə müqayisə edilməklə müəyyən edilir.

Bu zaman iqtisadi səmərə fəaliyyətdə baş verəcək yeniliklərlə əlaqədar resursların həm struktur baxımından, həm də həcm baxımından daha səmərəli istifadəsi, vasitəsilə əlavə mənfəətin əldə edilməsi ilə ifadə olunur.

Mövcud idarəetmə sisteminin təkmilləşdirilməsi ilə mövcud resurslardan daha səmərəli istifadə üçün zəmin yaranır:

1. Qeyri-səmərəli əmək məsrəflərinin iş vaxtında baş verən itkilərin,avadanlıqların dayanmalarının, əmək və material xərclərində baş verən israfçılığın, əlavə iş saatlarına görə verilən ödənişlərin, zay məhsullara görə itkilərin, təşkilati səbəblər üzündən məcburi dayanmalara görə verilən ödənişlərin azalması və s.

Bunlar istehsal itkiləridir.

2. İqtisadi münasibətləri tənzimləyən qaydaların pozulmasına görə cərimə ödənişlərinin azalması.

Bunlar təsərrüfat fəaliyyəti ilə bağlı itkilərdir.

3. İstehsal vasitələrinin qeyri-rasional istifadəsi ilə bağlı xərclərin–bitməmiş istehsalvəmal-material ehtiyatlarının həcminin, avadanlıqların saxlanılması xərclərinin azalması, dövriyyə kapitalının dövretmə sürətinin artırılması və s.

Bu iqtisadi fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı ehtiyatlardır.

4. Qeyri-peşəkarlıq, informasiya, metodologiya və texniki bazaların qeyri-təkmilliyi ilə əlaqədar idarəetmə sahəsində itkilərin azaldılması.

Bu itkilər adətən əvvəlki üç sahə ilə sıx bağlıdır.

Keyfiyyətcə yeni layihə qərarları istehlak olunan resursların tərkibini və strukturunu, onların istifadə intensivliyini əsaslı surətdə dəyişə, həm də istehsal və satış həcmini artıra, ehtiyatların effektiv istifadəsini təmin edə bilər və nəticədə təsərrüfat və maliyyə göstəricilərini yaxşıya doğru dəyişdirə bilər.

**İqtisadi səmərəlilik göstəricilərinin hesablanması**

Layihələrin üç növ səmərəliliyi nəzərdə tutulur:

- kommersiya (maliyyə) səmərəliliyi – aidiyyəti iştirakçılara münasibətdə layihənin həyata keçirilməsinin maliyyə nəticələrini müəyyən edir;
- büdcə səmərəliliyi – dövlət büdcəsi və ya yerli büdcəyə münasibətdə layihənin həyata keçirilməsinin maliyyə nəticələrini müəyyən edir;
- milli iqtisadi səmərə - aidiyyəti iştirakçıların maraqları çərçivəsindən daha geniş ərazini əhatə edən və dəyəri etibarlı şəkildə ölçülə bilən layihənin həyata keçirilməsinin maliyyə nəticələrini müəyyən edir;

Milli iqtisadi səmərəliliyin qiymətləndirilməsi iri həcmli (şəhər, rayon və ya ölkə maraqlarına əhəmiyyətli təsir göstərən) layihələr üçün tövsiyə olunur.

Milli iqtisadi səmərəlilik göstəricilərinin hesablanması nəticəsində aşağıdakılar müəyyən edilməlidir:

- Maliyyə fəaliyyətinin nəticələri (məhsulların daxili və xarici bazarda satışından gəlir, iştirakçıların istifadə etdiyi məhsullar istisna olmaqla). Bu hesablamalara layihənin həyata keçirilməsi zamanı yaradılan əmlak və intellektual mülkiyyətin satışından gəlirlərdə daxil edilir;
- iştirakçıların ərazinin sosial və ekoloji vəziyyətinə, əhalinin sağlamlığına ümumi təsiri nəzərə alınmaqla sosial və ekoloji nəticələr;
- birbaşa maliyyə nəticələri;
- xarici ölkələrin borcları, bank kreditləri, gömrük rüsumlarının daxilolmaları və s.

Maliyyə səmərəliliyinin təhlili məqsədi üçün ilk növbədə "xalis cari (diskontlaşdırılmış) gəlir, NPV" və "daxili gəlirlik dərəcəsi, İRR" göstəricilərdən istifadə olunur, sonra əlavə olaraq "özünü ödəmə müddəti" də daxil olmaqla bir sıra digər göstəricilər nəzərə alınır.

Cədvəl 1

**İnvestisiya layihəsinin maliyyə-iqtisadi əsaslandırılması**

| **Əsas maliyyə-iqtisadi göstəriciləri** | | | |
|---|---|---|---|
| | **Layihə üzrə** | **Müəssisə üzrə layihə nəzərə alınmadan** | **Müəssisə üzrə layihə nəzərə alınmaqla** |
| **1. Xalis cari (diskontlaşdırılmış) dəyər (NPV)** | | | |
| **2. Daxili gəlirlik dərəcəsi (İRR)** | | | |
| **3. Özünü ödəmə müddəti (PBP)** | | | |

| | | | |
|---|---|---|---|
| **4. Diskontlaşdırılmış özünü ödəmə müddəti (DPBP)** | | | |
| **5. Kapitalın orta çəkili dəyəri (WACC)** | | | |
| **5.1. Xalis kapitala düşən gəlirlik (ROE)** | | | |
| **5.2. Borc kapitalına düşən gəlirlik (faiz dərəcəsi)** | | | |

***Mənbə:*** Moskva Kənd Təsərrüfatı Akademiyasının rəsmi internet saytı - www.ftcntr.ru

Cədvəl 2

Layihənin maliyyə səmərəliliyi göstəricisi olan xalis cari (diskontlaşdırılmış) dəyərin (NPV) formalaşdırılması alqoritmini araşdıraq:

| **Addımlar** | **Nəticə** |
|---|---|
| Hər il üçün ayrılıqda layihə nəzərə alınmaqla hesablanmış gəlirlərdən layihə nəzərə alınmaqla hesablanmış məsrəflər çıxılır | illər üzrə layihə nəzərə alınmaqla hesablanmış xalis gəlirlər |
| Alınan nəticələrdən illər üzrə layihə nəzərə alınmadan hesablanmış xalis gəlirlər çıxılır | layihənin həyata keçirilməsi nəticəsində illər üzrə əldə olunan xalis gəlir artımları |
| Müəyyən diskont dərəcəsi (pulların normal alternativ artım surəti göstəricisi) tətbiq etməklə illər üzrə nəticələr eyni cari tarixə diskontlaşdırılır | illər üzrə xalis gəlir artımlarının cari (diskontlaşdırılmş) dəyəri |
| Alınan nəticələr toplanılır | layihənin həyata keçirilməsi nəticəsində illər üzrə əldə olunan xalis gəlir artımlarının cari (diskontlaşdırılmş) dəyərlərinin cəmi |

***Mənbə:*** Cədvəl müəlliflər tərəfindən tərtib olunmuşdur.

Bu göstəricinin məntiqi əsası aşağıdakı kimi izah olunur:

1) Layihə sadəcə illər üzrə gəlir və məsrəflər arasındakı fərqi (xalis gəlirləri) deyil, layihənin həyata keçirilməsi nəticəsində illər üzrə əldə olunan xalis gəlir artımlarını (layihə üzrə xalis gəlirlərdən çıxılsın layihə olmadan da əldə oluna biləcək xalis gəlirlər) xarakterizə edir;

2) Müxtəlif illərə aid pulları müəyyən bir vaxt intervalına salmadan toplamaq olmaz. Diskontlaşdırmanın istifadəsi pulların investisiyaya yönəldilməsinin, onların müəyyən faiz dərəcəsi ilə sadəcə “artırmağa” verilməsindən üstünlüyünün müəyyən edilməsini mümkün edir;

3) Xalis gəlir artımlarının cari (diskontlaşdırılmş) dəyərlərinin cəmi, layihə üzrə ümumi səmərəni xarakterizə edir: gəlir artımlarının cari (diskontlaşdırılmş) dəyərlərinin cəmi zərər artımlarının cari (diskontlaşdırılmş) dəyərlərinin cəmindən artıq (əskik) olduqda, layihə “faizə verilməsi” alternativi ilə müqayisədə müsbət (mənfi) maliyyə səmərəsi gətirir;

Bir neçə dövrdən sonra xalis gəlir artımlarının diskontlaşdırılmış cəminin dəyəri müsbət nəticə almalıdır (və növbəti illərdə müsbət olaraq qalmalıdır). Bu anı investisiyanın özünü ödəmə müddətini (PBP) xarakterizə edir. Yəni gəlir artımlarının diskontlaşdırılmış cəminin dəyəri xərc artımlarının diskontlaşdırılmış cəminin dəyərinə bərabərləşir və beləliklə xərclərin artımı gəlir artımları ilə ödənlir.

Bütün göstəricilər həm ümumi layihə üçün, həm də ayrı-ayrı komponentlər üçün hətta hər bir layihə iştirakçısı üçün hesablana bilər. Komponentlər üzrə səmərəlilik göstərcilərinin hesablanması hər bir amilin ümumi nəticəyə verəcəyi töhfənin və imtina edildiyi halda ümumi nəticəyə xələl gətirməyən hissənin də üzə çıxarılması baxımından əhəmiyyətlidir. İştirakçılar üzrə səmərəlilik göstəricilərinin hesablanması hər bir iştrakçının ayrılıqda bütöv layihənin həyata keçirilməsində maraq dərəcəsinin müəyyən edilməsi üçün zəruridir. Belə bir fərziyə var ki, layihədən öz xalis gəlirinin əhəmiyyətli artımını gözləməyən iştrakçı hər an layihədə iştirakdan imtina edə bilər və bu da, öz növbəsində, bütöv layihənin müvəffəqiyyətsizliyi və digər iştirakçıların da ziyanı ilə nətcələnə bilər.

Düstur və NPV hesablanması alqoritmindən istifadə etməklə, bütöv layihə üzrə gəlir və xərclərin sadalanmasına baxaq.

**I. Maliyyə gəlirləri:**

1.1. Malların (xidmətlərin) satışından gəlir;

1.2. İnvestisiyaların qalıq dəyəri (layihənin uçotu aparılan "ömrünün" sonunda daşınmaz əmlakın qiymətləndirilməsi metodları - bazar qiyməti, balans dəyəri, bərpa dəyəri- əsasında hesablama);

1.3. Layihəyə aid digər gəlirlər (onların hər bir iştirakçı üzrə uçotu xüsusilə vacibdir).

**II. Maliyyə xərcləri:**

2.1. Avadanlıqların dəyişdirilməsi, əsaslı təmir və digər işlərin görülməsi üçün zəruri hesab edilən təkrar kapital qoyuluşu da daxil olmaqla, investisiya xarakterli xərclər;

2.2. Cari və ya istismar xərcləri ("real" xərclər nəzərə alınır, yəni bu mərhələdə amortizasiya, ödənilməmiş xərclər, vergilər nəzərə alınmır; bu maddələrin bir qədər sonra hesaba alınması tövsiyə olunur);

2.3. Dövriyyə kapitalının artımı (həm fəaliyyətdə olan istehsalın genişləndirilməsinə, həm də yeni istehsalın işə salınmasına lazım olan dovriyyə aktivlərinin əldə edilməsinə çəkilən xərclər, sahəvi normativlər əsasında hesablamalar);

2.4. Layihədən və ya layihədə iştirakdan yaranan sair xərclər.

Sadalanan maddələr həm "layihəli", həm də "layihəsiz" vəziyyəti xarakterizə edir. Növbəti hesablamaların rahatlığı üçün müvafiq göstəricilərin cədvəl formasında təqdim edilməsi məqsədəuyğundur.

Bütün variantlarda verilmiş cədvəlləri sonda ümumiləşdirib, "layihəsiz" vəziyyətin iki müxtəlif halında təqdim etmək olar:

- birinci sxemdə "layihəsiz" vəziyyət dəyişməz kimi qəbul olunur;
- ikinci sxemdə "layihəsiz" vəziyyət dövrlər üzrə dəyişilən kimi qəbul olunur.

Sxem 1

**“layihəsiz” vəziyyət dəyişməz kimi qəbul olunur**

| Göstəricilər | “layihəsiz” | Dövrlər (illər) üzrə “layihəli” | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 və i.a. | N |
| **I. GƏLİRLƏR** | | | | | | |
| **1.1. Satışdan gəlir** | ... | ... | ... | ... | ... | ... |
| **1.2. Qalıq dəyəri** | X | X | x | x | x | 1000 |
| **1.3. Sair** | ... | ... | ... | ... | ... | ... |
| **Cəmi gəlirlər** | 1000 | 1000 | 1600 | 2200 | 2200 | 3200 |
| **II. XƏRCLƏR** | | | | | | |
| **2.1. Kapitallaşdırılan** | X | 1500 | x | x | x | x |
| **2.2. Cari** | ... | ... | ... | ... | ... | ... |
| **2.3. Dövriyyə kapitalının artımı** | X | 100 | 100 | x | x | X |
| **2.4. Sair** | ... | ... | ... | ... | ... | ... |
| **Cəmi xərclər** | 800 | 2400 | 1100 | 1200 | 1200 | 1200 |
| **Xalis gəlirlər** | 200 | -1400 | 500 | 1000 | 1000 | 2000 |
| **Xalis gəlir artımları** | X | -1600 | 300 | 800 | 800 | 1800 |

***Mənbə:*** Moskva Kənd Təsərrüfatı Akademiyasının rəsmi internet saytı - www.ftcntr.ru

Şərti işarələr:

... – göstəriciyə məxsus müəyyən dəqiq qiymət var, lakin misalın qısalığı üçün göstərilməmişdir;

X – göstəricinin qiyməti cədvəlin bu vəziyyətində məna kəsb etmir;

x – göstəricinin qyməti bu dövrdə sıfıra bərabərdir (bir qayda olaraq);

Qeyd edək ki, “layihəsiz” vəziyyətin bu variantında 1.2, 2.1 və 2.3 göstəriciləri məna kəsb etmirlər;

Fərz edək ki, cəmi təhlil olunan bütün dövrlər üçün cəmi gəlir 1000-ə, cəmi xərclər isə 800-ə bərabərdir. Bu halda, “layihəsiz” vəziyyətin hər bir dövründə “xalis gəlir” 200-ə bərabərdir.

**Gəlir – Xərclər = 1000 – 800 = (Xalis gəlir)**

Göstərilən misalda “layihəli” vəziyyətin birinci dövrünün gəlirləri “layihəsiz” vəziyyətin gəlirlərinə bərabərdir (1000), eynilə cari xərclər kimi (kapitallaşdırılan xərclər və dövriyyə kapitalının artımına çəkilən xərclər çıxılmaqla, ümumi xərclər 800-ə bərabərdir). Növbəti illərdə gəlirin həcmi artır (1600, 2200). Sonuncu il gəlirin üstünə qalıq dəyəri əlavə olunur. Cari xərclər həmçinin 800-dən 1000-ə, sonra layihə gücünə çatanda isə 1200-ə qədər artır. Birinci il cari xərclərə kapital xarakterli xərclər (1500), habelə istehsalın genişləndrlməsi üçün zəruri olan dövriyyə vəsaitlərinin əldə edilməsi xərcləri (100) əlavə olunur; Eynilə, üçüncü ildə layihə gücünə çatmaq məqsədilə, istehsalın daha da genişləndirilməsi üçün ikinci ildə dövriyyə vəsaitlərinin artırılması xərcləri tələb olunur ki, bu da cari xərclərin artımından müəyyən faizlə hesablanır (misalda 1200 -1000 = 200 x 50% = 100).

Müvafiq olaraq, “layihəli” vəziyyətdə xalis gəlirlər dövrlər üzrə dəyişəcək:

1-ci – 1000 – 2400 = -1400

2-ci – 1600 – 1100 = + 500

3-cü və i.a. – 2200 – 1200 = + 1000

Sonuncu – 3200 – 1200 = + 2000

Verilənlər əsasında xalis gəlirlərin dövrlər üzrə artımı hesablanır:

1-ci – -1400 – 200 = -1600
2-ci – + 500 – 200 = + 300
3-cü və i.a. – +1000 –200 = + 800
Sonuncu – +2000 – 200 = + 1800

Növbəti addımda layihənin səmərəliliyi göstəriciləri hesablanır. Fərz edək ki, diskont dərəcəsi (Rate) 10%-ə bərabər olduqda NPV = 1059, investisiyanın özünü ödəmə dövrü layihəyə vəsaitin ayrıldığı tarixdən etibarən 4 il müddəti əhatə edir. Bu zaman İRR = 33%.

$$NPV = \frac{-1600}{(1+0,1)^1} + \frac{300}{(1+0,1)^2} + \frac{800}{(1+0,1)^3} + \frac{800}{(1+0,1)^4} + \frac{1800}{(1+0,1)^5} = 1059$$

Sxem 2

**“layihəsiz” vəziyyət dinamikalı qəbul olunur**

| Göstəricilər | Dövrlər (illər) üzrə “layihəli” | | | | |
|---|---|---|---|---|---|
| | **1** | **2** | **3** | **4 və i.a.** | **N** |
| **I. GƏLİRLƏR** | | | | | |
| **1.1. Satışdan gəlir** | ... | ... | ... | ... | ... |
| **1.2. Qalıq dəyəri** | x | X | x | x | **1000** |
| **1.3. Sair** | ... | ... | ... | ... | ... |
| **Cəmi gəlirlər** | **1000** | **1600** | **2200** | **2200** | **3200** |
| **II. XƏRCLƏR** | | | | | |
| **2.1. Kapitallaşdırılan** | **1500** | X | x | x | x |
| **2.2. Cari** | ... | ... | ... | ... | ... |
| **2.3. Dövriyyə kapitalının artımı** | **100** | **100** | x | x | x |
| **2.4. Sair** | ... | ... | ... | ... | ... |
| **Cəmi xərclər** | **2400** | **1100** | **1200** | **1200** | **1200** |
| **“Layihəli” xalis gəlirlər** | **-1400** | **500** | **1000** | **1000** | **2000** |

| **I. GƏLİRLƏR** | | | | | |
|---|---|---|---|---|---|
| **1.1. Satışdan gəlir** | **...** | **...** | **...** | **...** | **...** |
| **1.2. Sair gəlir** | **...** | **...** | **...** | **...** | **...** |
| **Cəmi gəlirlər** | **1000** | **1100** | **1100** | **1000** | **900** |
| **II. XƏRCLƏR** | | | | | |
| **1.1. Cari** | **...** | **...** | **...** | **...** | **...** |
| **1.2. Sair xərclər** | **...** | **...** | **...** | **...** | **...** |
| **Cəmi xərclər** | **800** | **850** | **850** | **800** | **800** |
| **"Layihəsiz" xalis gəlirlər** | **200** | **250** | **250** | **200** | **100** |
| **Xalis gəlir artımları** | **-1600** | **250** | **750** | **800** | **1900** |

***Mənbə:*** Moskva Kənd Təsərrüfatı Akademiyasının rəsmi internet saytı - www.ftcntr.ru

**Şərti işarələr:**

... – göstəriciyə məxsus müəyyən dəqiq qiymət var, lakin misalın qısalığı üçün göstərilməmişdir;

x – göstəricinin qyməti bu dövrdə sıfıra bərabərdir (bir qayda olaraq).

Qeyd edək ki, 2-ci sxemdən istifadə zamanı 1.2, 2.1 və 2.3 göstəriciləri "layihəsiz" vəziyyətində, bir qayda olaraq, məna kəsb etmirlər. Bu səbəbdən cədvəldə "layihəsiz" vəziyyətin göstəriciləri "layihəli" vəziyyətin göstəricilərindən azdır.

Bu misalda "layihəli" vəziyyət 1-ci sxemdə olduğu kimi, "layihəsiz" vəziyyət isə dəyişkən göstərilib. Fərz edək ki, hər hansı bir səbəbdən ikinci və üçüncü dövrlərdə gəlir artımının xərclərin artımından artıq olması gözlənilir. Nəticədə həmin illərin xalis gəliri (+250) həm birinci, həm də dördüncü və növbəti illərin xalis gəlirini üstələyir (+200, +200, +100).

Müvafiq olaraq, xalis gəlir artımları dövrlər üzrə aşağıdakı kimi dəyişəcək:

1-ci – -1400 – 200 = -1600

2-ci – +500 – 250 = +250

3-cü – +1000 – 250 = +750

4-cü və i.a. +1000 – 200 = +800

Sonuncu –+2000 – 100 = + 1900

Belə olan halda, layihənin səmərəliliyi göstəriciləri bir az fərqli olur: NPV=1042 (diskont dərəcəsi (Rate) 10%-ə bərabər olduqda), İRR=33%, investisiyanın özünüödəmə müddəti layihənin başlanması tarixindən etibarən 4 ili əhatə edir.

Göstərilən misallarda (sxemlər 1 və 2) layihə "özü-özlüyündə" cəlbedici görünür, çünki onun həyata keçirilməsinin alternativlə (yəni pul vəsaitlərinin layihəyə deyil, sadəcə illik 10% "artmağa" yönəldilməsi) müqayisədə üstünlüyü aydın şəkildə müşahidə olunur. Layihəyə bərabər tutulan xalis gəlirlərin təhlil olunan bütün dövrlər üzrə artımı pul vəsaitlərinin həcminin hər il 33% artımını təmin edərdi (bax İRR).

Beləliklə, növbəti addımda aşağıdakı sual cavablandırılmalıdır: layihənin hər bir potensial iştirakçısının layihənin həyata keçirilməsinə çəkdiyi xərc nə qədərdir və o, nə qədər gəlir əldə etməlidir?Bu cür səmərəli layihənin hər bir iştirakçısı əmin olmalıdır ki, gəlir və xərclərin "ədalətli" bölüşdürülməsi zamanı onun da gəlirlərinin artımı layihədə iştrakından yaranan xərclərin artımını üstələyəcək.

### 1. Hər bir iştirakçı mövqeyindən layihənin səmərəliliyi

Sadə misaldan başlayaraq iştirakçıların sayının 1 nəfər götürək. Belə olan halda, əvvəlki misallarda verilən göstəricilər (məsələn, sxem 1) tam olaraq həmin tək iştirakçının maraqlarını əks etdirmiş olur. Onun üçün layihə maliyyə baxımından "xalis gəlir artımları" pul axını (cash flow) ilə nəticələnir.

Cədvəl 3

| Dövrlər | 1 | 2 | 3 | 4 və i.a. | N |
|---|---|---|---|---|---|
| **Xalis gəlir artımları** | **-1600** | **300** | **800** | **800** | **1800** |

***Mənbə:*** cədvəl müəlliflər tərəfindən tərtib olunmuşdur.

Göstəricilərdən məlum olur ki, layihənin həyata keçirilməsi üçün yalnız birinci il 1600 ş.v. mövcudluğu zəruridir (öz vəsaiti, borc vəsaiti). Növbəti illərdə layihə "layihəsiz" dövrlə müqayisədə daha artıq xalis gəlir gətirəcəkdir (+300, +800 və i.a.).

Fərz edək ki, layihənin maliyyələşdirilməsi üçün iki mənbə mövcuddur.Birinci mənbə zəruri vəsaitin 75%-ni , yəni 1200-ü təmin edir.

İkinci mənbə birinci ildə çatışmayan 25%-ni (400) və əlavə olaraq 340-ıtəmin edir.

Cədvəl 4

| **Vəsaitlərin daxilolması** | **1** | **2** |
|---|---|---|
| **Birinci mənbə** | **1200** | |
| **İkinci mənbə** | **400** | **340** |

***Mənbə:*** cədvəl müəlliflər tərəfindən tərtib olunmuşdur.

Bu zaman, birinci mənbədən daxil olan vəsaitlər üç il ərzində qaytarılmalı, ikinci mənbədən isə vəsaitlər əvəzsiz olaraq daxil olur.

Cədvəl 5

| **Vəsaitlərin qaytarılması** | **1** | **2** | **3** | **4** |
|---|---|---|---|---|
| **Birinci mənbə** | **-** | **400** | **400** | **400** |
| **İkinci mənbə** | **-** | **-** | **-** | **-** |

***Mənbə:*** Cədvəl müəlliflər tərəfindən tərtib olunmuşdur.

Bununla yanaşı, birinci mənbədən pul vəsaitlərinin cəlb edildiyi üçün, hər il qalıq borcun 20%-i məbləğində ödənişlər edilməlidir.

Cədvəl 6

| **Faiz ödənişi** | **1** | **2** | **3** | **4** |
|---|---|---|---|---|
| **Birinci mənbə** | **-** | **240** | **160** | **80** |
| **İkinci mənbə** | **-** | **-** | **-** | **-** |

***Mənbə:*** Cədvəl müəlliflər tərəfindən tərtib olunmuşdur.

Nəticədə iştirakçı və qeyd olunan maliyyələşmə mənbələri münasibətindən "xalis maliyyələşmə" (Net Financing) pul axını yaranır.

Cədvəl 7

| **Dövrlər** | **1** | **2** | **3** | **4** |
|---|---|---|---|---|
| **"Xalis maliyyələşmə"** | **+1600** | **-300** | **-560** | **-480** |

***Mənbə:*** Cədvəl müəlliflər tərəfindən tərtib olunmuşdur.

Növbəti addımda layihədən yaranan səmərə (maliyyələşmə mənbəyinin araşdırılmasından əvvəlki və ya **"maliyyələşmədən əvvəlki" Xalis Gəlir artımları**) ilə **"Xalis maliyyələşmə"** axınını toplamaqla, **"maliyyələşmədən sonrakı" Xalis Gəlir artımlarını** əldə etmiş oluruq.

Cədvəl 8

| **Dövrlər** | **1** | **2** | **3** | **4 və i.a.** | **N** |
|---|---|---|---|---|---|
| **Xalis gəlir artımları** | **0** | **0** | **+240** | **+320** | **+1800** |

***Mənbə:*** Cədvəl müəlliflər tərəfindən tərtib olunmuşdur.

Beləliklə, verilən maliyyələşmə sxemindəki layihənin dövrlərinin heç birində "layihəsiz" dövrlə müqayisədəxalis gəlirlər azalmırvə nəticədə gəlirin bir hissəsinin sərəncamında qalan (+240, +320, +1800) iştirakçı üçün bu layihə cəlbedici olaraq qalır.

Şübhəsiz bu pul vəsaitlərinin axını üçün NPV-nin qiymətini hesablamaq mümkündür:

$$\textbf{Rate} = 10\%;\ NPV = \frac{240}{(1+0{,}1)^3} + \frac{320}{(1+0{,}1)^4} + \frac{1800}{(1+0{,}1)^5}$$
$$= 1517$$

Qeyd edək ki, İRR göstəricisinin bu vəziyyətdə hesablanması məna kəsb etmir (pul axınında bütün ədədlər müsbətdir və ya sıfıra bərabərdir – "Rate"nin hər bir qiymətində NPV sıfırdan yüksək olacaq). Həmçinin bu vəziyyətdə iştirakçının öz vəsaitlərinin cəlb edilməsinə ehtiyac yaranmadığı üçün, iştirakçı mövqeyindən investsiyanın geri ödənilməsi müddəti müzakirə olunmamalıdır –heç bir dövrdə "layihəli" xalis gəlirlər "layihəsiz"vəziyyətdəki xalis gəlirlərdən az deyil.

Analoji hesablamaları layihənin hər bir iştirakçısı üçün təkrarlayaraq, əvvəl müəyyən etmək lazımdır ki, həmin iştirakçıya aid altlayihə "ümumilikdə" səmərəlidirmi? Sonra isə qiymətləndirmək lazımdır ki, o, təklif olunan maliyyələşdirmə sxemində səmərəlilyini saxlayırmı? Əgər bu, belədirsə, onda layihənin maliyyə baxımından reallaşdırılmasının mümkünlüyünü yoxlamaq lazımdır.

**2. Layihənin maliyyə baxımından reallaşdırılmasının mümkünlüyü**

Layihənin maliyyə baxımından reallaşdırılmasının mümkünlüyü barədə mülahizələr irəli sürülən zaman istifadə edilən meyarlardan biri “yığılan saldo”dur. Həmin meyarın istifadəsini əvvəlki misal üzərində araşdıraq.

Əvvəldə araşdırılan sistemdə göstərildiyi kimi, layihə maliyyələşmə ilə birləşəndə iştirakçıya müsbət səmərə gətirir (NPV>0). Bundan başqa, məlum oldu ki, layihənin maliyyə baxımından reallaşdırılması mümkündür, yəni onun həyata keçirilməsi üçün əlavə vəsait axtarmağa ehtyac yoxdur. Layihə ilə əlaqəli pul vəsaitlərinin daxilolmaları və xaricolmalarının saldosu layihənin “ömrü boyunca” müsbət olaraq qalır.

Lakin yaddan çıxartmaq olmaz ki, ardıcıl şəkildə iki il çatışmayan vəsaitlər maliyyələşməyə əvəzsiz cəlb edilən ikinci mənbə hesabına ödənilir. İkinci mənbə olmasaydı, nəticələr aşağıdakı kimi təsvir olunardı:

Cədvəl 9

| Dövrlər | 1 | 2 | 3 | 4 və i.a. | N |
|---|---|---|---|---|---|
| **Xalis gəlir artımları (maliyyələşmədən əvvəl)** | **-1600** | **300** | **800** | **800** | **1800** |
| **Vəsaitlərin daxilolması** | **1200** | **-** | **-** | **-** | **-** |
| **Vəsaitlərin qaytarılması və faiz ödənişi** | **-** | **640** | **560** | **480** | **-** |
| **Xalis gəlir artımları (maliyyələşmədən sonra)** | **-400** | **-340** | **+240** | **+320** | **+1800** |

***Mənbə:*** Moskva Kənd Təsərrüfatı Akademiyasının rəsmi internet saytı - www.ftcntr.ru

Fərz edək ki, belə şərtlərdə də iştirakçı layihəni səmərəli hesab edir (NPV=872>0, İRR =44%). Lakin o, layihəni həyata keçirə biləcəkmi?

Layihənin həyata keçirilməsinə başlanan dövrdə, maliyyə vəziyyətinin maliyyələşmədən əvvəlki dövrə nisbətdə pisləşməsi hesabına da olsa, hər hansı bir imkandan istifadə edərək layihəyə 400 şərti vahid məbləğində qoyuluş edilməlidir. Eynilə ikinci ildə iştirakçının maliyyələşmədən əvvəlki dövrə nisbətdə 340 şərti vahid məbləğində artıq xərc çəkməsi qaçılmazdır. Gələcəkdə həmin mənfi “xalis gəlir artımları” mütləq kompensasiya olunacaq. Əks halda layihə baş tutmayacaq.

Hazırkı vəziyyətdə layihənin başlanğıc tarixinə müəssisənin ən azı 740 pul vahidində öz vəsatləri (“yığılmış saldosu”) olmalıdır. Belə olan halda,

layihənin həyata keçirilməsinin əvvəl birinci və sonra ikinci ili "yığılmış saldosu" azalacaq, lakin mənfi qiymət almayacaq:

birinci ilin sonuna - 740 – 400 = 340 ş.v.

ikinci ilin sonuna – 340 -340 = 0

üçüncü ilin sonuna – 0 + 240 = 240

sonra 240 + 320 = 560

560 + 1800 = 2360 ş.v.

Layihənin həyata keçirilməsinin səfərbər edilməsi üçün müəssisənin göstərilən məbləğdə ehtiyat vəsaiti yoxdursa, layihənin maliyyə baxımından reallaşdırılması mümkünsüzdür – pul vəsaitinin çatışmamazlığı.

Qeyd etmək lazımdır ki, praktikada belə sadə hesablamalar kifayət etmir. Müəssisəyə maliyyə vəsaiti layihəyə uyğun olaraq mərhələlərlə ehtiyac duyulduğundan, əlavə vəsaiti başlanğıcda toplamağa zərurət yoxdur. Nəticədə müvəqqəti istifadəsiz qalmış pulları faiz gəliri gətirməsi üçün depozitə qoymaq olar. Onda ikinci il ödəniş tarixinədəkəvvəlcədən ora daha az məbləğ qoymaqla, lazım olan məbləği hesabdan çıxarmaq olar.

Digər tərəfdən təbii hal kimi kredit verən təşkilat öz risklərini azaltmağa çalışacaq. Bu səbəbdən borc götürənin özünün yetərincə vəsait ehtiyatlarının olmaması və yığılmış ehtiyatların saldosunun ikinci ilin sonuna gözlənilən sıfır qiyməti çox təhlükəlidir. Yığılmış ehtiyatın mənfi saldoya çevrilməsinin, yəni layihənin istənilən əlverişsiz şəraitdə yerinə yetirilməsi üçün vəsait çatışmamazlığı ehtimalı yüksəkdir.

Bu səbəbdən yığılmış ehtiyatın mənfi olmaması şərtinə əsas tələb kimi deyil, minimal tələb kimi baxılmalı, və potensial iştirakçının maliyyə vəziyyəti ətraflı öyrənilməli və layihənin "ömrü boyunca" bu vəziyyətin dəyişkənliyi izlənilməlidir.

**3. Layihə iştirakçısının maliyyə vəziyyəti**

Layihəni həyata keçirmək üçün borc götürən müəssisənin maliyyə vəziyyətinin standart təhlili rəsmi maliyyə hesabatları əsasında aparılır:

- Maliyyə vəziyyəti haqqında hesabat (bir neçə dövr üzrə);
- Maliyyə nəticələri haqqında hesabat (bir neçə dövr üzrə);
- Fondların hərəkəti haqqında hesabat (bir neçə dövr üzrə).

Bunlar əsasında aşağıdakı təhlil və hesablamalar aparılır:

- hesabatların şaquli təhlili (aktiv, kapital və öhdəliklərin, habelə mənfəətin bölüşdürülməsinin strukturlarının təhlili);

• hesabatların üfüqi təhlili (dinamikanın təhlili, mövcud inflyasiyaya uyğun düzəlişlər nəzərə alınmaqla);

• maliyyə əmsallarının hesablanması (ödəmə qabiliyyəti, likvidliyi, fondların dövrüliyi və s.)

Hazırkı tarixə olan vəziyyətin hesablamaları ilə iş bitmir. Layihənin həyata keçirilməsindən yaranan pul axınının layihənin “ömrü boyunca” hər dövr üzrə gözlənilən maliyyə vəziyyətinə təsirini izləmək də vacibdir.

Maliyyə vəziyyətinin proqnozunun ümumi sxeminə aşağıdakılar aiddir:

• Layihənin başlangıc tarixinə maliyyə hesabatları sənədləri ilkin vəziyyətin təsviri kimi qəbul olunur;

• növbəti addımlarda layihə ilə planlaşdırılan əməliyyatlara balansın bu və ya digər mövqeyinin dəyişikliyi kimi baxılır; bundan başqa pul vəsaitlərinin bütün hərəkətləri nəzərə alınır;

• nəticədə maliyyə vəziyyətinin proqnoz göstəriciləri müəyyən edilir.

Məsələn, fərz edək ki, layihənin başlanğıcında müəssisədə 10000 pul vahidində əsas vəsaitləri mövcuddur; layihəyə əsasən aparılan tikinti-quraşdırma işlərinin (TQİ) dəyəri 5000 pul vahidi təşkil edir. Tikinti müddətində öncə mövcud olan əsas vəsaitlərin amortizasiyası 200 pul vahidinə bərabər olacaq. Beləliklə, tikintinin gözlənilən sonu tarixinə əsas vəsaitlərin maliyyə vəziyyəti haqqında hesabatda göstərilməli olan dəyəri 14800 pul vahidinə bərabər olacaqdır:

Cədvəl 10

| **Layihənin başlanğıcında** | **Aparılan tikinti-quraşdırma işləri (TQİ) ərzində dəyişiklik** | | **Layihənin sonunda** |
|---|---|---|---|
| **Əsas fondların dəyəri** | **Layihəyə əsasən (TQİ) dəyəri** | **Əsas fondların amortizasiyası** | **Əsas fondların dəyəri** |
| **10000** | **+ 5000** | **- 200** | **14800** |

***Mənbə:*** Moskva Kənd Təsərrüfatı Akademiyasının rəsmi internet saytı - www.ftcntr.ru

Layihə iştirakçısının maliyyə vəziyyətinin təhlili zamanı yalnız onun iştirakı ilə bağlı deyil, bütün pul vəsaitlərinin axını təhlil olunmalıdır. Məsələn, əgər müəssisənin müvafiq fəaliyyəti layihə həyata keçirilməzdən əvvəl səmərəli idisə və layihə nəticəsində onların rentabelliyinin artacağı gözlənilirsə, bu hələ o deməkdeyil ki, şirkət bu işi reallaşdırmağı

bacaracaq. Ola bilər ki, müəssisənin bəzi şöbələri zərərlə işləyir və layihənin həyata keçirilməsi ilə də bu zərər ödənilməyəcək. Məlumdur ki, iflasın astanasında duran müəssisəyə borc vermək investor üçün çox riskli tədbirdir.

Bu səbəbdən, layihənin səmərəliliyi ilə müəssisənin səmərəliliyini mütləq fərqləndirmək lazımdır. Bundan əlavə yadda saxlamaq lazımdır ki, bəzi hadisələrin bu iki qrup göstəricilərə təsiri fərqli ola bilər. Məsələn, yanacağın və elektrik enerjisinin qiyməti nə qədər çox olarsa, bir o qədər də enerjiqənaətliliyinə yönəldilən layihənin səmərəliliyi yüksək olacaq. Əksinə, elektrik enerjisi və yanacaq-sürtkü yağları istifadə edən hər bir müəssisə üçün belə qiymət artımı xərclərin artımı və müvafiq olaraq rentabelliyin azalması ilə nəticələnəcək.

İndi artıq xərc və gəlir maddələrini yada salmaq vaxtıdır: vergilər, borcların qaytarılması və faiz ödənişləri, amortizasiya.

Amortizasiyanın maya dəyərinin tərkibinə daxil edilməsinə baxmayaraq o, məsrəf sayılmır. Layihələrin səmərəliliyinin təhlili zamanı amortizasiya ayırmaları hesablamalardan çıxarılır. Lakin layihəni həyata keçirən müəssisənin maliyyə vəziyyətinin təhlili zamanı amortizasiya ayırmalarını investisiya mənbəyi kimi, o cümlədən layihənin həyata keçirilməsi üçün götürülən borcların ödənilməsi istiqamətində istifadə oluna biləcək maliyyə mənbəyi kimi nəzərə almaq lazımdır.

Maliyyə vəziyyətinin təhlili zamanı qüvvədə olan vergitutma qaydaları da nəzərə alınmalıdır. Layihənin reallaşdırılması boyu əksər vergilər üzrə vergi məbləğini hesablamaq üçün vergitutma bazası dəyişir. Buna səbəb layihənin həyata keçirilməsi dinamikası və borcun idarəedilməsi olur. Xalis gəlirlərdən vergi ödənişləri üçün ayırmaların edilməsi borcun idarəedilməsi üzrə vəsait çatışmazlığına səbəb ola bilər və bu dəqiqləşdirilmiş ödəniş qrafikinin hazırlanması zamanı nəzərə alınmalıdır.

Ayrılıqda yetərincə səmərəli görünən layihə, maliyyə bazarında yaranan bəzi şəraitlərdə nəinki reallaşdırılması mümkün olmayan, hətta qeyri-səmərəli ola bilər, yəni həm borc götürən, həm də potensial kreditorlar üçün pulun artırılmasının alternativ imkanları ilə müqayisədə daha az səmərəli ola bilər. Məhz, bu səbəbdən səmərəliliyin təhlilinin "layihədən əvvəl" və "layihədən sonra" mərhələlərinə ayrılması tövsiyə olunur. Eyni layihəyə müxtəlif maliyyələşmə və borcun idarəedilməsi sxemləri tətbiq oluna bilər. Bu zaman, əgər layihə əvvəlcədən xalis gəlirlərin əhəmiyyətli

artımını vəd edirsə (İRR və NPV-nin yüksək səviyyəsi), onda belə layihədə investorların iştirakı, xalis gəlirlərin bu artımının iştirakçılar arasında bölüşdürülməsi nisbətləri barədə danışıqların predmetindən söhbət gedə bilər.

Məlum olduğu kimi, qüvvədə olan qanunvericilikdə borclar üzrə faizlərin ödənilməsi prosesi ilə vergitutma qaydaları arasında çox mürəkkəb qarşılıqlı əlaqələr nəzərdə tutulur. Faizlərin ödənişləri qismən və ya tam məbləğdə maya dəyərinə aid edilə bilər. Ödənişlərin qalan hissəsi mənfəət hesabına aparılır. Beləliklə, maliyyələşmə sxemini və borcların idarə edilməsini təhlil edən zaman bu qaydaların müəssisənin maliyyə vəziyyətinə qarşılıqlı təsirini müşahidə etmək lazımdır.

Təhlil zamanı əsas məqamlardan biridə layihənin inkişafı dinamikasının, habelə layihəyə müxtəlif komponentlərin, və iştirakçıların qoşulması dinamikasının uçotudur. Bu zaman nəzərdə saxlamaq lazımdır ki, hər bir "altlayihə"nin öz inkişaf dinamikası mövcuddur. Beləliklə, dinamikalı iki prosesin qarşılıqlı əlaqələsi yaranır ki, onun da izlənilməsi zəruridir:

**1. Ayrıca altlayihənin layihə gücünə çıxarılması dinamikası**

+

**2. Altlayihələrin ümumi layihəyə qoşulması dinamikası**

=

**Layihənin ümumi inkişaf dinamikası (yekun pul vəsaitləri axını)**

Bu məqsədlər üçün istifadə olunan üsula fazalaşdırma deyilir.

Bu cür qarşılıqlı əlaqələrin uçotu maliyyələşdirmə aparan təşkilatlar üçün (məsələn, bir müştəridən vəsait daxilolmasını digərinə verilməsi üçün istifadə edən banklar üçün), həmçinin müvafiq büdcəyə malik olmaqla, onun yığılmasına və istifadəsinə məsuliyyətli olan inzibati orqanlar üçün xüsusilə vacibdir.

**4. Layihənin həyata keçirilməsi şərtlərində mümkün dəyişikliklərin təsirinin təhlili**

Layihənin həyata keçirilməsi şərtlərində mümkün dəyişikliklərə həssaslığın təhlil edilməsi də mühüm məsələlərdən biridir. Risklərin təhlili zamanı mərhələlərlə aşağıdakıların tədqiqatı aparılmalıdır:

- hansı parametrlərin dəyişikliyi layihənin səmərəliliyinə və reallaşdırılmasının mümkünlüyünə nəzərə çarpacaq təsir edir?
- parametrlərin qiymətlərinin hansı nöqtəsində layihə alternativlərlə müqayisədə cəlb ediciliyini itirir?
- müxtəlif göstərici dəyişiklikləri birlikdə layihəyə necə təsir edir?
- layihənin həyata keçirilməsindən mənfi nəticə əldə edilməsinin ehtimalı nə qədərdir?

Bu suallar araşdırılmamış layihənin təhlili yekunlaşmış hesab edilə bilməz. Çünki həmin hadisələrin təhlili "baza ssenarisi" əsasında aparıldığındanhesablamaların əsaslandığı baza parametrlərdən birinin qiymətinin dəyişilməsi ilənəyin dəyişəcəyini əvvəlcədən söyləmək çətindir .

Qeyd edək ki, bazis qiymətlər əsasında aparılmış təhlili proqnoz qiymətlər əsasında aparılan hesablamalar ilə tamamlanması tövsiyə olunur. Bu üsulun köməyi ilə "qiymətlərin dəyişməsi dinamikası və qiymətlərin ümumi artım səviyyəsi proqnozda göstərilən kimi olduqda səmərəlilik göstəriciləri hansı qymətləri alır?" sualının cavabı tapılmış olur.

**Xülasə**

Aparılan araşdırmaları yekunlaşdırmazdan əvvəl bir daha yada salmaq lazımdır ki, layihəmüxtəlif aspektlərdən təhlilolunur və yanaşmaların ayrılıqda heç birinə üstünlük verilmir. Maliyyə təhlili onlardan yalnız biridir. Onun nəticəsində heç də bütün "gizli məqamları" aşkarlamaq olmur və layihə bir çox gözlənilməyən səbəbdən uğursuzluğa uğraya bilər.

Eyni zamanda maliyyə təhlili müəyyən dərəcədə inteqrasiyaedici rol oynayır. Belə ki, sosial, ekoloji və ya institusional təhlil nəticəsində hər hansı bir tədbirin (maddi stimullarşdırma, çirkləndirmə ilə mübarizə, kvalifikasyanın artırılması və s.) həyata keçirilməsi zərurəti aşkarlandığı halda, maliyyə təhlilində bu tədbirlərə görə əvvəl hesablanmış xərclərin (və ya gəlirlərin) siyahısına əlavələr edilir. Yekunda maliyyə səmərəliliyinin və reallaşdırılmasının, iştirakçıların maliyyə vəziyyətinin yeni, real vəziyyətini daha aydın əks etdirən göstəriciləri hesablanır.

Bundan başqa, öncədən müsbət maliyyə effekti vəd etməyən səhiyyə, təhsil, mədəniyyət və s. sahələrə aid layihələr, habelə öncədən zərərlə başa gələcəyi məlum olan, lakin digər səmərəli layihələrin həyata keçirilməsi üçün vacib olan layihələr maliyyə baxımından qiymətləndirilməlidir ki, onların reallaşdırılmasına çəkiləcək məsrəflər müəyyən edilsin.

Yadda saxlamaq lazımdır ki, layihənin idarəedilməsi, yəni onun həyata keçirilməsi boyunca mütəmadi təkrar maliyyə təhlili aparılmalıdır.

**Maliyyə təhlilinin ümumi sxemi**

- layihənin səmərəliliyinin qiymətləndirilməsi (ayrılıqda);
- hər iştirakçıya münasibətdə altlayihələrin qiymətləndirilməsi (“maliyyələşməyə qədər”);
- maliyyələşmə sxeminin müəyyən edilməsi (ilkin variant);
- hər iştirakçıya münasibətdə altlayihələrin qiymətləndirilməsi (“maliyyələşmədən sonra”);
- hər iştirakçıya münasibətdə vergitutmanın uçotu (layihə ilə əlaqəli və əlaqəsi olmayan, xalis gəlirlərdən asılı olan və olmayan);
- vergitutma qaydalıarı nəzərə alınmaqla maliyyələşmə sxeminin müəyyən edilməsi (amortasiyanı maliyyə mənbəyi kimi nəzərə almaqla)
- hər iştirakçıya münasibətdə altlayihələrin qiymətləndirilməsi (“maliyyələşmədən sonra” və “vergitutmadan sonra”)
- layihə iştirakçılarının maliyyə vəziyyətinin və layihənin maliyyə baxımından reallaşdırılmasının mümkünlüyünün qiymətləndirilməsi (sənədlərin təqdim edilməsi tarixinə və layihənin həyata keçirilməsi boyunca).

Növbəti addımda iqtisadi təhlil aparılmalı və büdcə səmərəliliyi göstəriciləri hesablanmalıdır.

# 6 NÜMUNƏVİ SUBVENSİYA LAYİHƏLƏRİNİN İQTİSADİ – MALİYYƏ ƏSASLANDIRILMASI ÜZRƏ PRAKTİKİ MİSALLAR

**“Kənd təsərrüfatı məhsullarının tədarükü üzrə vasitəçilik xidməti”layihəsi**



Bu hissədə VI bölmədə yazılmış kənd təsərrüfatı, ekologiya və iqtisadi sahələr üzrə layihələrin iqtisadi-maliyyə əsaslandırılmasını nəzərdən keçirək.

**Layihənin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi**

Nümunəmizə uyğun olaraq kənd təsərrüfatı məhsulu kimi nar meyvəsini, bələdiyyə kimi isə A rayonu üzrə B bələdiyyəsini götürək.

Nar respublikamızın kənd təsərrüfatında istehsal olunan məhsullar arasında ən perspektivli ixrac potensialına malik məhsullardan biridir. Nar və ondan hazırlanmış məhsulların ilin bütün fəsillərində istənilən xarici bazarda real alıcısı var. Odur ki, bir neçə ildir respublikamızdakı nar emalı müəssisələri və bu işlə məşğul olan sahibkarların məlumatlandırılması, onların xarici bazarlara çıxış imkanlarının artırılması, eləcə də, nar məhsullarının istehsalında və ixracında beynəlxalq tələblər və standartlar mövzusunda dəstəklənməsi siyasəti aparılır.

Lakin bir sıra kəndli fermer təsərrüfatları, habelə ev təsərrüfatları öz məhsullarını hələ də dəyər-dəyməzinə xarici bazarlara məhsul göndərən iş adamlarına satırlarvə bununla da həm öz şəxsi büdcələrinə ziyan vurur, həm də ümumdaxili məhsulun artırılmasının qarşısını alırlar.

Beləliklə, layihəyə uyğun olaraq hesab edək ki, U və T kəndləri üzrə 80 ailə öz 50 ha torpaqyanı sahəsindən yığılan 500 ton məhsulunu

vasitəçilərə satır (Nəzərə alsaq ki, bir hektar əraziyə əkilən tinglərin sayı 400 ədəd, ondan alınan məhsulun həcmi 15 ton olur).

Layihənin reallaşması baş tutarsa, ÜDM-nin dinamikasında artım baş verər. Bu artımda Birbaşa makroiqtisadi effektin **(BME)** göstəriciləri illər üzrə aşağıdakı kimi olacaq:

Birinci il. BME (1) = ÜDM (1) = ƏFİ (1) + D(1) – P1 = 335 500 = 35 500 + 300 000 – 0

İkinci il. BME (2) = ÜDM (2) = ƏFİ (2) + D(2) – P2 = 300 000 = 0 + 300 000 – 0

**Qeyd.** Payız mövsümündə narın qiyməti bazarda 50 qəpiklə -1 manat 50 qəpik arasında dəyişir. Kəndliləri stimullaşdırmaq üçün məhsulun onlardan, yığılmasına və daşınmasına kömək etməklə, 50 qəpikdən almaq olar.

**Layihənin maliyyə səmərəliliyinin qiymətləndirilməsi.**

**Layihə üzrə gəlir – 35 500 manat.**

**Layihənin həyata keçirilməsi üzrə xərclər:**

- ✓ 500 ton narın ağaclardan qaydaya uyğun olaraq toplanması, çeşidlənərək yeşiklərə səliqə ilə yığılması, yük maşınlarına doldurulub-boşaldılması üçün hər il mövsumi olaraq cəlb edilən işçilərin əməkhaqqı xərcləri –30 000 manat;

**Qeyd.**Nar yığımı oktyabr-noyabr aylarında 40-45 gün ərzində həyata keçirilir.Növlərinə uygun olaraq nar tədricən yığılır. Yığılarkən meyvəni ağacdan qoparmaq yox, xüsusi qayçılar vasitəsilə saplağından bir neçə santimetr hündürlükdə kəsmək lazımdır. Belə olduqda narın əmtəə görünüşü qorunur və onu uzun müddət saxlamaq mümkün olur.

- ✓ Layihə əsasında yaradılan müəssisənin 3 nəfər idarəetmə işçilərinin və 1 nəfər sürücüsünün oktyabr-noyabr ayları üzrə əməkhaqqı xərcləri – 2500 manat;
- ✓ Dövlət Sosial Müdafiə Fondu ödəmələri – 550 manat;
- ✓ Yük maşınının icarəsi üzrə 2 aylıq xərclər –1000 manat;
- ✓ Digər xərclər – 1450 manat;

Layihənin həyata keçirilməsi üzrə cəmi xərclər- 35 500 manat.

**Layihədə nəzərdə tutulan təsərrüfat proqramının həyata keçirilməsindən gəlir - 300 000 manat(500 ton nar @ 60 qəpik).**

**Qeyd.** Narın satışını təmin etmək üçün rayonlarda fəaliyyət göstərən soyuducu anbar kompleksləri, nar emalı zavodlarıilə əvvəlcədən müqavilələrin bağlanılması nəzərdə tutulur.

**Layihədə nəzərdə tutulan təsərrüfat proqramının həyata keçirilməsi üzrə xəclər:**

Kəndlilərdən narın alışı-250 000 manat (500 ton nar @ 50 qəpik);

Amortizasiya xərcləri - 2800 manat (70000 @ 24% @ 2 ay);

Mənfəət vergisi - 9440 manat;

Birinci ilin xalis pul artımı 40 560 manat.

**Növbəti il:**

**Layihədə nəzərdə tutulan təsərrüfat proqramının həyata keçirilməsindən əldə olunan gəlir - 300 000 manat(500 ton nar @ 60 qəpik).**

**Layihədə nəzərdə tutulan təsərrüfat proqramının həyata keçirilməsi üzrə xəclər:**

- ✓ Kəndlilərdən narın alışı-250 000 manat (500 ton nar @ 50 qəpik);
- ✓ Amortizasiya xərcləri - 2688 manat (67200 @ 24% @ 2 ay);
- ✓ 500 ton narın ağaclardan qaydaya uyğun olaraq toplanması, çeşidlənərək yeşiklərə səliqə ilə yığılması, yük maşınlarına doldurulub-boşaldılması üçün hər il mövsumi olaraq cəlb edilən işçilərin əməkhaqqı xərcləri – 30 000 manat;
- ✓ Layihə əsasında yaradılan müəssisənin 3 nəfər idarəetmə işçilərinin və 1 nəfər sürücüsünün oktyabr-noyabr ayları üzrə əməkhaqqı xərcləri – 2500 manat;
- ✓ Dövlət Sosial Müdafiə Fondu ödəmələri – 550 manat;
- ✓ Yük maşınının icarəsi üzrə 2 aylıq xərclər – 1000 manat;
- ✓ Digər xərclər – 450 manat;
- ✓ Mənfəət vergisi - 2562 manat;

Növbəti ilin xalis pul artımı 12 938 manat.

Göründüyü kimi, pul axınında bütün ədədlər müsbətdir və «Rate»nin hər bir qiymətində Xalis cari (diskontlaşdırılmış)dəyər (NPV)göstəricisinin qiyməti sıfırdan yüksək olacaq. Daxili gəlirlik dərəcəsinin (İRR) bu situasiyada hesablanması məna kəsb etmir.

Layihə bir mənalı olaraq həm iqtisadi, həm də maliyyə baxımından səmərəlidir.

**“Ətraf mühiti qoruyaq”layihəsi**

Təklif olunan layihə Girdiman çayının bölgədən keçən təqribən 2 km uzunluğunda hissəsində təmizlik işlərinin aparılmasını, o cümlədən çay hövzəsinin və çay kənarlarının məişət tullantılarından, habelə sel sularının gətirdiyi zibillərdən təmizlənməsini, yaşıllıqların salınmasını, damcılı suvarma sisteminin quraşdırmasını və sonda ictimai istirahət məkanının salınmasını nəzərdə tutur. Adı çəkilən işlərin üç bələdiyyənin birgə qüvvəsi ilə və “Təbiəti qoruyaq”, “Hərəyə bir ağac” və bu kimi digər şüarlar altında aksiyalar təşkil edilərək, yerli əhalidə olan könüllülərin köməyi iləgörülməsi nəzərdə tutulur. Eyni zamanda məktəbli və gənclər aksiyaya qoşulmağa sövq ediləcəkdir. Güman edilir ki, aksiya iştirakçıları öz əkdikləri ağaclara daha böyük qayğı ilə yanaşarlar.

Ağacların əkilməsi üçün yerlərin (quyuların) hazırlanmasını



əvvəlcədən həyata keçirirlər. Əkin quyularının ölçüsü əkiləcək bitkilərin ölçülərindən, onların növündən və torpağın vəziyyətindən asılı olacaqdır. Münbit olmayan vəya ağır torpaqlarda quyuların kök sisteminin inkişaf şərtlərinin təmin etmək üçün yaxşı qazmaq lazımdır. Eyni məqsədlə bu cür süxurlarda quyularda torpağın tam dəyişdirilməsi məqsədyönlüdür. Yeni tökülən torpağın tərkibi yumşaq olmalı, münbit olmalı, bunun üçün qaratorpaq, torf, mineral kübrələr əlavə olunmaqla qum qatışığı istifadə edirlər. Tingləri əkməmişdən əvvəl qablaşdırmadan çıxarırlar, konteyner bitkilərini qısa bir vaxta su dolu qaba qoyurlar və ya komun su ilə tam doymasına qədər su ilə suvarırlar. Bitkini quyuya qoyduqdan sonra imkan dairəsində köklərini açırlar və bitki torpağı ilə örtürlər, lay-lay sıxlaşdırırlar. Bu zaman tingin kök başının vəziyyətinə nəzarət edirlər, onun dərinə düşməsinə imkan vermirlər. Ənənəvi olaraq ağacların və kolluqların əkilməsini yazda və payızda həyata keçirirlər. Yerli tingliklərdən əkin materialı çılpaqlanmış kök sistemi və ya torpaq komu ilə satılır, bunun üçün əkin müddətləri çox aşağıdır.

Çılpaqlanmış kök sistemi ilə bitkilər üçün apreldən mayın sonuna qədər və ya sentyabrın ortasından noyabra qədər 2-3 həftə qulluq göstərilir. Tinglikdən bitki çıxarıldıqdan sonra komun tam olmasına diqqət yetirmək lazımdır, bunun üçün onu torbaya, nazik təbəqəyə və ya kağıza qoyurlar. Konteynerdəki ağac və kolluqların əkilməsi apreldən noyabra kimi bütün vegetasiya dövründə həyata keçirilir. Onlar nəqletmədə, əkilmədə və saxlamada rahatdır.

Bağa ağıllı və vaxtında edilmiş qulluq onun gözəlliyinin və uğurunun əsasıdır, bitkilərin normal inkişafının və böyüməsinin təminatıdır. Erkən yazdan başlayaraq və son baharla başa çataraq bağ daimi diqqət və qayğı tələb edir. Qulluq işlərini bağ formalaşmamışdan əvvəl təşkil etmək daha düzgün olardı. Yaşıllaşmanın ən yayılmış səhvi – tez dekorativ effektə nail olmaq məqsədindən irəli gələn əkinin yüksək sıxlığı ilə ağac və kolluq qruplarının yaradılmasıdır. Gələcəkdə bu nəinki bitkilərin böyüməsinə, inkişafına və ümumi görünüşünə təsir edir, həmçinin onlara qulluğun rahatlığına təsir göstərir. Bağa qulluq üzrə işlər sonuncunun sahiblərindən vaxt, güc və ya vəsait tələb edəcək. Bu imkanları real qiymətləndirərək qulluq tələb etməyən, yetişdirmə şəraitinə görə tələbkar olmayan ağac növləri seçirlər.

Məsələn, 20 sm ara məsafədə əkilmiş söyüd ağacları iki ildən sonra sıx yaşıl “divar”a çevrilə bilir. Bundan başqa, böyük ağaclardan kəsilmiş qələmlər çoxaldılması üçün tam yararlıdır və növbəti illərdə tinglərə əlavə xərc çəkməyə lüzum yoxdur.

Cədvəl 11

**Maliyyə əsaslandırılması**

| | 1-ci il | 2-ci il | 3-cü il | 4-cü il |
|---|---|---|---|---|
| **Gəlir** | **51000** | **6300** | **6300** | **6300** |
| **Subvensiya** | **50000** | | | |
| **Bələdiyyə** | **1000** | | | |
| **yerli əhalidən çaydan istifadəyə görə kiçik ödəmələr** | | **1500** | **1500** | **1500** |
| **Kafelərdən** | | **4800** | **4800** | **4800** |
| **Xərc** | **51000** | **48076** | **48076** | **48076** |

| | | | | |
|---|---|---|---|---|
| **Söyüd tinglərinin alınması** | **2000** | **-** | **-** | **-** |
| **Çinar tinglərinin alınması** | **400** | **-** | **-** | **-** |
| **Tut tinglərinin alınması** | **1500** | **1200** | **1200** | **1200** |
| **Qaratorpaq, torf, mineral kübrələrin alınması, daşınması** | **5000** | **19200** | **19200** | **19200** |
| **Əmək alətlərinin, xüsusi geyimlərin alınması** | **5000** | **7200** | **7200** | **7200** |
| **Suvarma sisteminin quraşdırılması** | **20000** | | | |
| **Dövlət Sosial Müdafiə Fonduna ödəmələr** | **2376** | **5808** | **5808** | **5808** |
| **Mühafizəçilərin illik əməkhaqqı** | **10800** | **900** | **900** | **900** |
| **Digər xərclər** | **3924** | **1000** | **1000** | **1000** |
| **Xalis gəlir artımı** | **0** | **2924** | **2924** | **2924** |

***Mənbə:*** cədvəl müəlliflər tərəfindən tərtib olunmuşdur.

**Qeyd.** 1000 ədəd söyüd tingləri, 200 ədəd çinar tingləri və 500 ədəd tut tingləri alınacaqdır.

Layihə ilə əlaqəli pul vəsaitlərinin daxilolmaları və xaricolmalarının saldosu layihənin "ömrü boyunca" müsbət olaraq qalır.

Bu səbəbdən maliyyə effektivliyi göstəricilərinin hesablanmasına ehtiyac qalmır.

Layihənin iqtisadi effektivliyini isə abadlıq-quruculuq işlərinin Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda prioritet tədbirkimi müəyyən edilməsi ilə izah olunur.

**Bələdiyyə ərazisindən keçən magistral yol kənarında "Avtoservis məntəqəsi"nin yaradılması layihəsi.**

***Tikinti işləri***

Texnikadan istifadə olunmaqla ərazi təmizlənəcək, bünövrə işləri görüləcək. Sonra divarları daşdan, yer örtüyü metlaxdan, dam örtüyü ondulindən ibarət ümumi sahəsi 130 kv.m. olan avtoservis xidməti göstərilən məntəqə tikiləcək. Tikinti obyekti motorist, təkər, elektrik və akkumulyator

sexlərinin sərbəst fəaliyyəti üçün 4 kamera divarla bölünəcəkdir. Bütün kameralara böyük jalüz qapılar və pəncərələr qoyulacaqdır.

***Avtoservisin zəruri avadanlıqla təmin olunması***

Motorist-çilingər sexində yağın dəyişdirilməsi, klapanın təmizlənməsi, şamların dəyişdirilməsi, sepin təmizlənməsi və digər xidmətlər göstəriləcək və bu cür fəaliyyətin həyata keçirilməsi üçün lazımi avadanlıqlar, o cümlədən hidro-danqrat, kran, şilfovka dəzgahı, gilizovka dəzgahı, motoryuma sobası, kiçik əl alətləri (müxtəlif açarlar) və disk alınacaqdır.

Təkər-vulkanizasiya sexində havalandırma, balanslaşdırma, təkər yamama və təkərlərin yerinin dəyişdirilməsivə digər xidmətlər göstəriləcək və bu cür fəaliyyətin həyata keçirilməsi üçün lazımi avadanlıqlar, o cümlədən 3 tonluq hidro əl danqratı, 10 tonluq hidro əl danqratı, 30 tonluq hidro əl danqratı , disk aparatı, təkər sökən-yığan aparat, kompressor, şin sobası və balanslaşdırma aparatı alınacaqdır.

Elektrik sexində xətlərin yenilənməsi, lampaların dəyişdirilməsi, karbüratorun yuyulması, injektrin yuyulması, tramlyorun dəyişdirilməsi və tənzimlənməsi fəaliyyətinin həyata keçirilməsi üçün injektr yuma və diaqnostik komputer avadanlıqları alınacaqdır.

Akkumulyator sexində avtomobilə texniki baxış, suyun əlavə olunması, suyun dəyişdirilməsi, enerji yığma (amperlərə uyğun), akkumulyatorun klemasının dəyişdirilməsi, bankaların dəyişdirilməsi fəaliyyətinin həyata keçirilməsi üçün zaryadka aparatı, suyu distillə edən aparat, qaynaq aparatı, qəlblər alınacaqdır.

Cədvəl 12

***Biznes plan***

| Tikinti materialları | Ölçüsü (miqdarı) | Dəyəri (manatla) |
|---|---|---|
| **Daş** | **3000 əd*50 qəp** | **1500** |
| **Sement** | **100 kisə*6 man** | **600** |
| **Dam örtüyü /ondulin** | **130 kv.m** | **4000** |
| **Döşəmə /metlax** | **130 əd*10 man** | **1300** |
| **Pəncərələr** | **4 əd*300** | **1200** |
| **Dəmir qapılar/jalüzlər** | **4 əd*1000** | **4000** |

| | | |
|---|---|---|
| **Santexnika işləri(su xəttinin çəkilişi, çən qoyulması, kombi quraşdırılması)** | | **2000** |
| **İşıq çəkilməsi** | | **1500** |
| **Tikinti şirkətinin xidmət haqqı** | | **3000** |
| **Digər xərclər** | | **3000** |
| **Cəmi:** | | **22100** |
Formanın birinci sütununda layihə üzrə görəcəyimiz işləri ardıcıl şəkildə yazırıq. Təbii ki, layihə işlərinə başlamaqla bağlı məsələlər əvvəldən sona doğru məntiqi ardıcıllıqla qeyd olunur.

Qrafik 8

**Layihənin idarəolunması prosesinin qısa izahı qrafiki**




***Mənbə:*** Драган З. Милошевич / Набор инструментов для управления проектами. Москва: «АМК», 2014

Formanın ikinci sütununda layihənin həcmindən asılı olaraq vaxt göstərilmişdir. Adətən layihə 5 aya qədər olduda həftələrlə, 6 aydan çox olduqda isə ayların adları ilə göstərilir. Birinci sütunda yazılan hər bir işin qarşısına uyğun gələn sətirdə həmin işin icra vaxtı işarələnir. Bu bizə imkan verir ki, layihənin icrası zamanı vaxtı düzgün idarə edə bilək.

Bundan sonra formanın 3-cü sütunundakı hissəni fəaliyyətə, vaxta uyğun olaraq doldururuq. Belə ki, burada yazdığımız işi müəyyən vaxt ərzində kim icra edəcəksə, onun adını və ya vəzifəsini də qeyd edirik. Belə olduğu halda hər bir işçi öz vəzifəsini, görəcəyi işi təhvilvermə vaxtını bilərək işi vaxtında görməyə çalışacaqdır. Layihənin rəhbəri isə hər bir

məsul şəxsin gördüyü işin vaxtında və bütünlüklə icrasına nəzarət etmək imkanı əldə edir.

Dördüncü bənddə isə işin harada icra olunacağı ilə bağlı qısa izahatlar verilir. Növbəti 5-ci bənd isə işin necə icra olunacağı sualına cavab verir. Belə olduğu halda əvvəlcədən işlərin harada, kim tərəfindən necə icra olunacağı barəsində ilkin təsəvvür yaranır. İşin icrası zamanı cədvəldə qeyd olunan informasiyalardan yayınmalar baş verdiyi zaman bu hadisə layihə rəhbəri tərəfindən vaxtında qeydə alınaraq yaranmış yeni vəziyyətlə bağlı əlavə tədbirlər görülür. Bu da layihənin uğurla yekunlaşmasına köməklik göstərir. (Bax: Forma 5)

**FORM 5**

# İCRA PLANI

**Layihənin adı:** ______________________________

**Layihənin icra müddəti:** gün.ay.il

| S/N | Fəaliyyətin təsviri | Fəaliyyətin icra vaxtları (aylar) | | | | | | | | | | | | Məsul şəxs | Harda icra ediləcək? (ünvan) | Necə icra ediləcək? (kiçik izahat) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Y | F | M | A | M | İ | İ | A | S | O | N | D | | | |
| 1 | | | | | | | | | | | | | | | | |
| 2 | | | | | | | | | | | | | | | | |
| 3 | | | | | | | | | | | | | | | | |
| 4 | | | | | | | | | | | | | | | | |
| 5 | | | | | | | | | | | | | | | | |
| 6 | | | | | | | | | | | | | | | | |
| 7 | | | | | | | | | | | | | | | | |
| 8 | | | | | | | | | | | | | | | | |
| 9 | | | | | | | | | | | | | | | | |
| 10 | | | | | | | | | | | | | | | | |

***Mənbə:*** **Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası rəsmi internet saytı – www.e-qht**

Layihə icrasının keyfiyyətini artıran məsələlərdən biri də proyektə cəlb olunan bütün şəxslərin və ya yaradılmış vəzifələrin iş öhdəliklərinin, təlimatlarının əvvəlcədən tərtib olunmasıdır. Məsələn, sizə layihə üzrə məsləhətçi lazımdırsa, siz onun vəzifə öhdəliklərini, işini və bu işlə bağlı təlimatı əvvəlcədən yazıb hazırlamalısınız. Layihəyə 5 nəfər işçi tələb olunursa, hər bir kəsin işi ayrılıqda yazılır.

Bu yanaşma layihəyə lazımi mütəxəssislərin cəlb olunması, onların əvvəlcədən təlimatlandırılması, iş öhdəliklərində təkrarlanmaların aradan qaldırlması və proyektin icrası zamanı hər bir kəsin yalnız öz vəzifə öhdəliyinə görə cavab verməsi baxımından əhəmiyyətlidir.

Layihələrin idarəolunmasında səmərəliliyin əldə edilməsi yollarından biri də, hesabatlılıq sisteminin formalaşdırılmasıdır. Burada icra və maliyyə hesabatlarını qeyd etmək olar. Maliyyə hesabatları əsasən maliyyələşdirən quruma və ölkənin müvafiq vergi təşkilatlarına təqdim olunur. Bunun vaxtı da mövcud qanunvericiliyə uyğun olaraq layihənin müddəti və maliyyənin həcmindən asılı olaraq müəyyənləşir.

İcra hesabatlarının təqdim olunması ilə bağlı aşağıdakı yanaşmalar mövcuddur ki, hər bir layihə rəhbəri həmin istiqamətlərdən birini tələb kimi qoya bilər:

- Kiçik layihələr üçün: əgər layihələrin müddəti 6 aya qədərdirsə, bu vaxt icra hesabatların işçilərdən tələb olunması aralığı həftədə bir dəfə təyin olunur. Belə deyək ki, həftəsonu;
- Orta ölçülü layihələr üçün: belə layihələr çox vaxt 12 ayı əhatə edir. Bu vaxt icra hesabatların işçilərdən tələb olunması aralığı iki həftədən bir dəfə təyin olunur. Belə deyək ki, iki həftədən bir;
- İri ölçülü layihələr üçün: belə layihələr 24 ayı və daha çox müddəti əhatə edir. Bu vaxt icra hesabatlarının işçilərdən tələb olunması aralığı ayda bir dəfə təyin olunur. Belə deyək ki, hər ayın sonu;

Kitabın bu hissəsində subvensiya layihələrinin idarəolunması üçün təklif edilən ümumi xarakter daşıyan asan bir formaların təqdimatı ilə tanış olduq.

Gəlin kitabımızın “Subvensiya layihələrinin hazırlanması metodu” və “Nümunəvi subvensiya layihələrinin iqtisadi – maliyyə əsaslandırılması üzrə

praktiki misallar" fəsillərində təqdim edilmiş 3 nümunəvi subvensiya layihəsinin idarəolunması üçün praktiki formalara baxaq.

**I layihənin idarəolunması üzrə nümunə:**

İlk olaraq A rayonunun B bələdiyyəsi ərazisində yerləşən U və T kəndlərində icra olunacaq **"Kənd təsərrüfatı məhsullarının tədarükü üzrə vasitəçilik xidməti"** adında layihənin vaxt bölgüsü, cavabdeh şəxslər və digər göstəricilər əsasında icra planını quraq. Bunun üçün kitabda qeyd olunan Forma 5-dən istifadə edirik. Qeyd edək ki, Forma 5-i dolduran zaman bu kitabın "Subvensiya layihələrinin hazırlanması metodu" fəslindəki **"Kənd təsərrüfatı məhsullarının tədarükü üzrə vasitəçilik xidməti"**layihəmiz birinci hissə, onun "Nümunəvi subvensiya layihələrinin iqtisadi – maliyyə əsaslandırılması üzrə praktiki misallar" fəslindəki davamı ikinci hissə bu bölmədə yazılan idarəetmə bölməsi isə üçüncü hissə kimi qəbul olunur. Bu səbəbdən əlaqəli fəsillərdə yazılmış məlumatlar əsas götürülməli və icra planının proyektin ümumi xəttinə məntiqi bağlılığı qorunub saxlanmalıdır.

Layihəmizin iqtisadi-maliyyə əsaslandırılması bölməsində də göstərildiyi kimi proyektin yüksək səviyyədə icrasını təmin etmək məqsədi ilə işə ilkin olaraq 3 nəfər idarəetmə işçisi və 1 nəfər də sürücü cəlb edirik. Şərti olaraq layihənin xüsusiyyətinə uyğun olaraq onları layihə meneceri, təşkilatçı-aqronom, satış meneceri adlandıraq.

Forma 5-in I layihə üzrə nümunəsinə baxan zaman görmək olar ki, ikinci sütun olan fəaliyyətlərin təsviri hissəsini dolduran zaman biz proyektimizin 6-cı bölməsindəki layihə üzrə fəaliyyət hissəsindəki işlərin başlıqlarını bura yerləşdirmişik. Fəaliyyətin icra vaxtını isə biz layihədə qeyd olunan 1 mart 2015-ci il tarixindən 30 noyabr 2015-ci il tarixinə olan dövrün aylarının baş hərflərini saxlayırıq. Layihəyə aid olmayan ayların baş hərlərini isə pozuruq. Bu hissədə biz layihəmizin fəaliyyət başlıqlarına uyğun olaraq işə nə qədər vaxt ayırmağı düşünürüksə həmin yerləri boz rənglə doldurduq. O işlə bağlı olmayan qalan ayların cədvəlini isə boş buraxırıq. Formanın dördüncü sütununda məsul şəxsləri qeyd edirik. Bu layihəmizdə bizim əsas məsul vəzifədə layihə meneceri, təşkilatçı-aqronom, satış meneceri çalışır. Ona görə də hər bir fəaliyyət üzrə kimin məsuliyyəti böyükdürsə və həmin işə kim rəhbərlik edəcəksə, onun vəzifəsini yazırıq. Beşinci sütunda biz layihəmizin həyata keçirildiyi bələdiyyə ərazisinin tam yerini yazırıq. Yəni burada işlərin U və T kəndlərində olacağını qeyd edirik.

Axırıncı altıncı hissədə isə biz artıq hər bir fəaliyyət üzrə görüləcək işləri açdıq. Bunun üçün biz layihəmizin 6-cı layihə üzrə fəaliyyət bölməsindən işləri götürdük. Amma burada biz həmin işləri cədvəllər uyğunlaşdırmaq üçün yalnız vacib hissələri saxlayırıq, qalanlarını isə pozuruq.

Bax:forma 5, I layihə

**FORMA 5, I layihə**

## İCRA PLANI

**Layihənin adı:** **“Kənd təsərrüfatı məhsullarının tədarükü üzrə vasitəçilik xidməti”**

**Layihənin icra müddəti:** **01.03.2015 – 30.11.2015**

| S/N | Fəaliyyətin təsviri | Fəaliyyətin icra vaxtları (aylar) | | | | | | | | | Məsul şəxs | Harda icra ediləcək? (ünvan) | Necə icra ediləcək? (Kiçik izahat) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M | A | M | İ | İ | A | S | O | N | | | |
| 1 | **Layihənin işçi qrupunun təyini və təlimatlandırılması:** | | | | | | | | | | layihə meneceri | B bələdiyyəsi U və T kəndləri | işçi heyəti təlimatlandırılacaqdır |
| 2 | **Toplanma və logistika işlərinin təşkili** | | | | | | | | | | layihə meneceri, təşkilatçı-aqranom, satış meneceri | B bələdiyyəsi U və T kəndləri | məhsulun alınması və yığılması üzrə müqavilələr bağlanacaq. Bələdiyyə tərəfindən yük maşınları lizinqə və ya icarəyə götürüləcək. Məhsulun tədarükçüləri, bazar vasitəçiləri və son alıcılar ilə narın alqı-satqısı üzrə sazişlər bağlanacaq; |
| 3 | **Avadanlıqla təchizat** | | | | | | | | | | layihə meneceri | B bələdiyyəsi U və T kəndləri | narın yığılması, qablaşdırılması, daşınması zamanı qorunması üçün xüsusi alətlər, taralar, örtük vasitələri və s. ləvazimatlar alınacaqdır; |

## FORMA 5, I layihənin davamı

| S/N | Fəaliyyətin təsviri | Fəaliyyətin icra vaxtları (aylar) | | | | | | | | | Məsul şəxs | Harda icra ediləcək? (ünvan) | Necə icra ediləcək? (kiçik izahat) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M | A | M | İ | İ | A | S | O | N | | | |
| **4** | **Fermerlərin və kəndlilərin məntəqə barəsində məlumatlandırılmaq:** | | | | | | | | | | satış meneceri | B bələdiyyəsi U və T kəndləri | kəndli fermer təsərrüfatlarına və yerli əhaliyə məntəqə barəsində və obyektin imkanları, bura məhsulların təhvili və s. barəsində izahatlar veriləcəkdir. |
| **5** | **Məntəqənin işə salınması** | | | | | | | | | | layihə meneceri, təşkilatçı-aqranom, satış meneceri | B bələdiyyəsi U və T kəndləri | kəndli təsərrüfatlarından nar toplanılaraq müvafiq qaydada alıcılara və tədarük məntəqələrinə təhvil veriləcək və müəyyən gəlir əldə olunacaqdır. |

***Mənbə:*****Müəlliflər tərəfindən doldurulub**

**Layihə boyu işə nəzarət etmək və məsul şəxslərdən vaxtaşırı hesabatları almaq üçün proyektə cəlb olunmuş əməkdaşların**

Layihə boyu işə nəzarət etmək və məsul şəxslərdən vaxtaşırı hesabatları almaq üçün proyektə cəlb olunmuş əməkdaşların vəzifə öhdəliklərini qeyd edirik. Sürücü vəzifəsi üçün geniş açıqlamaya ehtiyac olmadığı üçün bu təlimatı üç vəzifənin - layihə meneceri, təşkilatçı-aqronom, satış meneceri üzərində quraq.

1. Layihə meneceri – (adı və soyadı) CV-ni və ya tərcümeyi halını layihə sənədlərinə əlavə etməlisiniz;

1.1. Layihə üzrə işə cəlb olunmuş şəxslərin iş təlimatlarını hazırlayır, onlara məlumat verir;

1.2. Layihə ilə bağlı avadanlıqların alınması işini təşkil edir;

1.3. Nar bağlarının sahibləri ilə görüşləri təşkil edir, onlarla sazişlər bağlayır;

1.4. Narın tədarük olunması məntəqəsinə rəhbərlik edir;

Bu ardıcıllıqla layihə menecerinin üzərinə düşən işlər yazılmalıdır.

2. Təşkilatçı aqronom - (adı və soyadı) CV-ni və ya tərcümeyi halını layihə sənədlərinə əlavə etməlisiniz;

2.1. Tədarük olunacaq Nar məhsulunun keyfiyyətinə olan tələbləri yazmaq;

2.2. Narın toplanması, qablaşdırılması, daşınması, yüklənməsi və boşaldılması standartlarını təyin etmək;

2.3. Narçılıq üzrə kəndli təsərrüfatlarında görüşlər keçirmək, onları maarifləndirmək, yerlərdə məhsulun keyfiyyəti ilə yaxından tanış olmaq;

2.4. Narın tədarükü məntəqəsində keyfiyyətə nəzarət işini həyata keçirmək;

Bu ardıcıllıqla təşkilatçı-aqronomun üzərinə düşən işlər yazılmalıdır.

3. Satış meneceri – (adı və soyadı) CV-ni və ya tərcümeyi halını layihə sənədlərinə əlavə etməlisiniz;

3.1. Tədarükçülər, vasitəçilər, fabriklər ilə danışıqlar aparmaq, qiymətləri və müqavilə şərtlərini razılaşaraq olarla müqavilə bağlamaq;

3.2. Kəndli fermer təsərrüfatları ilə danışıqlar aparmaq, narın alış qiymətini müəyyənləşdirmək, onlarla sazişlər bağlamaq;

3.3. Məhsulun kəndlilərdən alışını təşkil edərək sonda alıcılara çatdırıb onlardan ödənişləri toplamaq;

3.4. Narın tədarükü məntəqəsində alqı-satqı, müştərilərlə iş və marketinq məsələlərinə rəhbərliyi həyata keçirmək;

Bu ardıcıllıqla təşkilatçı-aqronomun üzərinə düşən işlər yazılmalıdır.

Əsas vəzifəli şəxslərin öhdəliklərini bu şəkildə yazdıqdan sonra onlara gördükləri işlərlə bağlı hesabatların vaxtı haqqında da məlumat veririk.

**II layihənin idarəolunması üzrə nümunə:**

İlk olaraq C rayonu ərazisində yerləşən Z kənd bələdiyyəsi ərazisindən keçən Girdiman çayının kənarında icra olunacaq **“Ətraf mühiti qoruyaq”**adlı layihənin iş planını vaxt bölgüsü, cavabdeh şəxslər və digər göstəricilər əsasında icra planını qururuq. Bunun üçün kitabda qeyd olunan Forma 5-dən istifadə edirik. Qeyd edək ki, Forma 5-i dolduran zaman bu kitabın “Subvensiya layihələrinin hazırlanması metodu” fəslindəki **“Ətraf mühiti qoruyaq”** layihəmiz birinci hissə, onun “Nümunəvi subvensiya layihələrinin iqtisadi – maliyyə əsaslandırılması üzrə praktiki misallar” fəslindəki davamı ikinci hissə, bu bölmədə yazılan idarəetmə bölməsi isə üçüncü hissə kimi qəbul olunur. Bu səbəbdən əlaqəli fəsillərdə yazılmış məlumatlar əsas götürülməli və icra planının proyektin ümumi xəttinə məntiqi bağlılığı qorunub saxlanmalıdır.

Layihəmizin iqtisadi-maliyyə əsaslandırılması bölməsində də göstərildiyi kimi proyektin yüksək səviyyədə icrasını təmin etmək məqsədi ilə işə ilkin olaraq 2 nəfər idarəetmə işçisi və 2 nəfər də bağban cəlb edirik. Şərti olaraq layihənin xüsusiyyətinə uyğun olaraq onları layihə meneceri, ekoloq adlandıraq.

Forma 5-in II layihə üzrə nümunəsinə baxan zaman görmək olar ki, ikinci sütun olan fəaliyyətlərin təsviri hissəsini dolduran zaman biz proyektimizin 6-cı bölməsindəki layihə üzrə fəaliyyət hissəsindəki işlərin başlıqlarını bura yerləşdirmişik. Fəaliyyətin icra vaxtını isə biz layihədə qeyd olunan 1 fevral 2015-ci il tarixindən 30 noyabr 2015-ci il tarixinə olan dövrün aylarının baş hərflərini saxlayırıq. Layihəyə aid olmayan ayların baş hərflərini isə pozuruq. Bu hissədə biz layihəmizin fəaliyyət başlıqlarına uyğun olaraq işə nə qədər vaxt ayırmağı düşünürüksə, həmin yerləri boz rənglə doldurduq. O işlə bağlı olmayan qalan ayların cədvəlini isə boş buraxırıq. Formanın dördüncü sütununda məsul şəxsləri qeyd edirik. Bu layihəmizdə bizim əsas məsul vəzifədə layihə meneceri, ekoloq çalışır. Ona görə də hər bir fəaliyyət üzrə kimin məsuliyyəti böyükdürsə və həmin işə kim rəhbərlik edəcəksə, onun vəzifəsini yazırıq. Beşinci sütunda biz layihəmizin həyata keçirildiyi bələdiyyə ərazisinin tam yerini yazdıq. Yəni

burada işlərin Z kənd bələdiyyəsi ərazisindən keçən Girdiman çayının kənarında olacağını göstərdik.

Axırıncı altıncı hissədə isə biz artıq hər bi fəaliyyət üzrə görüləcək işləri açdıq. Bunun üçün biz layihəmizin 6-cı layihə üzrə fəaliyyət bölməsindən işləri götürdük. Amma burada biz həmin işləri cədvələr uyğunlaşdırmaq üçün yalnız vacib işləri saxladıq qalanlarını isə pozduq.Bax:forma 5, II layihə

Forma 5, II layihə

# İCRA PLANI

**Layihənin adı:** **“Ətraf mühiti qoruyaq”**

**Layihənin icra müddəti:** **01.02.2015 – 30.11.2015**

| S/N | Fəaliyyətin təsviri | Fəaliyyətin icra vaxtları (aylar) | | | | | | | | | | Məsul şəxs | Harda icra ediləcək? (ünvan) | Necə icra ediləcək? (kiçik izahat) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | F | M | A | M | İ | İ | A | S | O | N | | | |
| 1 | **Bələdiyyələr arasında iş bölgülərinin təsdiqi** | | | | | | | | | | | layihə meneceri | Z kənd bələdiyyəsi | Z, B və D bələdiyyələri ilə işin icrası ilə bağlı bölgü aparaılaraq əməkdaşlıq memorandumları bağlanılacaqdır. |
| 2 | **Layihənin işçi qrupunun təyini və təlimatlandırılması:** | | | | | | | | | | | layihə meneceri | Z kənd bələdiyyəsi | işçi heyəti təlimatlandırılacaqdır |
| 3 | **Könüllülərin cəlbi** | | | | | | | | | | | layihə meneceri, ekoloq | Z kənd bələdiyyəsi | könüllülər toplanılacaq və onlar məlumatlandırıla-caqdır. |
| 4 | **Ərazinin tullantılardan təmizlənməsi** | | | | | | | | | | | layihə meneceri, ekoloq | Girdiman çayının kənarı | traktor, yük maşınları, əmək alətləri, xüsusi geyimlər təşkil olunacaq. Xüsusi məlumatlandırma, xəbərdarlıq lövhələri hazırlanacaq. İşçi qrupu birlikdə ərazidəki zibilləri toplayacaq və maşınlar vasitəsilə ləğvetmə yerinə aparılacaqdır. Çirkab sularının axıdılması bağlanacaqdır. |

Forma 5, II layihənin davamı

| S/N | Fəaliyyətin təsviri | Fəaliyyətin icra vaxtları (aylar) | | | | | | | | | | Məsul şəxs | Harda icra ediləcək? (ünvan) | Necə icra ediləcək? (kiçik izahat) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | F | M | A | M | İ | İ | A | S | O | N | | | |
| 5 | **Bələdiyyə haqlarının müəyyənləşdirilməsi** | | | | | | | | | | | layihə meneceri | Z kənd bələdiyyəsi | Bələdiyyə tərəfindən həmin zonanın çirkləndirilməsinə görə cərimələr müəyyənləşdiriləcək o cümlədən yerli əhalidən çaydan istifadəyə görə kiçik ödəmələr təyin olunacaqdır.çaydan istifadəyə görə kiçik ödəmələr təyin olunacaqdır. |
| 6 | **Çayqırağı ərazilərdə yaşıllığın salınması** | | | | | | | | | | | layihə meneceri, ekoloq, bağbanlar | Girdiman çayının kənarı | yerin bellənməsi həyata keçiriləcək və işçilər tərəfindən ağaclar əkiləcəkdir. Yaşıllığın inkişafı üçün suvarma sistemləri quraşdırılacaqdır. |
| 7 | **Bələdiyyə ərazisində maarifləndirmə işlərinin görülməsi** | | | | | | | | | | | layihə meneceri, ekoloq | Z kənd bələdiyyəsi | yerli əhalinin maarifləndirilməsi məqsədilə layihə çərçivəində bukletlər çap olunaraq paylanılacaqdır. |

**Mənbə:** Forma müəllif tərəfindən doldurulub

Layihə boyu işə nəzarət etmək və məsul şəxslərdən vaxtaşırı hesabatları almaq üçün proyektə cəlb olunmuş əməkdaşların vəzifə öhdəliklərini qeyd edirik. Bağban vəzifəsi üçün geniş açıqlamaya ehtiyac olmadığı üçün bu təlimatı iki vəzifənin - layihə meneceri və aqronomun üzərində quraq.

1. Layihə meneceri – (adı və soyadı) CV-ni və ya tərcümeyi halını layihə sənədlərinə əlavə etməlisiniz;

1.1. Layihə üzrə işə cəlb olunmuş şəxslərin iş təlimatlarını hazırlayır, onlara məlumat verir;

1.2. Digər iki bələdiyyənin məsul şəxslərini layihə haqqında məlumatlandırır, onlarla əməkdaşlığın istiqamətlərini razılaşdıraraq vəzifə bölgüsünü apararaq memorandum hazırlayır;

1.3. Layihəyə könüllülərin cəlbi proseduralarını hazırlayır, yerlərdə görüşlər keçirərək layihəyə könüllülər cəlb edir və onları təlimatlandırır;

1.4. Ərazinin tullantılardan təmizlənməsi işini təşkil edir və rəhbərlik edir;

1.5. Bələdiyyə haqlarının müəyyələşdirilməsi ilə bağlı təkliflər işləyərək yerli özünüidarə qurumunun qərarverici orqanına təqdim edir;

1.6. Çayqırağı ərazilərdə yaşıllığın salınması işini təşkil edir və görülən işlərə nəzarəti həyata keçirir;

1.7. Bələdiyyə ərazisində maarifləndirmə işlərini aparır və s.

Bu ardıcıllıqla layihə menecerinin üzərinə düşən işlər yazılmalıdır.

2. Ekoloq - (adı və soyadı) CV-ni və ya tərcümeyi halını layihə sənədlərinə əlavə etməlisiniz;

2.1. Könüllülərin təlimatlarını hazırlayır;

2.2. Ərazinin tullantılardan təmizlənməsi planını hazırlayır, zibillərin toplanması, daşınması və ləğvetmə işlərini təşkil edərək könüllülərin həmin vəzifələri yüksək səviyyədə görməsini tənzimləyir;

2.3. Ərazinin ekoloji vəziyyətini və görülən tədbirlərin əhəmiyyətini qiymətləndirir;

2.4. Çayqırağı ərazilərdə yaşıllığın salınması üzrə tinklərin seçilməsi, onların əkilməsi, becərilməsi, suvarma sisteminin qurulması işlərinin keyfiyyətli görülməsinə nəzarət edir;

2.5. Maarifləndirici bukletlərin materiallarını hazırlayır və s.

Bu ardıcıllıqla təşkilatçı-aqronomun üzərinə düşən işlər yazılmalıdır.

Əsas vəzifəli şəxslərin öhdəliklərini bu şəkildə yazdıqdan sonra onlara gördükləri işlərlə bağlı hesabatların vaxtı haqqında da bildiriş veiririk.

**III layihənin idarəolunması üzrə nümunə:**

İlk olaraq G rayonu ərazisində yerləşən Y kənd bələdiyyəsi ərazisindən keçən magistral yolun 210-cu km-də icra olunacaq **“Avtoservis məntəqəsi”** adlı layihənin vaxt bölgüsü, cavabdeh şəxslər və digər göstəricilər əsasında icra planını qururuq. Bunun üçün kitabda qeyd olunan Forma 5-dən istifadə edirik. Qeyd edək ki, Forma 5-i dolduran zaman bu kitabın “Subvensiya layihələrinin hazırlanması metodu” fəslindəki **“Avtoservis məntəqəsi”** layihəmiz birinci hissə, onun “Nümunəvi subvensiya layihələrinin iqtisadi – maliyyə əsaslandırılması üzrə praktiki misallar” fəslindəki davamı ikinci hissə, bu bölmədə yazılan idarəetmə bölməsi isə üçüncü hissə kimi qəbul olunur. Bu səbəbdən əlaqəli fəsillərdə yazılmış məlumatlar əsas götürülməli və icra planının proyektin ümumi xəttinə məntiqi bağlılığı qorunub saxlanmalıdır.

Layihəmizin iqtisadi-maliyyə əsaslandırılması bölməsində də göstərildiyi kimi proyektin yüksək səviyyədə icrasını təmin etmək məqsədi ilə işə ilkin olaraq 2 nəfər idarəetmə işçisi və 4 nəfər də hər bir sexin fəaliyyət sferasına uyğun olaraq – motorist, akkumulyator ustası, elektrik, vulkanizator usta cəlb edirik. Şərti olaraq layihənin xüsusiyyətinə uyğun olaraq idarəetmə heyətini layihə meneceri, baş usta adlandıraq.

Forma 5-in III layihə üzrə nümunəsinə baxan zaman görmək olar ki, ikinci sütun olan fəaliyyətlərin təsviri hissəsini dolduran zaman biz proyektimizin 6-cı bölməsindəki layihə üzrə fəaliyyət hisəsindəki işlərin başlıqlarını bura yerləşdirmişik. Fəaliyyətin icra vaxtını isə biz layihədə qeyd olunan 1 fevral 2015-ci il tarixindən 30 dekabr 2015-ci il tarixinə olan dövrün aylarının baş hərflərini saxlayırıq. Layihəyə aid olmayan ayların baş hərflərini isə pozuruq. Bu hissədə biz layihəmizin fəaliyyət başlıqlarına uyğun olaraq işə nə qədər vaxt ayırmağı düşünürüksə, həmin yerləri boz rənglə doldurduq. O işlə bağlı olmayan qalan ayların cədvəlini isə boş buraxırıq. Formanın dördüncü sütununda məsul şəxsləri qeyd edirik. Bu layihəmizdə bizim əsas məsul vəzifədə layihə meneceri, baş usta çalışır. Ona görə də hər bir fəaliyyət üzrə kimin məsuliyyəti böyükdürsə və həmin işə kim rəhbərlik edəcəksə, onun vəzifəsini yazırıq. Beşinci sütunda biz layihəmizin həyata keçirildiyi bələdiyyə ərazisinin tam yerini yazdıq. Yəni

burada işlərin G rayonu ərazisində yerləşən Y kənd bələdiyyəsində olacağını göstərdik.

Axırıncı altıncı hissədə isə biz artıq hər bi fəaliyyət üzrə görüləcək işləri açdıq. Bunun üçün biz layihəmizin 6-cı layihə üzrə fəaliyyət bölməsindən işləri götürdük. Amma burada biz həmin işləri cədvələ uyğunlaşdırmaq üçün yalnız vacib işləri saxladıq qalanlarını isə pozduq. Bax: forma 5, III layihə

**FORMA 5, III layihə**

# İCRA PLANI

**Layihənin adı:** **“Avtoservis məntəqəsi”**

**Layihənin icra müddəti:** **01.02.2015 – 30.12.2015**

| S/N | Fəaliyyətin təsviri | Fəaliyyətin icra vaxtları (aylar) | | | | | | | | | | Məsul şəxs | Harda icra ediləcək? (ünvan) | Necə icra ediləcək? (kiçik izahat) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | F | M | A | M | İ | İ | A | S | O | N | | | |
| **1** | **Layihənin işçi qrupunun təyini və təlimatlandırılması:** | | | | | | | | | | | layihə meneceri | Y kənd bələdiyyəsi | işçi heyəti təlimatlandırılacaqdır |
| **2** | **Ərazinin tikinti üçün hazır vəziyyətə gətirilməsi** | | | | | | | | | | | layihə meneceri, baş usta | Y kənd bələdiyyəsi | texnikadan istifadə olunmaqla ərazi təmizlənəcək, bünövrə işləri görüləcək |
| **3** | **Avtoservisin ayrı-ayrı sexlərinin tikilməsi** | | | | | | | | | | | layihə meneceri,baş usta | Y kənd bələdiyyəsi | tikinti işləri ilə bağlı tender elan olunacaq və qalib şirkət ilə müqavilə bağlanılaraq işlər görüləcəkdir |
| **4** | **Avtoservisin zəruri avadanlıqla təmin olunması** | | | | | | | | | | | layihə meneceri, baş usta | Y kənd bələdiyyəsi | sexlərin fəaliyyətinə uyğun olaraq müvafiq avadanlıqlar alınaraq quraşdırılacaqdır |

## FORMA 5, III layihənin davamı

| S/N | Fəaliyyətin təsviri | Fəaliyyətin icra vaxtları (aylar) | | | | | | | | | | Məsul şəxs | Harda icra ediləcək? (ünvan) | Necə icra ediləcək? (Kiçik izahat) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | F | M | A | M | İ | İ | A | S | O | N | | | |
| **5** | **Ustaların peşəkarlığının artırılması** | | | | | | | | | | | layihə meneceri, baş usta | Y kənd bələdiyyəsi | ustalar öz sahələri üzrə yeni avadanlıqlardan istifadə üzrə əlavə təlimlərə cəlb olunacaqlar. |
| **6** | **Bələdiyyə daxilolmalarının təsbit olunması** | | | | | | | | | | | layihə meneceri | Y kənd bələdiyyəsi | bələdiyyənin nəzdində məhdud məsuliyyətli cəmiyyət yaradılmışdır. Bu cəmiyyətin gəlirləri müvafiq vergi, əmək haqqı, iş və xidmətlərə görə ödəmələr ödənildikdən sonra qalan vəsait bələdiyyənin cari məqsədlərinin maliyyələşməsinə yönəldiləcəkdir. |

**Mənbə: Forma  müəllif tərəfindən doldurulub**

Layihə boyu işə nəzarət etmək və məsul şəxslərdən vaxtaşırı hesabatları almaq üçün proyektə cəlb olunmuş əməkdaşların vəzifə öhdəliklərini qeyd edirik. Motorist, akkumulyator ustası, elektrik, vulkanizator vəzifələri üçün geniş açıqlamaya ehtiyac olmadığı üçün bu təlimatı iki vəzifənin - layihə meneceri və baş ustanın üzərində quraq.

1. Layihə meneceri – (adı və soyadı) CV-ni və ya tərcümeyi halını layihə sənədlərinə əlavə etməlisiniz;

1.1. Layihə üzrə işə cəlb olunmuş şəxslərin iş təlimatlarını hazırlayır, onlara məlumat verir;

1.2. Layihə ilə bağlı avadanlıqların alınması işini təşkil edir;

1.3. Ərazidə sexlərin fəaliyyətinə uyğun binaların inşa olunması işini təşkil edir. Tenderin şərtlərini müəyyənləşdirir, onu elan edir, nəticələrin qiymətləndirilməsi üçün Bələdiyyənin nəzdində yaradılmış komissiyanın işinə rəhbərlik edir, podratçı təşkilatla razılaşmalara imza ataraq işin vaxtında və keyfiyyətli görülməsinə nəzarəti həyata keçirir;

1.4. Sexləri işlədəcək ustaların seçim meyarlarını müəyyənləşdirir, onların obyektiv seçilməsi üçün prosedurаları hazırlayır və bələdiyyənin nəzdində yaradılan seçim komissiyasının işinə rəhbəlrik edir;

1.5. Ustalarla saziş bağlayır;

1.6. Avtoservisin gələcək fəaliyyətinə rəhbərlik edir;

Bu ardıcıllıqla layihə menecerinin üzərinə düşən işlər yazılmalıdır.

2. Baş usta - (adı və soyadı) CV-ni və ya tərcümeyi halını layihə sənədlərinə əlavə etməlisiniz;

2.1. Sexlərin standartlara cavab verəcək şəkildə tikilməsi üçün əvvəlcədən texniki tapşırığı müəyyənləşdirir;

2.2. Tenderin nəticələrinin qiymətləndirilməsində yaxından iştirak edir

2.3. Ustaların bacarıqlarının yoxlanması üçün müsahibəni hazırlayır. Ustaları müsahibədən keçirərək onların sexlərə işə qəbul olunması ilə bağlı təqdimatlar verir;

2.4. Sexlərə zəruri avadanlıqların alınması, quraşdırılması işini həyata keçirir;

Bu ardıcıllıqla baş ustanın üzərinə düşən işlər yazılmalıdır.

Əsas vəzifəli şəxslərin öhdəliklərini bu şəkildə yazdıqdan sonra onlara gördükləri işlərlə bağlı hesabatların vaxtı haqqında da bildiriş veiririk.

## İzahlı lüğət

1. **Amortizasiya-** 1) avadanlığın işlənməsi nəticəsində dəyərinin getdikcə azalması; 2) əsas fondların, yəni binaların avadanlıqların, qurğuların və s.-in tədricən köhnələrək öz dəyərini hissə - hissə istehsal olunan məhsulun üzərinə keçirməsi;

2. **Aktiv** – iqtisadi subyektə , o cümlədən dövlətə,müəssisəyə, insana və s. məxsus bütün mülkiyyət;

3. **Audit** - İdarəçilik fəaliyyətinin müəyyən meyarlara, norma və standartlara uyğun gəlməsini qiymətləndirmə prosesi və sistemi;

4. **Auditor** - Auditor Qanunvericiliklə müəyyən edilmiş qaydada ölkə ərazisində auditor xidməti göstərən fiziki və ya hüquqi şəxs;

5. **Auksion**(hərrac) - alıcıların müsabiqəsi əsasında malların və qiymətli kağızların müəyyən vaxtda və müəyyən edilmiş yerdə satışı;

6. **Bank -** bank iqtisadi subyektlərin pul vəsaitlərini müvəqqəti cəlb edən, sərəncamında olan pul vəsaitlərini (xüsusi və cəlb etdiyi pul və saitlərini) müddətlilik, qaytarılmaqlıq, ödənçililik və təminatlılıq şərti ilə öz hesabına və öz adından yerləşdirən, fiziki və hüquqi şəxslər üçün hesablar açan, bu hesablarla bağlı əməliyyatlar aparan, iqtisadi subyektlərə müxtəlif maliyyə xidmətləri göstərən müstəsna hüquqa malik maliyyə-kredit institutu;

7. **Bank kassa əməliyyatları** - bankın kassa əməliyyatları nağd pul və digər qiymətlilərin qəbulu, verilməsi, saxlanması və qorunması üzrə əməliyyatların məcmusudur;

8. **Bank krediti –** bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqlar) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. Həmin şərtlərlə pul vəsaitinin verilməsi haqqında götürülmüş hər hansı öhdəlik, qarantiya, zəmanət, borc qiymətli kağızlarının diskontla və ya faizlər alınmaqla satın alınması və müqaviləyə əsasən hər hansı formada verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquq da kredit anlayışına aiddir;

9. **Bazar dəyəri-**qiymətli kağızın ən son elan olunmuş qiyməti və ya cari alqı-satqı qiyməti. Şirkətin bazar qiymətini həyata keçirmək üzrə verilən sifariş növüdür;

10. **Bazar qiyməti -** Malın (işin, xidmətin) tələblə təklifin qarşılıqlı təsiri nəticəsində təşəkkül tapan qiyməti;

11. **Benefisiar** – xeyrinə ödəniş edilmiş,gəlir,mənfəət, güzəştli pul vəsaiti vəs. əldə etmiş şəxs, o cümlədən kreditor;

12. **Bələdiyyə** (municipality)- ölkənin qanunvericiliyinə uyğun ərazi hüdudları daxilində yerli özünüidarə forması. Bələdiyyə özünün mülkiyyətinə, büdcəsinə və seçkili orqanına malikdir;

13. **Bələdiyyə büdcəsi** (municipal budget) – ölkənin qanunvericiliyi əsasında müəyyənləşdirilən bələdiyyə statusuna uyğun olaraq özünüidarə prinsiplərini reallaşdırmaq, bələdiyyə səlahiyyətlərini həyata keçirmək məqsədilə formalaşdırılan və istifadə olunan planlaşdırılmış maliyyə vəsaiti fondu.Azərbaycan Respublikasında yerli büdcə (bələdiyyə büdcəsi) dövlət büdcəsinin tərkib hissəsi deyil. Azərbaycan Respublikasında yerli büdcə sistemininbir həlqəsidir;

14. **Bələdiyyə maliyyəsi** – bələdiyyə orqanının və bələdiyyə mülkiyyətində olan təsərrüfat subyektlərinin həyata keçirdiyi maliyyə münasibətlərinin məcmusudur;

15. **Biznes-plan** – konkret biznes fəaliyyətinin layihəsi;

16. **Büdcədənkənar fondlar** (extrabudgetary funds) – büdcədənkənar dövlət gəlirlərinin və xərclərinin toplandığı və xərcləndiyi fondlar və ya xüsusi hesablar. Belə fondlar orta hesabla inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin mərkəzləşmiş hökumət xərclərinin 40%-ni təmin edir. Büdcədənkənar fondlar fiskal siyasətə, dövlət maliyyəsinin idarə edilməsinə və makroiqtisadi sabitliyə təsir etmək imkanına malikdir;

17. **Büdcə sistemi** – ölkənin vergi-büdcə mexanizminə əsaslanan büdcə həlqələrinin məcmusu;

18. **Cərimə -** pulla ödənilən cəza növü;

19. **Dəyər** – hər hansı aktivin pul ilə ifadə olunmuş qiyməti;2) istehsal olunmuş əmtəəyə sərf olunan ictimai əmək;

20. **Deponent** – pul vəsaitinin, yaxud digər qiymətlilərin banka və ya kredit təşkilatına saxlanca verilməsi. Depozitdən fərqli olaraq həmin saxlanca görə pul ödənilmir;

21. **Diskont** (endirim, güzəşt) - ümumilikdənəyinsə adi qiymətindən ucuz satışını ifadə edir. Aktivin diskontlu satışı onun dəyərinin bazar qiymətindən yüksək olmasını ifadə edir;

22. **Dövlət büdcəsi** – dövlət xərcləri və onların ödənilməsi mənbələri üzrə illik maliyyə planı. Dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir. Büdcə həm də ölkənin iqtisadi-sosial inkişaf proseslərini tənzimləmək alətidir;

23. **Dotasiya** - Büdcə sisteminin mərkəzi həlqəsində (dövlət büdcəsindən, federal büdcədən) mövcud gəlir və xərc tarazlığını aradan qaldırmaq məqsədi ilə digər büdcələrə verilən əvəzsiz pul vəsaiti. Maliyyə ili ərzində büdcə həlqələri arasında təqdim edilən dotasiyaların həcmi hər il büdcə qanunvericiliyi ilə müəyyən edilir. Burada dotasiya hər hansı konkret layihənin reallaşdırılması məqsədi daşımır;

24. **Dövlət proqramı**– ümumdövlət əhəmiyyətli sosial-iqtisadi, ekoloji, elmi-texniki istiqamətlərin inkişaf strategiyasını müəyyən edən sənəddir. Burada məqsədəçatmanın başlıca vəzifələri, bu vəzifələr çərçivəsində nəzərdə tutulan konkret tədbirlər, onların həyata keçirilməsi müddəti (başlanğıc və son) və icraçı subyektlər təsvir edilirlər. Dövlət proqramında nəzərdə tutulan tədbirlər layihələr şəklində rellaşdırılır. Məhz bu mərhələdə resurslardan istifadə və nəticəlilik məsələləri gündəmə gəlir. Dövlət proqramları adətən nazirliklər, komitələr, agentliklər və digər dövlət orqanları tərəfindən formalaşdırılsa da, texniki və informasiya təminatını istənilən mülkiyyət formasında olan təsərrüfat subyektlərinin iştirakı və dəstəyi ilə həyata keçirmək olar. Dövlət proqramları adətən 1-5 illik müddəti əhatə edir;

25. **Dövriyyə kapitalı** – Məhsuldar kapitalın bir hissəsi olmaqla dəyəri istehsal olunmuş məhsulun üzərinə tam keçən və məhsulun reallaşmasından sonra pul və ya dəyər formasında geri qayıdan, başqa sözlə, istehsal prosesi zamanı birbaşa istehsal olunmuş məhsulun, göstərilən xidmətin, görülən işin üzərinə qoyulan kapital; 2) Şirkətin öz sabit əməliyyatlarının maliyyələşdirilməsinə imkan verən və tez bir zamanda pula çevrilə bilən aktivlər. Dövriyyə kapitalı pul vəsaitlərindən, asan reallaşan qiymətli

kağızlardan, debitor borclarından, material-istehsal ehtiyatlarından, hazır məhsuldan, bitməmiş istehsaldan, materiallardan, dəst məmulatlardan və gələcək dövrün xərclərindən formalaşır. Dövriyyə kapitalı likvidlik meyarına – müəssisənin vəsaitlərinin nağd pula çevrilməsi qabiliyyətlərinə görə qiymətləndirilir və şirkətin maliyyə vəziyyətinin sabitliyinin vəziyyətini göstərir;

26. **Əmlak vergisi**– müəssisənin əmlak vergisi dedikdə, onun balansında olan əsas vəsaitlərə görə hesablanıb ödənilən vergi başa düşülür. Vergitutma obyekti olan rezident müəssisələr və Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr əmlak vergisinin ödəyiciləridir. Əmlak vergisi üzrə aşağıdakılar vergitutma obyekti sayılır: müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəri; Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr üçün – yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərin orta illik dəyəri. Azərbaycan Respublikasında müəssisələr əsas vəsaitlərin orta illik qalıq dəyərindən 1% dərəcəsi ilə əmlak vergisi ödəyirlər;

27. **Faiz** - 1) Ədədin yüzdə bir hissəsi; 2) Kreditorun borc alan subyektdən təqdim etdiyi borc və- saitinə (pul vəsaiti və ya natural şəkildə) görə aldığı əlavə haqq, yaxud həmin haqqın əsas borca nisbət də faiz ifadəsi;

28. **Faizlər** – borc öhdəlikləri ilə bağlı olan hər hansı ödəmə, o cümlədən kreditlərin (ssudaların) və ya depozitlərin (hesabların) verilməsi üçün ödəmələr;

29. **Fiziki şəxs**– hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir. Rəsmi qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və vətəndaşlığı olmayan şəxslər;

30. **Fond** – qeyri- kommersiya təşkilatı olub üzvülüyü olmayan, fiziki ( və ya) hüquqi şəxslərin könüllü əmlak haqları əsasında təsis etdikləri, sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai faydalı məqsədlər güdən təşkilatdır;

31. **Gömrük rüsumu** – ölkənin gömrük orqanları tərəfindən həmin ölkənin gömrük ərazisində idxal, tranzit və ixrac məhsullarından, əmlakdan və qiymətli əşyalardan alınan ödənişlərdir. Azərbaycan Respublikasında gömrük rüsumu mallar ölkənin gömrük ərazisinə gətirilərkən və ya bu

ərazidən çıxarılarkən Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən tutulan haqq olmaqla yanaşı, həm də bu cür idxal və ixracın mühüm şərtidir;

32. **Hüquqi şəxs** – qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlaka cavabdehdir, öz adından əmlka və şəxsi qeyri- əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir;

33. **Xalis mənfəət** - Mənfəət vergisi çıxıldıqdan sonra qalan mənfəət;

34. **Xərc (məsrəf) əmsalı-** Qarşılıqlı fondun əməliyyat xərclərini qarşılamaq üçün sərf etdiyi orta xalis aktivlərinin faiz nisbəti;

35. **Xidmət** – ehtiyacların ödənilməsi üçün görülən iş və ya əməyin faydalı nəticəsi formasında olan müəyyən məqsədyönlü fəaliyyət;

36. **İanə -** Bir xeyir iş üçün, yaxudehtiyacı olan bir adam və ya cəmiyyətüçün verilən və toplanılan pul, maddi yardım,kömək;

37. **İdxal -** Ölkə daxilinə gətirilən mallar, xidmətlər və ya kapital aktivləri;

38. **İxrac** - Xarici ölkəyə ötürülən mallar, xidmətlər və ya kapital aktivləri;

39. **İcarə**– icarə əmlaka, torpağa və digər təbii ehtiyatlara müqavilə əsasinda, əvəzi ödənilməklə müddətli sahib olmaq və bunlardan istifadə etməkdir. İcarəyə iqtisadiyyatin bütün sahələrində yol verilir və o, mülkiyyətin bütün formalarının və növlərinin əmlakı barəsində tətbiq edilə bilər. İcarə münasibətlərini (icarəyə verənin icarəçi ilə münasibətləri) tənzimləyən əsas sənəd icarə müqaviləsidir. İcarə müqaviləsində aşağıdakılar nəzərdə tutulur: icarəyə verilən əmlakın tərkibi və dəyəri, icarə haqqının məbləği, icarənin müddəti və s. İcarə haqqı tərəflərin razılığı ilə natura formasında, pul formasında və ya qarışıq formada təyin edilə bilər. Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği əvvəlcədən normativ qaydada müəyyən edilir;

40. **İnvestisiya**– gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan

maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir. Bunlara pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar və s. aiddir. İnvestisiya fəaliyyəti investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərinin məcmusudur. Maliyyə aktivlərinə investisiya qoyuluşu qiymətli kağızlara və digər maliyyə aktivlərinə (ssudalara, digər müəssisələrin nizamnamə fondlarına və s.) qoyuluşları əks etdirir. Onlar ölkə və xarici maliyyə aktivlərinə investisiyaları birləşdirir;

41. **İnvestisiya fəaliyyəti** – investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərin məcmusudur;

42. **İnvestor** –(investor) mənfəət əldə etmək məqsədi ilə şəxsi və ya cəlb etdiyi maddi qiymətliləri – pul vəsaitlərini, qiymətli kağızları, əmlakı, mülkiyyəti və s.-ni investisiya layihələrinə yönəldən hüquqi və ya fiziki şəxsdir;

43. **İstehlak** - tələbatı, ehtiyacı təminetmək üçün işlətmə, sərf etmə, istifadəetmə, işlədərək sərf etmə, yox etmə;

44. **İstehsal** - hasil etmə, hazırlama, əldə etmə;

45. **Kapital** - sərmayə, sərvət, əmlak, istehsal vasitələri və s. hamısı birlikdə kapital hesab olunur; bütün öhdəliklər çixildıqdan sonra müəssisənin aktivlərinin qalan payı da kapital adlandırılır;

46. **Kassa** -1) pul, qiymətli kağızlar və s.saxlamaq üçün yeşik, şkaf, 2) idarələrdə, müəssisələrdə pul qəbuletmək, saxlamaq, vermək, bilet satmaq və s. üçün xüsusi şöbə 3)idarə və ya müəssisənin nağd pulu. 4) iqtisadi subyektin sərəncamına daxil olan nağd pul vəsaitlərinin hərəkətini ifadə edən mühasibat uçotu hesabı;

47. **Kassa əməliyyatları** – müəssisənin, təşkilatın kassasına nağd pul vəsaitlərinin və müxtəlif qiymətli kağızların qəbul edilməsi, onların orada saxlanması və buraxılması ilə əlaqədar əməliyyatları;

48. **Kommersiya-** ticarət, ticarət-vasitəçilik fəaliyyəti və ticarət xidmətinin marketinqi;sahibkarlıq fəaliyyəti;

49. **Kompensasiya** – əsas etibarilə sığorta hadisəsi baş verdikdə qorunan əmanətçilərə ödənilən pul vəsaitidir. Geniş mənada isə istənilən hadisə və proseslərin birbaşa və ya dolayı təsirinə məruz qalan insanlara və ya qruplara real və ya potensial zərərin ödənilməsi prosesidir. Bu mənada

daha geniş istifadə edilən anlayış aztəminatlı sosial qrupların dəstəklənməsini nəzərdə tutan sosial kompensasiya anlayışıdır;

50. **Kredit** – pul və ya natural formada verilən borc.

51. **Kreditor** -kredit verən şəxs vəya idarə;

52. **Qeyri-maddi aktivlər** – intellektual, o cümlədən ticarət nişanları, digər sənaye mülkiyyəti obyektləri, habelə müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada vergi ödəyicisinin mülkiyyət hüququnun obyekti kimi tanınan digər analoji hüquqlar;

53. **Qiymətli kağızlar** - Qiymətli kağız müəyyənləşdirilmiş formaya riayət olunmaqla hər hansı hüququ təsdiqləyən elə bir sənəddir ki, həmin hüquq bu sənəd olmadan nə həyata keçirilə bilər, nə də başqa şəxsə verilə bilər. Qiymətli kağız başqasına verildikdə onun təsdiqlədiyi bütün hüquqlar da keçir;

54. **Qiymətli Kağızlar bazarı** – iştirakçılar arasındaqiymətli kağızların buraxılması və tədavülünü əks etdirən iqtisadi münasibətlərin məcmusu;

55. **Qrant** – humanitar, sosial və ekoloji layihələri, müharibə və təbii fəlakət nəticəsində ziyan çəkmiş ərazilərdə dağılmış istehsal, sosial təyinatlı obyektlərin və infrastrukturun bərpası üzrə işləri, təhsil, səhiyyə, mədəniyyət, hüquqi məsləhət, informasiya, nəşriyyat və idman sahələrində proqramları, elm, tədqiqat və layihələşdirmə proqramlarını, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən digər proqramları hazırlamaq və həyata keçirmək üçün göstərilən yardımdır. Qrant yalnız konkret məqsədlər üçün verilir. Qrant maliyyə vəsaiti şəklində və ya başqa maddi formada verilir. Qrant təmənnasız verilir, onun əvəzi hər hansı bir şəkildə geri istənilə bilməz. Birbaşa mənfəət əldə etmək üçün istifadə edilən maddi yardım qrant sayılmır. Qrant predmeti olan layihə başa çatdırıldıqdan sonra qrant alanın sərəncamında hər hansı maliyyə vəsaiti və ya başqa maddi vəsait qalarsa, qrant haqqında müqaviləyə və ya qərara əsasən başqa hal nəzərdə tutulmamışdırsa, bu vəsait, qrant alanın mülahizəsinə görə, qrant predmeti ola bilən layihə və proqramların həyata keçirilməsinə sərf edilməlidir. Bilavasitə siyasi hakimiyyət uğrunda mübarizə məqsədləri, qanunların və digər qanunvericilik aktlarının qəbul etdirilməsi üzrə lobbiçilik fəaliyyəti, siyasi reklam, hər hansı siyasi təşkilatın və ya siyasi xadimin seçki kampaniyasının maliyyələşdirilməsi üçün istifadə edilən maddi yardım qrant

sayılmır. Qrant alanla münasibətlərində qrant verən donor sayılır. Donorla münasibətlərində qrant alan resipiyent sayılır;

56. **Lisenziya-** Ayrı-ayrı şəxslərə və ya təşkilatlara müəyyən iş görmək üçün ixtiranı, biliyi, təcrübəni və s. istifadə etməyə görə icazəni təsdiq edən rəsmi sənəd;

57. **Logistika**– istehsal, bölgü, mübadilə və istehlak sferalarında material resursları axınının səmərəli qaydada ən az xərclə çatdırılmasını təmin edə biləcək təsərrüfat fəaliyyətinin məcmusudur. Logistika materialların logistik (materialötürücü) sistemə daxil olduğu andan başlamış son satış prosesinə kimi material və informasiya axınının idarə edilməsi ilə məşğul olur, maddi-texniki təminatı həyata keçirir. İnformasiya axınının öyrənilməsi material axınının optimal variantda həyata keçirilməsi üçün zəruridir;

58. **Maliyyə** - pul vəsaitləri fondlarının yaradılması və istifadəsi prosesində iqtisadi münasibətlərin məcmusu;

59. **Mədaxil -** bir idarə, ticarət-sənaye müəssisəsi və yaşəxsin bütün gəliri;

60. **Mədən vergisi**– rəsmi qanunvericiliyə əsasən, ölkə qanunvericiliyində nəzərdə tutulmuş vergi növlərindən biridir və ölkə ərazisindəki və Xəzər dənizinin (gölünün) şelfindəki faydalı qazıntıların çıxarılmasına görə tutulur. Bu vergini yerin təkindən faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr ödəyirlər. Mədən vergisi hasilatçıdan yerin təkindəki faydalı qazıntını hasil etdiyinə görə tutulur. Ölkə ərazisində mövcud faydalı qazıntıların (məsələn, neft, qaz, filiz ehtiyatları və s.) çıxarılmasına görə mədən vergisi tətbiq olunur. Mədən vergisinin vergitutma bazası faydalı qazıntıların topdansatış qiymətidir;

61. **Mənfəət vergisi** – vergi ödəyicisinin gəliri (vergidən azad edilən gəlirdən başqa) ilə gəlirdən çıxılan xərci arasındakı fərq onun mənfəətidir. Mənfəətdən ödənilən vergiyə mənfəət vergisi deyilir;

62. **Məxaric** -çıxar , xərc;

63. **Mülk** – hər hansı bir şəxsin sahib olduğu və pul ilə ifadə edilə bilən mal, haqq və borcların məcmusudur. Sərvət və mülk oxşar olsalar da, fərqli anlayışlardır. Sərvət iqtisadi, mülk isə həmin sərvəti mülkiyyət baxımından şəxsə bağlayan hüquqi anlayışdır;

64. **Mülkiyyət hüququ -** mülkiyyət hüququ dedikdə elə bir subyektiv hüquq başa düşülür ki, bu hüquq qanunvericilikdə nəzərdə tutulmuş qaydada və şərtlərlə yaranır, mülkiyyətçinin özünə məxsus əmlaka öz mülahizəsinə görə sahiblik, əmlakdan istifadə və onun barəsində sərəncam səlahiyyətini ifadə edir, bu səlahiyyətlərin başqa şəxsə verilə bilməsini, əmlakdan girov kimi və ya başqa üsulla ifadə edilə bilməsini, əmlakı mülkiyyət kimi və ya idarə etmək üçün başqa şəxsə verilə bilməsini, habelə əmlak barəsində qanuna zidd olmayan istənilən hərəkətlər edilməsini təmin edir. Mülkiyyətçi bu hüquq əsasında əmlakdan hər hansı sahibkarlıq, təsərrüfat fəaliyyəti və ya qanunla qadağan edilməmiş başqa fəaliyyət üçün istifadə edə bilər;

65. **Pul -**hər yerdə mübadilə vasitəsi kimi işlənən aktiv; ayrı-ayrı malların, xidmətlərin və digər aktivlərin qiymətləndirilmə vasitəsi;

66. **Pul vəsaitləri hesabı** - müştərilər tərəfindən yalnız tam ödənilmək şərti ilə aparılan qiymətli kağızların alışı üçün hesab;

67. **Resurs** - pul vəsaiti, sərvət; dövlətbüdcəsində gəlir mənbəyi;

68. **Rüsum**- həm hüquqi, həm də fiziki şəxslərdən hüquqi əhəmiyyəti olan işlərin görülməsi üçün alınan vergi;

69. **Sahibkar** – sahibi olduğu hüquqi şəxsin mənfəətinnin təmin edilməsi və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özünün cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından ölkə qanunvericiliyi ilə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, ocümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında müstəqil təşəbbüskarlıq fəaliyyəti həyata keçirən fiziki şəxs;

70. **Sahibkarlıq fəaliyyəti** – şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların təqdim edilməsindən, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətidir;

71. **Saldo** - mühasibatda: mədaxil iləməxaric (debet ilə kredit) arasında olan fərq, qalıq;

72. **Sanksiyalar -** hər hansı qanun maddəsinin və hüquq normasının pozulmasına görə götürülən ölçü;

73. **Səyyar** - hərəkət edən, gəzən,dolaşan; bir yerdə durmayan. Daim bir yerdə qalmayan, yerini dəyişdirən,daim bir yerdə durmayıb istənilən tərəfədaşınan;

74. **Sosial müdafiə -** əhalinin həyat səviyyəsnin yaxşılaşdırılmasını, cəmiyyətin həyatında vətəndaşlara bərabər imkanlar yaradılmasını nəzərdə tutan iqtisadi, sosial və hüquqi dövlət təminatı sistemidir;

75. **Stasionar -** daim,həmişə bir yerdə olan, yerini dəyişməyən,bir yerdən başqa yerə köçməyən idarə, müəssisəvə s.;

76. **Ssuda**- dövlət büdcəsindən yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaitidir;

77. **Subsidiya** – 1) Müəyyən maliyyələşdirmə məqsədləri üçün dövlət tərəfindən dövlət büdcəsindən, büdcədənkənar dövlət fondlarından, eləcə də, digər maliyyə fondlarından təsərrüfat subyektlərinə, xarici dövlətlərə, müxtəlif büdcə həlqələrinə pul və ya natural formada təqdim olunan əvəzsiz maliyyə vəsaiti, yardım. Bu formada təqdim olunan subsidiya birbaşa subsidiya adlanır. 2) Dövlət tərəfindən iqtisadiyyatın hər hansı sahəsi üzrə inkişafı sürətləndirmək məqsədilə tətbiq edilən güzəştlər sistemi (vergi güzəştləri, güzəştli dövlət kreditləri və s.). Bu halda təqdim olunan güzəştlər dolayı subsidiyalar adlanır;

78. **Subvensiya** - bir büdcə həlqəsindən digərlərinə müxtəlif istiqamətdə məqsədli maliyyələşmə həyata keçirmək üçün əvəzsiz verilən maliyyə vəsaiti müəyyən olunmuş müddət ərzində məqsədyönlü şəkildə istifadə olunmadıqda geri alınır;

79. **Tədarük -** bir şeyi qabaqcadan hazırlama, bir işi görmək üçün əvvəlcədənhazırlıq görmə, hazırlıq, ehtiyat;

80. **Tədavül -**əmtəələrin, qiymətli kağızların, habelə pul vəsaitinin hərəkəti, mübadiləsi, alqı-satqısı;

81. **Tədiyə-** ödəmə, ödəniş;

82. **Tədiyə balansı**- müəyyən dövr (ay, rüb və ya il) ərzində ölkəyə digər ölkələrdən daxil olan pul vəsaitinin ümumi məbləği ilə digər ölkələrə pul ödəmələrinin məbləği arasındakı nisbəti ifadə edən cədvəl;

83. **Torpaq vergisi** – rəsmi qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir. Torpaq mülkiyyətçiləri və ya istifadəçiləri təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq vergisinə cəlb olunurlar. Fiziki şəxslərin və

müəssisələrin Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri vergitutma obyekti sayılır. Torpaq vergisi torpaq sahələri barədə mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur. Kənd təsərrüfatı torpaqlarının vergi dərəcələri torpaqların təyinatı, coğrafi yerləşməsi, keyfiyyəti nəzərə alınmaqla, şərti ballar əsasında torpaq sahəsinin hər bir hektarına görə hesablanır. Bir şərti balın qiyməti 6 qəpikdir. Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar, yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə vergi torpaq sahəsinin hər 100 kvadratmetrinə görə hesablanır;

84. **Ümumi daxili məhsul** —bir il ərzində iqtisadiyyatda (ölkə daxilində) istehsal olunan bütün mal və xidmətlərin məcmu bazar qiymətidir;

85. **Vergi** – dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özəlləşdirilməsi şəklində dövlət büdcəsinə və yeri büdcələrə köçürülən məcburi, fərdi,əvəzsiz ödənişdir;

86. **Vergi dərəcəsi**- qanunvericiliklə müəyyən olunmuş vergi güzəştləri nəzərə alınmaqla hər hər bir vergitutma obyektinə hesablanan vergi məbləğini əks etdirən faiz göstəricisi;

87. **Vergi olmayan daxilolmalar**– özündə kapitalla əməliyyatlardan gəlirləri, cərimə və sanksiyalar üzrə daxilolmalar və qeyri-dövlət mənbələrindən könüllü, bütün əvəzsiz cari daxilolmalar istisna olmaqla, digər əvəzi qaytarılmayan bütün büdcə daxilolmalarını birləşdirir;

88. **Vergi ödəyicisi** – qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən şəxs;

89. **Vergitutma bazası** - Vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadəsi;

90. **Vergitutma subyekti**- öz vəsaiti heasabına üzərinə vergi ödəmək öhdəliyi düşən hüquqi və ya fiziki şəxs;

91. **Vergitutma obyekti** – vergitutma obyekti gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar, təqdim edilmiş malların (işin, xidmətin) dəyəri və ya bu məcəllə ilə müəyyənləşdirilən digər vergitutma obyektləridir;

92. **Yerli büdcə**– bələdiyyə statusuna uyğun olaraq özünüidarə prinsiplərini reallaşdırmaq, bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaiti. Yerli büdcə bələdiyyə büdcəsi olub dövlət büdcəsinin tərkib hissəsi deyil;

93. **Yerli (bələdiyyə) vergisi** -yerli vergilər (bələdiyyə vergiləri) aşağıdakılardır: fiziki şəxslərin torpaq vergisi; fiziki şəxslərin əmlak vergisi; yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi; bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi. Yerli vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

ƏLAVƏ 1: Bələdiy-rin maliyyəl-si ilə bağlı Qanunv-dən çıxarışlar

# ƏLAVƏ 1: Bələdiyyələrin maliyyələşməsi ilə bağlı Qanunvericilikdən çıxarışlar

## Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanunundan ÇIXARIŞ

M a d d ə 3 . Bələdiyyə maliyyəsinin iqtisadi əsasları və formalaşması prinsipləri

1. Bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil edir.

2. Bələdiyyənin maliyyə vəsaitinin formalaşması və istifadəsi özünüidarəetmə, müstəqillik, aşkarlıq və yerli mənafenin respublika mənafeyi ilə uzlaşması prinsiplərinə əsaslanır.

M a d d ə 6 . Büdcələrarası və dövlət hakimiyyəti orqanları ilə münasibətlər

1. Yerli büdcələrin müstəqilliyinə dövlət zəmanət verir və onun öhdəliklərinə məsuliyyət daşımır. Dövlət zəmanəti aşağıdakılara əsaslanır:

1.1. İnvestisiya və pul-kredit siyasəti əsasında istehsal sferasının inkişafına şərait yaratmaq;

1.2. Yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda, yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrinin müəyyən edilməsi və ya dövlət büdcəsindən dotasiya və subvensiyaların ayrılması.

M a d d ə 7 . Yerli büdcənin gəlirləri

1. Yerli büdcənin gəlirlərinə aşağıdakılar aid edilir:

1.1. fiziki şəxslərdən torpaq vergisi;

1.2. fiziki şəxslərdən əmlak vergisi;

1.3. yerli əhəmiyyətli tikinti materiallar üzrə mədən vergisi;

1.4. bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi;

1.5. küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödəniş;

1.6. kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum və qanunla müəyyən edilən digər yerli vergi və ödənişlər;

1.7. Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar;

1.8. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər, lotereyalardan daxil olan vəsait, habelə bələdiyyələrin fəaliyyətindən əldə edilən digər gəlirlər;

1.9. fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları;

1.10. dövlət əhəmiyyətli tədbirlərin və dövlət orqanlarının qərarları nəticəsində yaranan xərclərin ödənilməsi üçün maliyyə vəsaiti.

1.11 Yerli (bələdiyyə) vergilər və öhdəliklərə görə qanunvericiliklə müəyyən edlmiş qaydada hesablanmış faiz və sanksiyalar.

**Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında Azərbaycan Respublikasının Qanunundan ÇIXARIŞ**

3.3. Bələdiyyələr tərəfindən tətbiq edilən ödənişlər bu Qanunla müəyyənləşdirilən ödənişlərdən, habelə yerli rəy sorğularının nəticələri əsasında həyata keçirilən məqsədli layihələrin maliyyələşdirilməsi üçün hüquqi və fiziki şəxslərin ödədikləri könüllü birdəfəlik ödənişlərdən ibarətdir.

3.4. Bu ödənişlər hüquqi və fiziki şəxslər tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş vergi öhdəlikləri yerinə yetirildikdən sonra onların sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilir.

3.5. Bu ödənişlərdən yalnız təyinatı üzrə istifadə olunmalıdır.

Maddə 8. Yerli vergilərin tərkibi

8.0. Yerli vergilərə aşağıdakılar aiddir:

8.0.1. fiziki şəxslərdən torpaq vergisi;

8.0.2. fiziki şəxslərdən əmlak vergisi;

8.0.3. yerli əhəmiyyətli tikinti materialları (kərpic-kirəmit gilləri, tikinti qumları, yüksək möhkəmliyə malik olan çınqıl xammalı) üzrə mədən vergisi;

8.0.4. bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi.

Maddə 9. Yerli ödənişlərin tərkibi

9.1. Yerli ödənişlərə aşağıdakılar aiddir:

9.1.1. bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödəniş;

9.1.2. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən daxil olan ödəniş;

9.1.3. bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödəniş;

9.1.4. bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödəniş. Bü ödəniş hər bir şəxs üçün sutkada 1,1 manatdan çox olmamaqla müəyyən edilir;

9.1.5. bələdiyyə ərazilərində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqları və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqları üçün ödəniş. Bu ödəniş hər bir nəqliyyat vasitəsi üçün sutkada 0,1 manatdan çox olmamaqla müəyyən edilir.

9.2. Qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli proqramların maliyyələşdirilməsi üçün yerli rəy sorğusunun nəticəsinə əsasən hüquqi və fiziki şəxslərin sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilən könüllü birdəfəlik ödənişlər tətbiq edə bilər. Bu ödənişlərdən yalnız təyinatı üzrə istifadə olunmalıdır.

## Büdcə sistemi haqqında
## Azərbaycan Respublikasının Qanunundan
## ÇIXARIŞ

1.1.13. büdcə ssudaları - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaiti;

1.1.14. dotasiya - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədi ilə əvəzsiz verilən maliyyə vəsaiti;

1.1.15. qrant - daxili və xarici mənbələr hesabına əvəzsiz verilən məqsədli maliyyə yardımı;

1.1.16. subvensiya - məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaiti;

1.1.17. subsidiya - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaiti;

Maddə 11. Dövlət büdcəsi layihəsinin tərtibi prosesi və büdcə təqvimi

11.14. Dövlət büdcəsindən maliyyə yardımları almaq istəyən bələdiyyələr cari ilin may ayının 1-dək aşağıdakı sənədləri və məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər:

11.14.1. cari ilin gözlənilən və ötən ilin büdcəsinin faktiki nəticələri barədə arayış;

11.14.2. növbəti büdcə ili üzrə yerli büdcələrin nəzərdə tutulan gəlirləri və xərcləri, dövlət büdcəsindən ayrılacaq dotasiyanın və digər maliyyə yardımlarının həcminin əsaslandırılması;

11.14.3. ötən ildə yerli büdcənin icra vəziyyəti barədə auditor rəyi;

11.14.4. müvafiq icra hakimiyyəti orqanının sorğusuna görə digər materiallar.

IV fəsil

Yerlİ büdcələrin tərtibi, təsdiqi, icrası və icrasına nəzarət

Maddə 30. Yerli büdcə

30.1. Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, bələdiyyələrin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir.

30.2. Yerli büdcənin tərtibi və icrası büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri əsasında və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatına uyğun olaraq həyata keçirilir.

Maddə 32. Bələdiyyələrlə dövlət hakimiyyəti orqanları arasında büdcə münasibətləri

32.2. Dövlətin yerli büdcələrə maliyyə dəstəyi aşağıdakı yollarla həyata keçirilir:

32.2.1. investisiya mühitini yaxşılaşdırmaqla və səmərəli iqtisadi siyasəti həyata keçirməklə istehsal və xidmət sahələrinin inkişafına şərait yaratmaq;

32.2.2. yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcələrin vəsaiti hesabına maliyyələşdirmək mümkün olmadıqda, dövlət büdcəsindən dotasiya və subvensiya ayırmaq.

32.3. Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər.

32.4. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə, uyğun azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur.

Maddə 33. Yerli büdcənin gəlirləri

33.1. Yerli büdcənin gəlirlərinə Azərbaycan Respublikasının müvafiq qanunları ilə müəyyən edilmiş vergilər və digər ödənişlər, habelə həmin vergi və ödənişlərə görə hesablanmış faiz və sanksiyalar aid edilir.

33.2. Yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi və güzəştlərin verilməsi qaydası, habelə onların dərəcələrinin yuxarı həddi qanunla müəyyən edilir, tətbiqi qaydaları isə bələdiyyələrin qərarları ilə müəyyənləşdirilir.

33.3. Qanunvericiliklə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli tədbirlərin maliyyələşdirilməsi üçün könüllü birdəfəlik ödənişlər barədə qərarlar qəbul edə bilərlər. Könüllü birdəfəlik ödənişlər yalnız məqsədli təyinatı üzrə istifadə olunur.

## Azərbaycan Respublikasının Vergi Məcəlləsindən
## ÇIXARIŞ

Maddə 8. Yerli vergilər (bələdiyyə vergiləri)

8.1. Yerli vergilər (bələdiyyə vergiləri) aşağıdakılardır:

8.1.1. fiziki şəxslərin torpaq vergisi;

8.1.2. fiziki şəxslərin əmlak vergisi;

8.1.3. yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;

8.1.4. bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Azərbaycan Respublikasının Dövlət və bələdiyyə qiymətli kağızlarının buraxılması, yerləşdirilməsi və tədavülü haqqında

1.2 Dövlət və bələdiyyə tərəfindən veksellərin buraxılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, «Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında» Əsasnaməyə və bu Qaydaların müvafiq tələblərinə uyğun qaydada həyata keçirilir.

2. Dövlət və bələdiyyə qiymətli kağızlarının buraxılış müddətləri: 2.1 Dövlət və bələdiyyə qiymətli kağızlarının müddət üzrə aşağıdakı növləri buraxılır: - qısamüddətli qiymətli kağızlar 1 ilədək; - ortamüddətli qiymətli kağızlar 1 ildən 5 ilədək; - uzunmüddətli 5 ildən artıq.

**Bələdiyyələrin statusu haqqında**
**Azərbaycan Respublikasının Qanunundan**
**ÇIXARIŞ**

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq bu Qanun yerli özünüidarəni həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını müəyyənləşdirir.

Maddə 4. Yerli sosial müdafiə və sosial inkişaf proqramları

1. Yerli sosial müdafiə proqramları bələdiyyə tərəfindən müəyyən edilən vətəndaşlar kateqoriyasına dövlət sosial təminatından əlavə sosial təminatlar müəyyən edir. Həmin təminatlar mütəmadi və birdəfəlik ola bilər.

2. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarından məqsəd dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar ~~məktəbəqədər tərbiyə,~~ təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi, sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı, mənzil tikintisi, yerli əhəmiyyətli su mənbələrindən istifadə, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı, yanacaq təchizinin və satışının təşkili, yerli əhəmiyyətli yolların tikilməsi və saxlanılması, mərasim xidmətlərinin təşkili və qəbiristanların qorunması, yerli nəqliyyat və rabitə xidmətinin təşkili, ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması, mədəniyyət müəssisələrinin

inkişafına yardım göstərilməsi, tarix və mədəniyyət abidələrinin saxlanılması, informasiya xidmətinin təşkili, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şərait yaradılması, kimsəsizlərə, xəstələrə, qocalara, maddi imkansızlara, valideyn himayəsindən məhrum olmuş, həmçinin istedadlı uşaqlara əlavə yardım, fiziki tərbiyə və idmanın inkişafına yardım göstərilməsi, əhalinin məşğulluğuna, adamların peşələri üzrə işlə təmin olunmasına gənclərin sosial hüquqi müdafiəsinə, ailə kəndli təsərrüfatının inkişafına kömək göstərilməsi və yerli infrastrukturun digər sahələrini əhatə edə bilər.

Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında mütəmadi olaraq mövcud qəbiristanlıqların qorunması, abadlaşdırılması, yeni qəbiristanlıq sahələrinin ayrılması, yas mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulmuş tikililərin təmiri və yenilərinin inşası, mərasim xidmətlərinin, o cümlədən bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım göstərilməsi nəzərdə tutulmalıdır.

Bədən tərbiyəsi və idman sahəsində bələdiyyələrin səlahiyyətləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

3. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr bu maddənin 2-ci bəndində göstərilən məsələlər üzrə dövlət orqanlarının müvafiq proqramlarının həyata keçirilməsinə müdaxilə edə bilməzlər.

Maddə 5. Yerli iqtisadi inkişaf proqramları

1. Yerli iqtisadi inkişaf proqramlarından məqsəd dövlətin həyata keçirdiyi iqtisadi inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli iqtisadi inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar aqrar, sənaye, rabitə, nəqliyyat və digər sahələri əhatə edə bilər.

Yerli iqtisadi inkişaf proqramlarında bələdiyyə torpaqlarından və dövlətin bələdiyyələrə verdiyi əmlakdan səmərəli istifadə yolları göstərilir.

2. Yerli iqtisadi inkişaf proqramlarını həyata keçirərkən bələdiyyələr dövlət orqanlarının səlahiyyətlərinin həyata keçirilməsinə müdaxilə edə bilməzlər.

Maddə 6. Yerli ekoloji proqramlar

1. Yerli ekoloji proqramlardan məqsəd dövlətin həyata keçirdiyi ekoloji proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli

əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə yerli əhalinin hamılıqla cəlb edilməsidir. Həmin proqramlara yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin yaşıllaşdırılması və abadlaşdırılması, məişət tullantılarının yığılması, nəql edilməsi, zərərsizləşdirilməsi, emalı və bu sahədə başqa məsələlərin həlli üçün tədbirlər görülməsi, suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması, qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi və yerli əhəmiyyətli digər tədbirlər daxil edilə bilər.

2. Bələdiyyələr dövlətin ekoloji proqramları ilə yerli ekoloji proqramların əlaqələndirilməsinə, müəyyən hallarda birgə tədbirlərin həyata keçirilməsinə yardım göstərirlər.

IV fəsil. Vətəndaşların öz iradəsini birbaşa ifadə etməsi və yerli özünüidarənin həyata keçirilməsinin digər formaları

Maddə 26. Yerli rəy sorğusu

1. Yerli əhəmiyyətli məsələlərə dair yerli rəy sorğusu təyin edilə bilər.

2. Yerli rəy sorğusunun keçirilməsi haqqında qərarı bələdiyyə nizamnaməsinə uyğun olaraq öz təşəbbüsü ilə və ya əhalinin tələbi əsasında qəbul edir.

3. Bələdiyyə ərazisində yaşayan və seçki hüququ olan bütün vətəndaşların yerli rəy sorğusunda iştirak etmək hüququ vardır. Yerli rəy sorğusunda vətəndaşlar bilavasitə və könüllülük əsasında iştirak edirlər.

4. Yerli rəy sorğusunda səsvermə gizli keçirilir, vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir.

5. Yerli rəy sorğusunun təyin edilməsi və keçirilməsi qaydası Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənir.

Maddə 28. Vətəndaşların yığıncaqları

1. Əhalisi 500 nəfərdən az olan bələdiyyələrdə yerli əhəmiyyətli məsələlərə münasibət bildirmək, təkliflər irəli sürmək, kollektiv rəy söyləmək, qərarlar qəbul etmək məqsədi ilə həmin bələdiyyə ərazilərində vətəndaşlar öz yığıncaqlarını keçirə bilərlər.

2. Vətəndaşların yığıncaqlarında həmin bələdiyyə ərazisində yaşayan 18 yaşı tamam olmuş vətəndaşların iştirak etmək hüququ vardır.

3. Vətəndaşların yığıncaqlarında bələdiyyənin nizamnaməsi və başqa qərarlar qəbul edilir, dəyişdirilir və ləğv olunur.

4. Vətəndaşların yığıncaqları bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 25 faizi iştirak etdikdə səlahiyyətlidir.

5. Bu maddənin 1-ci bəndində əhalinin sayı ilə bağlı nəzərdə tutulan məhdudiyyət bələdiyyələrin birləşməsi və ayrılması məsələsinə münasibət bildirmək üçün keçirilən yığıncaqlara şamil edilmir.

V fəsil. Yerli özünüidarənin iqtisadi əsasları

Maddə 32. Yerli özünüidarənin iqtisadi əsasları

1. Yerli özünüidarənin iqtisadi əsaslarını bələdiyyə mülkiyyəti, yerli maliyyə, dövlət mülkiyyətində olan və bələdiyyələrin istifadəsinə verilmiş bələdiyyə əhalisinin tələbatının ödənilməsinə xidmət edən əmlak təşkil edir.

2. Bələdiyyə öz əmlakına dair mülkiyyətçi hüququna malikdir, yəni sərbəst olaraq əmlakına sahiblik edir, ondan istifadə edir və ona sərəncam verir.

Maddə 33. Bələdiyyə mülkiyyəti

1. Bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti, bələdiyyənin büdcədənkənar fondları, bələdiyyə əmlakı, habelə bələdiyyə torpaqları, bələdiyyə müəssisələri və təşkilatları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları, dövlət və xüsusi mülkiyyətdə olmayan yollar, bələdiyyə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri, digər daşınar və daşınmaz əmlak daxildir.

2. Bələdiyyələr bələdiyyə mülkiyyətini idarə edirlər. Bələdiyyə mülkiyyətinin tərkibinə daxil olan əmlak barəsində mülkiyyət hüququnu bələdiyyələr, Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hallarda isə bilavasitə əhali həyata keçirir.

3. Qanuna uyğun olaraq bələdiyyələr bələdiyyə mülkiyyəti obyektlərini fiziki və hüquqi şəxslərin müvəqqəti və ya daimi istifadəsinə, icarəsinə verə bilər, qanunla müəyyənləşdirilmiş qaydada özgəninkiləşdirə bilər, habelə bələdiyyə mülkiyyətində olan əmlak barəsində başqa əqdlər bağlaya bilər, özəlləşdirilən və ya istifadəyə verilən obyektlərdən istifadə şərtlərini müqavilə və sazişlərdə müəyyənləşdirə bilərlər.

4. Qanuna uyğun olaraq bələdiyyələr yerli əhalinin mənafeyi naminə, bələdiyyənin hüdudları daxilində olan torpaqlardan istifadə şərtlərini müəyyənləşdirə bilərlər.

5. Qanunla başqa hal nəzərdə tutulmayıbsa, bələdiyyə mülkiyyətinin özəlləşdirilməsi qaydasını və şərtlərini bilavasitə əhali və ya bələdiyyə müstəqil surətdə müəyyənləşdirir. Bələdiyyə mülkiyyəti obyektlərinin özəlləşdirilməsindən daxil olan vəsaitlər bütünlüklə yerli büdcəyə daxil olur.

6. Bələdiyyə mülkiyyətindən yalnız Azərbaycan Respublikasının Konstitusiyasında və bu Qanunda nəzərdə tutulmuş bələdiyyə vəzifələri üçün istifadə oluna bilər.

7. Dövlət bələdiyyə mülkiyyətini müdafiə edir, subsidiyalar, kreditlər, qrantlar vermək yolu ilə onun artmasına imkan yaradır.

Maddə 39. Yerli büdcələr

1. Yerli büdcələr bələdiyyə büdcələrindən ibarətdir.

2. Yerli büdcələrin tərtibini, təsdiqini və icrasını, onların icrasına nəzarəti bələdiyyələr müstəqil həyata keçirirlər.

Maddə 40. Yerli büdcənin mədaxili və məxarici

1. Yerli vergilər və ödənişlər, Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin II hissəsində və 144-cü maddəsinin II hissəsində nəzərdə tutulmuş əsaslarla qanunvericilik və icra hakimiyyətləri tərəfindən bələdiyyəyə verilmiş əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə ayrılmış müvafiq zəruri maliyyə vəsaiti, bələdiyyə əmlakının özəlləşdirilməsindən, bələdiyyə əmlakının icarəyə verilməsindən, yerli lotereyalardan, bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamlarına görə daxil olan ödənişlər, bələdiyyə müəssisə, idarə və təşkilatlarının mənfəətindən tutulan vergi, dotasiyalar, subvensiyalar, transfert ödənişləri, qanuna və bələdiyyələrin qərarlarına müvafiq surətdə digər mədaxil, habelə bələdiyyələrin fəaliyyəti nəticəsində yaranan başqa vəsait yerli büdcələrin mədaxilini təşkil edir.

2. Bələdiyyələr yerli büdcələrin vəsaiti barəsində müstəqil sərəncam verirlər.

3. Yerli büdcələrin mədaxil və məxaric hissələrində yerli əhəmiyyətli məsələlərin həllinin və bələdiyyələrə qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən verilən səlahiyyətlərin həyata keçirilməsinin maliyyələşdirilməsi ayrılıqda nəzərdə tutulur.

Maddə 41. Yerli büdcələrin təmin edilməsi

1. Qanuna uyğun olaraq, Azərbaycan Respublikasının dövlət orqanları bələdiyyələrə verilmiş səlahiyyətlərin normal yerinə yetirilməsinə kifayət

edən yerli büdcələrin zəruri xərclərinin ödənilməsi üçün gəlir mənbələrini təsbit etmək yolu ilə bələdiyyələrin büdcələrini formalaşdırırlar.

2. Yerli büdcələrin mədaxil hissəsi Azərbaycan Respublikasının Dövlət büdcəsi qəbul edilərkən müvafiq bələdiyyələr üzrə hər il nəzərdə tutulur. Yerli büdcələrin xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər.

3. Bələdiyyələr onların məşğuliyyət dairəsinə aid edilmiş sahələrdə əhalinin əsas yaşayış tələbatının ödənilməsini dövlət sosial standartlarından aşağı səviyyədə təmin edə bilməzlər. Bu standartların yerinə yetirilməsində dövlət müvafiq ayırmaları yerli büdcələrin mədaxilində təsbit etmək yolu ilə bələdiyyələrə kömək göstərə bilər.

4. Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin müvafiq icra hakimiyyəti orqanları tərəfindən qeydiyyata alınması qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 42. Ayrı-ayrı dövlət səlahiyyətlərinin həyata keçirilməsinin maliyyələşdirilməsi və bələdiyyə orqanlarının əlavə xərclərinin kompensasiyası

1. Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər.

2. Azərbaycan Respublikası icra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində bələdiyyənin məxarici artıb mədaxili azalarsa, qərar qəbul etmiş orqanlar kompensasiya ödəyirlər. Kompensasiyanın məbləği müvafiq qərarın qəbul olunması ilə bir vaxtda müəyyənləşdirilir. Bələdiyyələrin əlavə xərclərinə səbəb olan dövlət orqanlarının qərarlarını bələdiyyələr onlara kompensasiya kimi verilmiş vəsait həddində həyata keçirirlər.

Maddə 43. Yerli vergilər və ödənişlər

1. Yerli vergiləri, ödənişləri, habelə onların ödənilməsi üzrə güzəştləri bələdiyyələr Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və qanunlarına uyğun müəyyənləşdirirlər.

2. Bələdiyyələr qanunvericilikdə nəzərdə tutulmuş qaydada məqsədli layihələrin maliyyələşdirilməsi üçün yerli rəy sorğusunun nəticəsinə əsasən hüquqi və fiziki şəxslər tərəfindən ödənilən könüllü birdəfəlik ödənişlər tətbiq edilə bilər.

3. Yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

Maddə 45. Bələdiyyələrin büdcədənkənar fondları

Bələdiyyələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və şərtlərlə məqsədli büdcədənkənar fondlar yarada bilərlər.

Maddə 46. Bələdiyyələrin kredit münasibətlərində iştirakı

Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq bələdiyyələr bələdiyyə lotereyaları buraxa bilər, kreditlər ala bilərlər.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

### Azərbaycan dilində

1. Ağayev A.Q. / Maliyyə terminlərinin izahlı və tərcümə lüğəti, Bakı: “Ziya”, 2005 – 421 s.;

2. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan dilinin izahlı lüğəti, Dörd cilddə, Bakı: “Şərq – Qərb”, 2006;

3. Azərbaycan respublikası İqtisadiyat və Sənaye Nazirliyi, İqtisadi İslahatlar Mərkəzi / Azərbaycanda İqtisadi islahatların həyata keçirməsi xüsusiyyətləri və problemləri. Bakı, 2002;

4. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2001;

5. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2001;

6. Azərbaycan Demokratik Tələbə və Gənclər Təşkilatının Yaponiyanın Azərbaycandakı səfirliyinin "Ot kökləri" Qrant proqramı əsasında həyata keçirdiyi layihələri;

7. Bədəlov Ş,Ş., Məhərrəmov R.V. və b. / Büdcə sistemi (dərslik). Bakı, 2004;

8. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999;

9. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999;

10. Bələdiyyə maliyyəsi və yerli büdcə proses. Bakı, 2003;

11. "Bələdiyyə qanunvericiliyi toplusu", İqtisadi Tədqiqatlar Mərkəzinin nəşri, Bakı. "CBS mətbəəsi", 2013;

12. "Büdcə sistemi haqqında " Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002;

13. "Ekspert" iqtisad jurnalının xüsusi buraxılışı / Büdcə bələdçisi. Bakı, 2003;

14. "Ekspert" iqtisad jurnalının xüsusi buraxılışı / Büdcə terminləri: izahlı lüğət. Bakı, 2003;

15. Əliyev A. / Azərbaycanın iqtisadi siyasəti, (dərslik). Bakı, "Qanun" nəşriyyatı, 2003;

16. Əliyev A., Nuriyev C., Nuriyeva G. / İqtisadiyyat və hüquq: ensklopedik izahlı lüğət. Bakı, "Qanun" nəşriyyatı, 2002;

17. Əliyev F.B. / İnvestisiya layihələrinin təhlili və dəyərləndirilməsi (dərslik). Baki, "Azər" nəşriyyatı, 2003

18.Əhmədov İ., Aslanlı K., Əhmədov Ş., / Dövlət maliyyə terminləri lüğəti. Bakı,2008;

19. Fətullayev R., Fərəcov Z. / Bələdiyyələrdə maliyyə hesabatlarının tərtibinə dair məsələlər toplusu. I nəşr, Bakı, "Meqaprint" mətbəəsi, 2014. – 180 səh;

20. İbadoğlu Q, Mehtiyev A.S., Əliyev S.O. / Büdcə bələdçisi. Bakı, "Ekspert" iqtisad jurnalı, 2003;

21. Məmmədov Z.F., Zeynalov V. / Maliyyə, pul tədavülü, kredit. Bakı, 2007;

22. Novruzov N.A., Hüseynov X.Ə., / Maliyyə (dərslik). Bakı, "Kooperasiya" nəşriyyatı, 2007;

23. Səlimzadə M.İ., Yusifov S.C., Xəlilov Q.R., / Bələdiyyə büdcəsinin planlaşdırılması: şəffaflıq və hesabatlılıq. Bakı, 2015;

24. Sidoroviç A.V.-nın rəhbərliyi ilə müəllif kollektivi, / İqtisadi Nəzəriyyə Kursu (dərslik), III nəşr. Moskva, "Delo i Servis"nəşriyyatı 2007;

25."Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002

**Rus dilində əbəbiyyat**

26. Борисов Е.Ф. / Экономическая теория, (учебник., Москва, 2010;

27. Драган З. Милошевич / Набор инструментов для управления проектами. Москва, «АМК» 2014;

28. Кулиев Р.А. / Регулирование инвестиционной деятельности. Баку, 2008;

29. Шимширт Н.Д., Крашенникова Н.В., / Управление государственными и муниципальными финансами, (учебник). Москва «Альфа-М», «Инфра-М» 2014;

**İngilis dilində ədəbiyyat:**

30.John Dowsnes, Jordan Elliot Goodman, / Dictionary of Finanace and İnvestment Terms, Seventh edition, Barron"s (USA), 2006;

**Elektron ədəbiyyat:**

31. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı - www.president.az;

32. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəsmi internetsaytı - www.justice.gov.az;

33. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi internetsaytı- www.maliyye.gov.az

34. Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internetsaytı - www.taxes.gov.az

35. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasırəsmi internet saytı – www.e-qht;

36. AzərbaycanRespublikasıPrezidentinİşlərİdarəsinin PrezidentKitabxanasırəsmi internet saytı- www.preslib.az

37. Bələdiyyələr üçün internet resursu–www.belediyye.info.az

38. Moskva Kənd Təsərrüfatı Akademiyasının rəsmi internet saytı - www.ftcntr.ru

Dr. Ruslan Atakişiyev, Sevinc Məmmədova, Radil Fətullayev

# Bələdiyyələrdə subvensiya layihələrinin hazırlanması üzrə bələdçi

(Praktik nümunələr əsasında)

Bədii redaktor: Mehdi Abdullayev
Korrektor: Sevinc Atakişiyeva

Yığılmağa verilmişdir:
Çapa imzalanmışdır:
Nəşrin ölçüsü:
Fiziki çap vərəqi:
Sifariş: Sayı: